HARUN YƏHYA



2-Ci Cild

# ATATÜRK ENSİKLOPEDİYASI

ADNAN OKTAR

# ATATÜRK ENSİKLOPEDİYASI

2-Cİ CİLD · HARUN YƏHYA

# MÜNDƏRİCAT

OXUCUYA ........ 4
YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA ........ 5
1. Atatürkün qanunları ........ 7
2. Atatürk və islahatlar ........ 26
3. Atatürk və Milli Təhsil ........ 44
4. Atatürkün hərbi dahiliyi ........ 55
5. Atatürkün diplomatik dahiliyi ........ 73
6. Atatürkün uzaqgörənliyi ........ 84
7. Ən böyük türk: Atatürk ........ 94
8. Atatürk və islam dini ........ 103
9. Atatürkün üstün şəxsiyyəti ........ 127
10. Atatürkün kitabları ........ 143
Təkamül yalanı ........ 151

ÖN SÖZ

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

YAZIÇI HAQQINDA

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

I FƏSİL

# Atatürkün qanunları

Atatürk qanunlarını araşdırdığımızda, bu qanunların türkün yüksək xarakter və səciyyəsi ilə uyğunlaşdığını görə bilərik. Mustafa Kamal hərbi vəzifələri və qatıldığı döyüşlər nəticəsində, ölkəsini və insanlarını çox yaxşı müşahidə etmiş; özündən əvvəlki rəhbərlər kimi, edilməyə çalışılan yeniliklərdə, nə xalqdan uzaq qalmış, nə də “xalqın üstündə” rəftar göstərmişdir. Türk millətinə inanan və türkün əsrlərdir basdırılmış xarakterini ortaya çıxaran Atatürk; bu inancla qanunlarını tətbiq etmiş və müvəffəqiyyətli olmuşdur. Atatürk bu vəziyyəti, aşağıdakı sözləri ilə izah etmişdir:

> *“Yoldaşlar, keçmişdə, ən böyük fəlakətləri hazırlayan keçmişdə, çox dərin keçmişdə də türk millətini mənliyindən çıxaran bir təşkilat vardı ki, ona dövlət və hökumət təşkilatı deyərdilər. Millət hökumət təşkilatının zahirən əsiri idi. Bu onun görünən mənzərəsi idi. Halbuki türk, əsarət qəbul etməyən millətdir, türk milləti heç vaxt əsir olmamışdır.*

Hökumət başqa vəziyyətdə qalmış, millət də hökumətə qarşı biganə olmuş və ondan nifrət etmişdir. Məhz buna görə çox fəlakətlər oldu. Lakin bunlar dövlət və hökumət təşkilatları üzərində meydana gəldi. Dövlətlər məhv olmuşdular, dövlətlər ölmüşdülər. Lakin türk millətinin daha güclü, daha şərəfli yaşadığını görürsünüz. Bugünkü hökumətimiz, təşkilatı dövlətimiz birbaşa millətin öz-özünə, özbaşına etdiyi bir təşkilat-i dövlət və hökumətdir ki, onun adı Cümhuriyyətdir. Artıq hökumət ilə millət arasında keçmişdəki ayrılıq qalmamışdır... Artıq hökumət və hökumət mənsubları özlərinin millətdən ayrı olmadıqlarını və millətin əfəndi olduğunu tamamilə anlayıblar...”1

## Cümhuriyyətçilik

Cümhuriyyətçilik milli hakimiyyətə əsaslanan, müasir və demokratik idarəni hədəfləyən rəhbərlik prinsipidir. Bu qanun, dövlət nizamı və rəhbərliyində müəyyən şəxslərin və ya zümrələrin hakimiyyətinin qarşısının alınmasında ən möhkəm təminatdır. Belə ki, bu qanun yaralansa, millətin həqiqi “hakimiyyəti”ndən danışmaq mümkün olmaz.

*"...Cümhuriyyətimiz düşünüldüyü kimi zəif deyil. Cümhuriyyət pulsuz da qazanılmayıb. Bunu əldə etmək üçün çox qan tökdük. Hər tərəfə qırmızı qanımızı axıtdıq. Müəssisəmizi müdafiə etmək üçün lazım olanı etməyə hazırıq."2*



◉ Cümhuriyyət bayramı tədbirləri (29 oktyabr 1927)

Atatürk milli mübarizə dövründə və sonrasında millətin heç bir sərhədə və təzyiqə bağlı olmadan, tam müstəqil quruluşa sahib olmasını istəmiş və xalq rəhbərliyini müdafiə etmişdir. Bu baxımdan Cümhuriyyətçilik qanununu, "milli hakimiyyət" prinsipi ilə birləşdirmiş və "Hakimiyyət qeydsiz-şərtsiz millətindir" deyərək, bu düşüncəsini ən açıq şəkildə ifadə etmişdir.

Qurtuluş savaşı əsnasında Ankarada qurulan hökumət sistemi rəsmi adı Cümhuriyyət olmamasına baxmayaraq, əslində həqiqətən bir cümhuriyyət idi. Çünki xalqın seçdiyi nümayəndələr məclisi ilə bu məclisin nəzarəti altında ölkəni idarə edən bir hökumət vardı. Qurtuluş savaşından sonra Türk dövlətinin rəhbərlik şəkli qətilik qazandı; Cümhuriyyət 29 oktyabr 1923-ci ildə rəsmi elan edildi.

Cümhuriyyətin elan edilməsindən sonra ilk olaraq 1924-cü il konstitusiyasının 1-ci maddəsinə "Türkiyə dövləti bir cümhuriyyətdir" hökmü qoyuldu. Daha sonra 1961 və 1982-ci il konstitusiyalarında bu hökm qorunmaqla yanaşı, 1-ci maddənin dəyişdirilə bilməyəcəyi, dəyişdirilməsinin təklif edilə bilinməyəcəyi hökmü gətirildi.

Konstitusiyalar ilə qorunma altına alınan və milli hakimiyyət anlayışının bir nəticəsi olaraq ortaya çıxan Cümhuriyyət idarəsinin əhəmiyyəti Atatürkün bu sözlərindən də aydın olur:

*"Türk millətinin təbiət və şüarına (xarakter və adətlərinə) əsaslanan idarə Cümhuriyyət idarəsidir"3*

> *"Cümhuriyyət yüksək əxlaqi dəyər və xüsusiyyətlərə əsaslanan idarədir. Cümhuriyyət fəzilətdir."4*

> *"Cümhuriyyət rejimi demokratiya sistemi ilə dövlət şəkli deməkdir."5*

Yenə Atatürkə görə Cümhuriyyət anlayışında düşüncə sərbəstliyi imtina edilə bilməyəcək prinsiplərdəndir.

> *"Ən böyük həqiqətlər və tərəqqilər fikirlərin sərbəst ortaya qoyulması və mübadilə edilməsi ilə meydana çıxar və yüksələr."6*

Ancaq Atatürkə görə "sərbəst düşüncənin" özünə xas sərhədi vardır. Mustafa Kamal Atatürk, Afet İnana söyləyib yazdırdığı "Mədəni məlumatlar" kitabında şəxsən qələmə aldığı "azadlıq" hissəsində bunları yazmışdır:

> *"Azadlıq insanın düşündüyü və istədiyini mütləq edə bilməsidir."*

Mustafa Kamal Atatürk düşüncə-hərəkət sərbəstliyinin sərhədlərinin, dövlətin və millətin mənfəətlərini təhlükə altında qoymayacaq, onları qoruyacaq şəkildə olduğunu aşağıdakı bu sözləri ilə ifadə etmişdir:

> *"Fərdin birinci haqqı, təbii qabiliyyətlərini sərbəst inkişaf etdirə bilməsidir. Bu inkişafı təmin etmək üçün isə, ən yaxşı vasitə fərdə digərinin oxşar hüquqlarına xələl gətirmədən, təhlükə və zərər özünə aid olmaqla ona özünü istədiyi kimi sövq və idarə etməyə icazə etməkdir... Bu haqlara hörmət etməyən siyasi cəmiyyət səhvə yol vermiş olar və dövlət mövcudiyyətinin hikmətini və mənasını itirər...*

Fərdi azadlığı düşünərkən hər fərdin bütün millətin müştərək mənfəəti və dövlətin mövcudluğunu göz qarşısında saxlamaq lazımdır. Fərdi azadlığın mütləq ola bilməyəcəyi aydındır. Digərinin haqq və azadlığı millətin müştərək mənfəəti, fərdi azadlığı təhdid edər. Fərdi azadlığa sərhəd qoymaq sanki dövlətin əsası və vəzifəsidir.... Eyni zamanda, bütün xüsusi

fəaliyyətləri ümumi və milli məqsədlər üçün birləşdirməklə mükəlləfdir... Çünki fərdi azadlıq dərəcəsini, dövlət fəaliyyətlərini zəiflətməmək lazımdır. Dövlətsiz bir cəmiyyət və yaxud zəif bir dövlət həyatının nəticəsi hər kəsin hər kəsə qarşı mübarizəsidir. Bu mübarizə əksəriyyətin azadlığını pozmayacaq şəkildə olmalıdır. Dövlət sənəti məhz budur. Bu sənətdə hədəf azadlıqların hüdudlarını müəyyənləşdirmək ola bilər. Çünki "bu hüdud qanuni yollarla təsbit və təyin edilər", hər halda vətəndaşların, ümumi azadlıq və səadəti üçün fərdlərdən, ancaq dövlət üçün zəruri olan bəzi azadlıqlarının buraxılması istənilə bilər."7



◉ CÜMHURİYYƏT İLLƏRİNİN İLK BAYRAMI: TBMM-nin 23 apreldəki açılış gününün «Milli Bayram» sayılması və hər il qeyd olunması üçün 1921-ci ildə qanun qəbul edilmişdir. Sonralar Milli Suverenlik və Uşaqlar Bayramı adlarını alan bu bayramın dördüncüsü 23 aprel 1924-cü ildə qeyd olunmuşdur. Qazi Mustafa Kamal paşa da o günkü bayrama ilk dəfə «reisicumhur» (cümhuriyyət başçısı) kimi qatılmışdır.

Atatürk çətin yollardan keçilərək və çox qan itirilərək qurulan Cümhuriyyətin daxili və xarici düşmənlərə qarşı qoruma və müdafiə zəmanətini də yenə çox güvəndiyi türk milləti və türk ordusuna buraxmışdır:

> *"Türkiyə cümhuriyyəti yalnız iki şeyə güvənir. Biri millət qərarı, digəri ən kədərli və çətin şərtlərdə dünyanın təqdirlərinə haqqı ilə layiq olma xüsusiyyətini qazanan ordumuzun qəhrəmanlığı, bu iki şeyə güvənər."8*

Atatürk Türk dövlətinin gələcəyinin təminatı olan qanunlara istiqamətlənmiş xarici və daxili hücumlara Türk millətinin cümhuriyyətdən aldığı güclə cavab verəcəyini bu sözləri ilə ifadə etmişdir:

*“Təməli böyük türk millətinin və onun qəhrəman övladlarından ibarət böyük ordumuzun vicdanında, ağıl və şüurunda olan cümhuriyyətimizin və millətin ruhundan ilham alaraq prinsiplərimizin bir bədənin aradan qaldırılması ilə pozulma ola biləcəyini düşünənlər, çox zəif beyinli bədbəxtlərdir. Bu cür bədbəxtlərin, cümhuriyyətin ədalət və qüdrət pəncəsində layiq olduqları rəftara məruz qalmaqdan başqa nəsibləri ola bilməz. Mənim acizanə bədənim əlbət bir gün torpaq olacaq, lakin Türkiyə cümhuriyyəti sonsuz olacaq. Və Türk milləti təhlükəsizlik və səadətini qorumaq prinsipləri ilə mədəniyyət yolunda tərəddüdsüz irəliləməyə davam edəcək.”9*

Cümhuriyyətimizin qurucusu böyük Atatürk başqa çıxışında da bu düşməncəsinə hərəkətlərin Türk millətinin “amansız qəhri” altında darmadağın olacağını ifadə etmişdir:



*“Bundan sonra tək bir şey xatırlana bilər. O da bəzi adi siyasətçilərin, xəsis mənfəətpərəstlərin o qorxu və xəyalı oyandırmağa çalışması ehtiraslarını təmin etməkdən və mənfəət düşüncəsindən ibarətdir. Vurğulayıram ki, bu cür şəxslər hər hansı yolla olursa olsun, mövcudiyyətlərini hiss etdirdikləri gün, Türk millətinin amansız qəhrinə hədəf olmaqdan xilas ola bilməyəcəklər.”10*

## Milliyyətçilik

Milliyyətçilik; Mustafa Kamal Atatürkün bizə miras buraxdığı Türkiyə cümhuriyyəti dövlətinin bir yerdə olmasını təmin edən təməl qanunlardan biridir. Atatürk millətin

içinə düşdüyü o qaranlıq günlərdə birlik yaratmağa çalışmış, istiqlal mübarizəsini “milliyyətçilik” ətrafında təsis etmişdir.

Mustafa Kamal bəzilərinin mandat rəhbərliyi ilə İngiltərə və Amerika Birləşmiş Ştatlarına bağlanıb xilas olma çarələri axtardıqları zamanlarda, bütün bu düşüncələrin əksinə, yalnız türk millətinə və onun yüksək müstəqillik xarakterinə güvənmişdir.

Atatürk istiqlal mübarizəsini türk milliyyətçiliyi prinsipi üzərinə quraraq başlatdığını, 1937-ci ildə Ankara Halkevində etdiyi çıxışda belə ifadə etmişdir:

> *“Mən 1919-cü il may ayında Samsuna getdiyim gün əlimdə maddi güc yox idi. Yalnız Türk millətinin nəcibliyindən doğan və mənim vicdanımı dolduran yüksək mənəvi bir güc vardı. Mən məhz bu milli gücə, türk millətinə güvənərək işə başladım”11*

Yenə böyük Atatürk bu şövq, həyəcan və birliklə qurulan cümhuriyyətin əbədi yaşaması mövzusunda milliyyətçilik prinsipinin əhəmiyyətini bu şəkildə ifadə edir:

> *“Bir millətin digər millətlərə nisbətən təbii və ya sonradan xüsusi xarakterlər sahibi olması, digər millətlərdən fərqli olması, əkşəriyyətin onlardan ayrı olaraq onlara paralel inkişafa nail olması keyfiyyətinə milliyyət prinsipi deyilir.*



Bu prinsipə görə, hər fərd və millət özü haqqında müsbət fikirli, torpaqlarına şəxsən sahib çıxma tələb etmək haqqına və azadlığına malikdir. Bu düstur bizə hansı millətlərin azad, hansılarının azadlığından hər hansı şəkildə məhrum olduqlarını, yəni millət adını daşımağa layiq olmadıqlarını asanlıqla göstərir.”12

Bir millətin təşəkkülü üçün əvvəlcə müəyyən şərtlər bir yerə gəlməlidir. Atatürk bu şərtləri belə sıralamışdır:

*“a) Siyasi varlıqda birlik, b) dil birliyi, c) yurd birliyi, d) irq mənşəyi birliyi, e) tarixi yaxınlıq, f) əxlaqi yaxınlıq.*

Türk millətinin təşəkkülündə mövcud olan bu şərtlərin hamısı birlikdə digər millətlərdə yoxdur.”13

Böyük Atatürk Türkiyə Cümhuriyyəti sərhədləri daxilində yuxarıdakı maddələri mənimsəyən və bu istiqamətdə “nə xoş Türkəm” deyən hər kəsin türk millətinə mənsub olduğunu ifadə edir:

*“Millət dil, mədəniyyət və ideal birliyi ilə bir-birinə bağlı vətəndaşların meydana gətirdiyi siyasi və sosial heyətdir”14*

Yenə başqa bir ifadəsində Atatürk: “Türk milliyyətçiliyi, tərəqqi və inkişaf yolunda və beynəlmiləl təmas və münasibətlərdə bütün müasir millətlərə paralel və onlarla bir ahəngdə getməklə yanaşı Türk sosial heyətinin xüsusi səciyyələrini və başlı başına müstəqil mahiyyətini qorumaqdıır”15 deyə ifadə etmişdir.

Yuxarıdakı sözlərdən də aydın olacağı kimi, Atatürkçü türk milliyyətçiliyində əsl hədəf; hər sahədə irəliləmənin tamamlanması və mədəni ölkələrlə eyni səviyyədə gedilməsidir. Lakin Türk bunları edərkən öz yüksək xarakterindən və mənliyindən keçməməlidir. Bu, milli mədəniyyətin ətrafında, milli birlik və bərabərlik çərçivəsi içində reallaşacaq. Əgər milli birlik olmazsa, bölücü ünsürlər ölkə bütövlüyünə zərər verəcəklər.

*“Bizim millətimiz milliyyətindən xəbərdar olmamağın çox acı cəzalarını gördü. Osmanlı imperatorluğu daxilindəki müxtəlif qövmlər, həmişə milli əsaslara sarılaraq milliyyət duyğusunun gücü ilə özlərini qurtardılar. Biz nə olduğumuzu onlardan ayrı və onlara yad millət olduğumuzu yaba ilə içlərindən qovulanda anladıq. Gücümüz zəifləyəndə bizi təhqir etdilər, alçaltdılar. Anladıq ki, qəbahətimiz özümüzü unutmaq imiş. Dünyanın bizə hörmət göstərməsini istəyiriksə, əvvəla, bizim öz mənliyimizə və milliyyətimizi bu hörməti, fikirlə, həqiqətən bütün hərəkətlərimizlə göstərək; milli mənliyini tapa bilməyən millətlər başqa millətlərin ovu olduğunu bilməliyik.”16*

Mustafa Kamal Atatürk türk millətinin öz varlığını davam etdirə bilməsi üçün milliyyət bağı ilə sıx birləşməli olduğunu belə ifadə edir:

*“Millətin varlığını davam etdirmək üçün fərdlər arasında düşündüyü ortaq bağlar, əsrlərdən bəri gələn şəkil və mahiyyətini dəyişdirmiş, yəni millət, din və məzhəb bağı yerinə Türk milliyyəti bağı ilə fərdlərini yığmışdır.”17*

Atatürk milliyyətçiliyi “nə xoş Türkəm deyənə” şüarı ilə ölkəsinin rifahı və gələcəyi üçün çalışan, milli birlik və bərabərlik ilə toplanan hər kəsi din, dil, irq ayrı-seçkiliyi güdmədən qəbul edir.

Atatürkün milliyyətçilik əsasında irq bağı üstünlüyünü müdafiə edən, şovinist, irqçi və türk millətinin yüksək xarakterinə uyğunlaşmayan, Türkü yıxmağa çalışan faşizm, kommunizm kimi zərərli axın və ideologiyalara da yer yoxdur. Atatürk bu mövzunu aşağıdakı sözləri ilə bizə bildirir:

*“Kommunizm sosial məsələdir. Məmləkətimizin halı, məmləkətimizin sosial şəraiti, dini və milli ənənələrinin gücü, Rusiyadakı kommunizmin bizim tərəfimizdən tətbiq olunmayacağı qənaətindədir.”18*

*“Bizim düşüncəmiz, bizim prinsiplərimiz, cümlələrdən də məlum olur ki, bolşevik prinsipləri ilə deyil və bolşevik prinsiplərini millətimizə qəbul etdirmək üçün indiyə qədər heç düşünmədik və təşəbbüs etmədik.”19*

Atatürk milliyyətçiliyi Türkün yüksək xarakterindən gələn üstün əxlaqı ilə, digər millətlərin həyata haqqına, onların müstəqil və azad iradələrinə hörmət edir.



14 avqust 1920-cu ildə verilən suala Atatürk, “Bizə milliyyətçi deyirlər. Lakin biz elə milliyyətçilərik ki, bizimlə birlikdə çalışan bütün millətlərə hörmət və riayət edirik. Onların bütün milliyyətlərinin gərəklərini tanıyırıq. Bizim milliyyətçiliyimiz eqoist və məğrur milliyyətçilik deyil”20 deyə cavab verir.

Atatürkçü türk milliyyətçiliyində, millətin şiddət və təzyiq altında idarə olunmasına yer yoxdur; Türkün yüksək xarakterindən doğan sülhpərvərliyi milliyyətçilik qanununda da özünü göstərir:

> *“İnsanları xoşbəxt edəcəyəm deyə onları bir-birinə öldürtmək insani olmayan və çox kədərli sistemdir. İnsanları xoşbəxt edəcək tək vasitə onları bir-birinə yaxınlaşdıraraq, onlara bir-birlərini sevdirərək qarşılıqlı maddi və mənəvi ehtiyaclarını qarşılamağa yarayan hərəkət və enerjidir. Dünya sülhü içində insanlığın həqiqi xoşbəxtliyi ancaq bu yüksək ideal tərəfdarlarının çoxalması və müvəffəqiyyətli olması ilə mümkün olacaq.”21*

Türk milliyyətçiliyi insanlığı ilə bütün dünya millətlərinə nümunədir. Türk millətinin əxlaqi quruluşu, onun xarakterində əhəmiyyətli yer tutur. Türk əxlaqı, milli dəyərlərin və milli birliyin meydana gəlməsinə də təsir edir. Atatürk Afet İnana yazdırdığı “Mədəni məlumatlar” kitabında, “Türk millətinin ortaq halı vardır. Həqiqətən diqqət yetirilsə, türklərin aşağı, yuxarı əxlaqları həmişə bir-birinə bənzəyir. Bu yüksək əxlaq heç bir millətin əxlaqına bənzəməz. Əxlaqın bir millətin meydana gəlməsində yeri çox böyükdür, əhəmiyyətlidir”22 deyir.

Atatürk milliyyətçiliyi qanunu, Türkiyə cümhuriyyəti dövləti sərhədlərindən kənarda qalan türkləri də mənimsəyir və qardaş sayır. Bu mənada, mədəniyyət birliyinin təmin edilməsi üçün onlarla əlaqələr qurur. Lakin bu nöqtədə, hər kəsin olduğu ölkə sərhədləri daxilində yüksəlməsini və türk xarakterinin yüksək xüsusiyyətlərini nümayiş etdirməsini də istəyir. Atatürk bu mövzuda belə deyir:

> *“Türkiyə xaricində qalmış türklər, əvvəl mədəniyyət məsələləri ilə maraqlanmalıdırlar. Necə ki, biz türklük iddiasını buna uyğun ölçüdə ələ alırıq. Böyük türk tarixinə, türk dilinin qaynaqlarına, zəngin ləhcələrinə, qədim türk əsərlərinə əhəmiyyət veririk. Baykal kənarındakı saxa (Yakutiya) türklərinin dil və mədəniyyətlərinə də laqeyd yanaşmırıq.”23*

## Populizm

Atatürk populizm qanunları ilə türk millətini siniflərə bölməyə əsaslanan sosializm, kommunizm kimi milli birlik və bərabərliyi yox edən, türkün yüksək xarakterinə zidd olan zərərli axınlardan qorumağı məqsəd etmiş təşkilat hakimiyyətinə son verməyi əsas almışdır.

*"Atatürkçülükdə populizm, sosializm, ya da kommunizm kimi zərərli olan axın və ideologiyalardakı ifadələr xaricində tamamilə fərqli məna daşıyar. Marksist-Leninist düşüncəyə bağlı olanlar millət anlayışı yerinə xalqlar, xalq idarəsi yerinə proletariya diktatorluğu, cümhuriyyət yerinə də tək partiyalı müxalifətsiz bir parlament və xalqın dövlətə köləliyi əsasını qoymuşlar."24*




◉ Solda: Turhalda xalqla birlikdə (1930). Sağda: Amasyada xalqı dinləyərkən (1930).

Populizmin tətbiq edilməsi ilə xalq öz təyin etdiyi rəhbərliyi ilə, tam bir demokratiya üsulunu reallaşdırır. Bu qanunla, cəmiyyət içindəki sinif problemi ortadan qaldırılır; beləliklə insan ya da zümrələrin bir-birləri üzərindəki təzyiqə maneə törədilmiş, hər kəs qanunlar və hüquq cəhətdən bərabər sayılmış, insan haqq və azadlıqlarını heçə sayan tətbiqlər ortadan qaldırılmış olar. Çünki populizm qanununa görə, hər kəs bərabərdir və hər kəs xalqdır.

Afət İnanın "Mədəni məlumatlar" kitabındakı Atatürkün əl yazmalarında bu mövzu belə açıqlanmışdır:



◉ Kayseridə bir qadından dilekçe alarkən

*"Biz məmləkət xalqı, insan və müxtəlif sinif mənsublarının bir-birlərinə köməklərini eyni qiymət və xüsusiyyətdə görürük. Hamısının mənfəətlərinin eyni dərəcədə və eyni bərabərlik duyğusu ilə qarşılanmasına çalışırıq. Bu şəklin, millətin ümumi rifahı, dövlət bünyəsinin sağlamlaşdırılması üçün daha uyğun olduğu qənaətindəyik. Bizim düşüncəmizdə; cütçü, çoban, işçi, tacir, sənətkar, əsgər, həkim, qısacası, hər hansı sosial müəssisədə çalışan bir vətəndaşın haqq, mənfəət və azadlığı bərabərdir. Dövlətə bu anlayış ilə maksimum kömək etmək və millətin güvən və iradəsini yerində sərf edə bilmək, bizim anladığımız qədəri ilə xalq hökuməti idarəsi ilə mümkün olar."25*

Bu qanun ətrafında milləti meydana gətirən ünsürlər, bir-birlərinin haqlarına hörmətcil və köməkçi olarlar və ortaq gələcəyi yaşamaq üçün xalqı meydana gətirərlər. Bunu da Atatürk belə ifadə edir:

*"Türkiyə xalqı irqi və ya dini və mədəni istiqamətdən birləşmiş bir başqasına qarşı, qarşılıqlı hörmət və fədakarlıq hissləri ilə dolu və qədəri və gələcəyi və mənfəətləri ortaq olan bir cəmiyyətdir."26*

Yenə Atatürk türk xalqının mənfəətlərinin bir yerdə yaşamağı tələb etdiyini, bu ortaq mənfəətlərin sinfi qarşıdurmanı ortadan qaldırdığını ifadə etmişdir:

*"Bizim xalqımız mənfəətləri bir-birindən fərqli sinif halında deyil; əksinə varlıqları və çalışmalarının nəticələri bir-birinə lazım olan siniflərdən ibarətdir."27*



Atatürk qanunları içində yer alan populizm, milli iradəni və bütövlüyü meydana gətirir. Populizm, xalq rəhbərliyini müdafiə etdiyini iddia edən sosializm və kommunizm kimi

ideologiyalardan fərqlidir; Türk millətinin quruluşuna tam uyğunlaşır. Atatürk bir çıxışında populistliyi, "Əfəndilər, bizim hökumətimiz demokratik, sosialist hökumət deyil... Lakin milli hakimiyyətini, milli iradəni təcəlli etdirən bir hökumətdir. Lakin nə edək demokratiyaya bənzəmirmiş, sosializmə bənzəmirmiş, heç bir şeyə bənzəmirmiş! Əfəndilər, biz bənzəməməklə və bənzətməməklə fəxr etməliyik, çünki biz bizə bənzəyirik"28 deyərək açıqlamışdır.

Atatürkçülükdə populizm türkün xarakterinə tam uyğunlaşır; türkün şərtlərinə görə qurulmuşdur. Populizmdə xalqla bərabər, xalq üçün tətbiq vardır. Qanunlar qarşısında bərabər olan xalqın öz məsuliyyəti də müəyyəndir: Milləti meydana gətirən xalq, sosial işlərin görülməsi üçün çalışmaq məcburiyyətindədir. Çalışıb bütövlüklə irəliləyərək, millətin gələcəyi təminat altına alınar. Bir təbəqə çalışıb, başqa təbəqə də onları istismar etmə yoluna girsə, cəmiyyət içindəki sosial sülh pozular. Atatürk populizm qanunu istiqamətində, mədəni ölkələr səviyyəsinə qalxmaq üçün, türk millətinin bütöv iş proqramı tətbiq etməli olduğunu bizə bu şəkildə ifadə etmişdir:




*"Nə olduğumuzu biləк. Xilas olmaq, yaşamaq üçün işləməyə məcbur xalqıq. Buna görə hər birimizin haqqı vardır, səlahiyyəti vardır. Lakin çalışmaq sayəsində bir haqqı qazanırıq. Yoxsa üzü üstə yatmaq və həyatını çalışmamaqla keçirmək istəyən insanların bizim cəmiyyətimizdə yerləri yoxdur. O halda... populizm cəmiyyət nizamını işləməyə, hüquqa əsaslandırmaq istəyən cəmiyyət sistemidir."29*

Türk millətinin mədəni ölkələr səviyyəsinə yüksələ bilməsi, öz gələcəyinə sahib olmasına, fərdlərin və cəmiyyətin bütün təşkilat və quruluşları ilə bu qanuna sahib çıxaraq rəhbərliyi ən yaxşı şəkildə istifadə etməsinə bağlıdır.

## Dövlətçilik

Atatürk qanunlarında dövlətçilik anlayışı; milli birliyin və bərabərliyin yaradılması istiqamətində, əxlaqi, sosial və milli vəziyyət ərz edir. Atatürk bu vəziyyəti belə ifadə etmişdir:

*“Milli gəlirin paylanmasında daha mükəmməl ədalət və əmək sərf edənlərin daha yüksək rifahı, milli birliyin mühafizəsi üçün şərtdir. Bu şərti daim nəzərdə tutmaq, milli birliyi təmsil etmək dövlətin mühüm vəzifəsidir.”30*


◉ Alpullu Şəkər Zavodu

Tətbiq olunmuş dövlətçilik prinsipi, kommunist rejimlərdəki kimi xüsusi sektoru yox edən, azad təşəbbüsə maneə törədən anlayış ehtiva etməz. Atatürk, bu fərqli anlayışı, “Mədəni məlumatlar” kitabında bu şəkildə ifadə etmişdir:

*“Bizim izlədiyimiz “dövlətçilik” prinsipi bütün istehsal və paylama vasitələrini fərdlərdən alaraq milləti tamamilə başqa əsaslar daxilində tənzimləmək məqsədini izləyən, xüsusi və fərdi iqtisadi təşəbbüs və fəaliyyətlərinə şərait yaratmayan sosializm prinsipinə əsaslanan kollektivizm, yaxud kommunizm kimi bir sistem deyil.”31*

Atatürkün tətbiq etdiyi dövlətçilik sistemi Türkiyənin şərtlərində doğulmuşdur; türk millətinin xarakterinə uyğun sistemdir.

*“Türkiyənin tətbiq etdiyi dövlətçilik sistemi, 19-cu əsrdən bəri sosializm nəzəriyyəçilərinin irəli sürdükləri fikirlərdən alınaraq tərcümə edilmiş sistem deyil. Bu, Türkiyənin şərtlərindən doğulmuş Türkiyəyə xas sistemdir. Bizim fikrimizcə, dövlətçiliyin mənası budur; şəxslərin xüsusi təşəbbüslərini və şəxsi fəaliyyətlərini əsas tutmaq, lakin böyük millətin və geniş məmləkətin bütün ehtiyaclarını və çox şey edilmədiyini göz önündə tutaraq, məmləkət iqtisadiyyatını dövlətin əlinə almaq. Türkiyə cümhuriyyəti dövləti, Türk vətənində əsrlərdən bəri şəxsi və xüsusi təşəbbüslərlə edilə bilinməmiş şeyləri dərhal etmək istədi; və bunu qısa zamanda bacardı. Görüldüyü kimi, bizim izlədiyimiz bu yol liberalizmdən fərqli yoldur.”32*

Dövlətçilik qanunu ilə dövlət; ölkənin birlik və bərabərliyi üçün hər cür çalışmanı etmək və etdirməklə mükəlləf qılınmışdır. Atatürk bu mükəlləfiyyəti, yenə öz əl yazılarında belə ifadə etmişdir:

*"Milli gəlirin paylanmasında, daha mükəmməl ədalət yaratmaq sərf edənlərə daha yüksək rifah təmin edilməsi, milli birliyin qorunması üçün əsas şərtdir. Bu şərti daim göz önündə tutmaq, milli birliyin nümayəndəsi olan dövlətin əhəmiyyətli vəzifəsidir.*

Xalqın mənfəətinə xidmət edən müəssisələrin çoxaldılması dövlətin əhəmiyyətlə nəzərdə tutacağı bir məsələdir. Bu sayədə sırf mənfəətpərəst fəaliyyətlər təhdid olunur. Bu hal vətəndaşlar arasındakı əxlaqi yardımlaşmanın inkişafına kömək edən mühüm amildir. Məmləkətdə hər növ istehsalın çoxalması üçün, fərdi təşəbbüsün dövlət tərəfindən lazım olduğunu əhəmiyyətlə qeyd etdikdən sonra bəyan etməliyəm ki, dövlət və xüsusi təşəbbüs bir-birinə qarşı deyil, bir-birini tamamlayır."33

## Dünyəvilik



Dünyəvilik ümumi mənası ilə din və dünya, din işləri ilə dövlət işlərinin bir-birindən ayrılması, beləliklə, cəmiyyət içində inanc və ibadət sərbəstliyinin təmin edilməsi deməkdir. Atatürk dünyəvilik qanununu da milli birlik və bərabərliyin təmin edilməsi istiqamətində, dövlətin gələcəyi və mövcudiyyəti üçün əhəmiyyətli görmüşdür. Dünyəvilik qanunu ilə milli iradənin inteqrasiya olunmasında asanlıq təmin edilir.

Dünyəvilik qanunu ilə fərdlərin ibadət və inanma azadlıqları da qanunla qorunar; şəxslərə inanmaları, ya da inanmamaları üçün edilən təzyiqlər ortadan qaldırılar. Beləliklə, insanların bir-birlərinə tolerant baxmaları təmin edilər. Dünyəvilik, bu istiqaməti ilə də İslam dini ilə uyğundur. Çünki dində, məcbur etməklə və mənfəətlər qarşılığında edilən ibadətlərin dəyəri yoxdur. Dində Allaha yönəlik Allah rizası üçün edilən ibadətlər dəyərlidir.

Bunlarla bərabər dünyəvilik qanunu qətiyyən dinə qarşı deyil. Atatürk bir çıxışında bu mövzu ilə əlaqədar belə demişdir:



◉ Ankara Qız Liseyində şagird və müəllimlərlə birlikdə

> *"Dünyəvilik əsla dinsizlik olmadığı kimi, saxta dindarlıq və cadugərliklə mübarizə qapısını açdığı üçün həqiqi dindarlığın inkişaf etməsini təmin etmişdir. Dünyəviliyi dinsizliklə qarışdırmaq istəyənlər, irəliləmə və canlılığın düşmənləri ilə gözlərindən pərdə qalxmamış şərq qövmlərinin mövhumatçılarından başqaları ola bilməz."34*

Yenə Atatürk:, "Mövhumatçılıq sinfinin din dəllallığına icazə verilməməlidir. Dindən maddi mənfəət təmin edənlər iyrənc şəxslərdir. Məhz bu vəziyyətə qarşıyıq və buna icazə vermirik"35 deyərək, milli birlik və bərabərliyi ortadan qaldıracaq olan bu cür ayrı-seçkiliyə güzəştə getməyəcəyini göstərmiş olar.

Dünyəvilik qanunu ilə şəxslər, xurafatlardan təmizlənmiş doğru və həqiqi məlumatı, vicdan və din azadlığını öyrənmiş olarlar.

> *"Dünyəvilik tək din və dünya işlərinin ayrılması demək deyil; bütün vətəndaşların vicdan, ibadət və din azadlıqları deməkdir."36*

## İslahatçılıq

Atatürk islahatçılıq qanunu ilə Türk millətinin irəliləməsinə və mədəni ölkələr səviyyəsinə yüksəlməsinə maneə törədən, dəyişən və inkişaf edən şərtlərə uyğunlaşa bilməyən təşkilatların və müəssisələrin günün şərtlərinə görə yenidən təşkil edilməsi məqsədini əsas götürmüşdür. Digər ifadə ilə bu qanun islahatın dəyişən şərtlərə görə təşkil edilməsidir:

> *"Mədəniyyət yolunda müvəffəqiyyət yenilənməyə bağlıdır. İctimai həyatda, iqtisadi həyatda, elm və fənn sahəsində müvəffəqiyyətli olmaq üçün tək inkişaf və irəliləmə yolu budur."37*

Atatürk islahatların tək məqsədinin Türk millətini mədəni ölkələr səviyyəsinə yüksəltmək olduğunu belə ifadə edir:

*“Əfəndilər; etdiyimiz və etməkdə olduğumuz islahatların məqsədi Türkiyə cümhuriyyəti xalqını tamamilə müasir və bütün məna və görünüşü ilə mədəni cəmiyyət halına gətirməkdir. İslahatlarımızın əsl məqsədi budur.”38*

Mustafa Kamal Atatürk islahatların müvəffəqiyyətli olması üçün, axsayan hissələrin yenilənməli və dəyişikliklərin sürətlə tətbiq olunmalı olduğunu ifadə etmiş, bu dəyişikliklərin, tətbiqlərin uzun müddət çəkməsi əsl məqsəddən uzaqlaşılmış olunacağına diqqət çəkmişdir:



*“...İnzibati məsləhətçilər fundamental islahatlar edə bilməzlər. Bugünkü səfalət və rüsvayçılıq içində heç kimi məmnun etməyə imkan yoxdur. Məmləkət xoş, millət zəngin olduğu zaman hər kəs məmnun olar.”39*

Atatürk islahatlarında izlənəcək yolu da belə ifadə edir:

*“Türkiyəni dərəcə-dərəcə inkişaf etdirməliyik, yoxsa ani olaraq? İki sistem var, biri böyük Fransız islahatındakı tərz; rejimlər dəyişəcək, qiyamlar müqabilində yeni qiyamlar ediləcək. Sağ solu alt-üst edər, sol sağı süpürərkən bir də baxılacaq ki, 1.5 əsr keçib. ..Bu millətin damarlarında o qədər bol qan və qarşısında o qədər geniş zaman varmı?”40*

Türk milləti bu şərtləri göz önündə saxlayaraq bir an belə dayanmadan önündəki maneələri aşmalıdır. Əgər bu addım atılmazsa, həm mədəni ölkələr arasındakı yerimizi ala bilmərik, həm də birliyimiz pozulmağa başlayar, tənəzzülə yaxınlaşar. Atatürk bu təhlükəyə diqqət çəkərək bu sözləri söyləmişdir:

*"Millətin ayıqlığına, millətin irəliləmə və inkişaf istedadına güvənərək, millətin əzmindən əsla şübhə etməyərək cümhuriyyətin bütün zərurətlərini edəcəyik. Bir çox çətinliklər və maneələr qarşısında olduğumuzu bilirik. Bunların hamısını tədqiqat ilə əzm və iman ilə millət eşqinin sarsılmaz gücü ilə birə-bir həll edib nəticələndirəcəyik. O millət eşqi ki, hər şeyə baxmayaraq sinəmizdə sönməz bir güc, dayanıqlılıq və atəş qaynağıdır."41*

*"Hər cür yüksəlmə və inkişaf qabiliyyətli olan millətimizin sosial və fikri islahat addımlarını qısaltmaq istəyən maneələr mütləq ortadan qaldırılmalıdır."42*

Atatürk qanunlarını bütün halda düşünməliyik. Çünki bu qanunlar bütün olaraq qiymətləndirildiyində, Türkün yüksək xarakteri daha yüksələcək və Türkiyə mədəniləşmə yolunda digər ölkələrə nümunə olacaq. Bu qanunları başqasından ayırsaq, milli birlik və bərabərliyi bir yerdə tutan təməli də zəiflətmiş olarıq ki, bu da, ölkə bütövlüyünün pozulmasından mənfəət təmin etmək istəyən bölücü güclərin inkişafına səbəb ola bilər. Buna mane olmaq istəyiriksə, böyük şövq və həyəcanla Atatürkçü və islahatçı düşüncəyə sahib çıxaraq ölkəmizə xidmət etməliyik; ayrılıqçı və bölücü fəaliyyətlərə icazə verməməliyik. Atatürk bu maneələr qarşısında islahatların tətbiq olunması və qorunması vəzifəsini Türk ordusunun müvəffəqiyyətlə yerinə yetirəcəyini bu sözləri ilə ifadə etmişdir:



*"Milləti sövq və idarə edənlərin dayağı, ordu olmuşdur. Digər millətlərdə ordu ilə millət, daim bir-birləri ilə qarşı-qarşıyadır. Halbuki, bizdə hadisə tamamilə əksinədir. Qəhrəman zabitlərimiz ikinci hökuməti elan etdikləri kimi bu islahatları da yenə bunların fədakarlığına borcluyuq."43*

## QEYDLƏR


1. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 241, AAM, 1997

2. A.k.ə., III cild, səh. 94

3. A.k.ə., III cild, səh. 106

4. A.k.ə., II cild, səh. 242

5. Afet İnan, "Atatürk Hakkında Hatıralar ve Belgeler", TTK,1959

6. Afet İnan, "Mustafa Kemal Atatürk'ten Yazdıklarım", 1971, səh. 33

7. Afet İnan, "Medeni Bilgiler ve M.K.Atatürk'ün El Yazıları", səh. 52-53, TTK, 1998

8. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 176, AAM, 1997

9. A.k.ə., III cild, səh. 119

10. A.k.ə., səh. 107

11. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 328, AAM, 1997

12. Afet İnan, "Medeni Bilgiler ve M.K.Atatürk'ün El Yazıları", səh. 24 TTK, 1998

13. A.k.ə., səh. 22

14. A.k.ə., səh. 18

15. A.k.ə., səh. 25

16. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 147, AAM, 1977

17. A.k.ə., səh. 249

18. A.k.ə., III cild, səh. 26

19. A.k.ə., I cild, səh. 102

20. A.k.ə., I cild, səh. 102

21. A.k.ə., II cild, səh. 306

22. Afet İnan, "Medeni Bilgiler ve M.K.Atatürk'ün El Yazıları", səh. 358, TTK, 1998

23. "Türk Kültürü" jurnalı, 13-cü nəşr, səh. 115, il 1963

24. “Türk Tarihi Silahlı Kuvvetleri ve Atatürkçülük”, səh. 308

25. Afet İnan, “Medeni Bilgiler ve M.K.Atatürk’ün El Yazıları”, s .425-427

26. “Atatürk’ün Söylev ve Demeçleri”, I cild, səh. 236, AAM, 1997

27. A.k.ə., II cild, səh. 116

28. “Atatürk’ün Söylev ve Demeçleri”, I cild, səh. 211-212

29. “Atatürk’ün Söylev ve Demeçleri”, I cild, səh. 191, T. İ. T. E. nəşrləri, 1945

30. Afet İnan, “Medeni Bilgiler ve M.K.Atatürk’ün El Yazıları”, səh. 48

31. A.k.ə., səh. 49

32. “Sümerbank” jurnalı, III cild, ədəd 29, səh. 138, 1963, Uluğ İğdemir

33. Afet İnan, “Medeni Bilgiler ve M.K.Atatürk’ün El Yazıları”, səh. 444

34. Sadi Borak, “Atatürk ve Din”, səh. 4, 1962

35. Kılıç Ali, “Atatürk'ün Hususiyetleri”, səh. 116, 1955

36. “Özdeyişleriyle Atatürk”, səh. 24 GnKur. ATTAŞE .Bşç. Yay. 1981

37. “Atatürk’ün Söylev ve Demeçleri”, II cild, səh. 187, AAM, 1997

38. “Atatürk’ün Söylev ve Demeçleri”, II cild, səh. 224

39. İsmail Arar, “Atatürk’ün İzmit Basın Toplantısı”, səh. 55

40. İsmail Habib Sevük, “Atatürk İçin”, səh. 73

41. “Atatürk’ün Söylev ve Demeçleri”, II cild, səh. 166, Türk islahat tarixi institutu Yay., 1959

42. Herbert Melzig, “Atatürk’ün Başlıca Nutukları”, səh. 86, 1942

43. Mustafa Selim İmece, “Atatürk’ün Papaq Devriminde Kastamonu ve İnebolu Seyahatleri”, səh. 55, t. İş Bankı Yay. 1959

II FƏSİL

# Atatürk və islahatlar

Əsilzadə Türk millətinin xarakterində olan "azad həyata və yaşadığı zamana damğasını vurma" xüsusiyyəti Mustafa Kamalın xarakterində də tez-tez görülür.

Osmanlı imperatorluğunun rəhbərləri, müəyyən dövrlərdə bu xarakteri qorumalarına baxmayaraq, bəzi dövrlərdə bu əsilzadə xarakterə tamamilə müxalif olublar; ağıl və elmdən ayrılıb mövhumatçılıq bataqlığına batdıqlarından geriləmiş və süqut etmişdilər. Osmanlı imperatorluğunun son dövrlərində Türk dövləti tarixdən silinmək üzrə ikən, Mustafa Kamal bu gedişə "dayan" deyərək türkün yüksək xarakterinə uyğun mübarizə etmişdir.

Mustafa Kamal və yoldaşlarının bu mübarizəsi nəticəsində gözəl vətənimiz xarici güclərdən təmizlənmiş, mənfi gedişata son verilmişdir. Beləliklə, Türk milləti üçün gözəl və aydın günlərə doğru yeni addım atılmışdır. Atatürk irəliyə doğru addımlar ataraq bizə və bizdən sonrakılara yol göstərəcək islahatlar hərəkatı başlatmışdır. Bu islahatlar Türkiyə cümhuriyyətini mədəni millətlər səviyyəsinə çıxaracaq xüsusiyyətdədir.

Yaşadığı zamanı və dünyanı çox yaxşı müşahidə edən Atatürk millətin və ölkənin qarşısında dayanan və irəliləməyə maneə törədən bütün divarları tək-tək yıxmışdır. Atatürk xarakterində olan bu islahatçı və yenilikçi xüsusiyyətinin bizdə də olmalı olduğunu, 13 may 1923-cü ildəki Milli Məclisdəki nitqində belə ifadə etmişdir

> *"Bu günə qədər əldə etdiyimiz müvəffəqiyyət bizə ancaq tərəqqi və sivilizasiyaya gətirib çıxarmışdır. Bizə və bizdən sonra gələnlərə düşən vəzifə yol üzərində tərəddüdsüz irəliləməkdir."1*

Bu irəliləmə ancaq hakimiyyətin millətin əlində olması və mədəni ölkələr səviyyəsinə çıxılması ilə reallaşacaq.

## Siyasi sahədəki islahatlar

### Səltənətin qaldırılması

Milli qurtuluş hərəkatının bütün cəbhələrdə müvəffəqiyyətlə nəticələnməsindən sonra düşmən ölkələr sülh bağlanması üçün görüşlər təklif edirdilər. Sülh görüşlərinə Ankara hökuməti ilə bərabər İstanbul hökuməti də dəvət edilmiş, beləliklə, Milli Məclisə qarşı tələ qurmağa çalışdılar. Bu istiqamətdə, İstanbul hökumətinin sədrəzəmi olan Tevfik Paşa Ankaraya, Türkiyə Böyük Millət Məclisinin başçısı Mustafa Kamala teleqraf göndərərək ortaq hərəkət etməyi təklif etmişdir.

Nəticədə TBMM İstanbuldakı işğal güclərinə bir yazı göndərmiş, sülh konfransına qatıla biləcəklərini, lakin İstanbul hökuməti ilə ortaq hərəkət etmələrinin mümkün olmadığını bildirmişdir.2 Çünki Tevfik Paşanın təklifini qəbul etmək, Anadoluda reallaşdırılan Kuva-yi Milliyə hərəkatına, İstanbul hökumətini də ortaq etmək olacaqdı. Mövzudan dərhal sonra Mustafa Kamal 30 oktyabr 1922-ci ildə TBMM-ni yığaraq səltənətin qaldırılması istiqamətində işlər başlatmışdır. Lakin məclis içindəki bəzi üzvlər "səltənətsiz iqtidar və xilafət ola bilməyəcəyi"3 fikrini müdafiə edərək maneə törətməyə cəhd etmişlər. Bu maneələrə qarşı Mustafa Kamalın mövzunun əhəmiyyətini və həssaslığını bildirən çıxışından sonra "hakimiyyətin qeydsiz və şərtsiz millətə" aid olduğu qəbul edilmiş, 1922-ci ilin noyabrında səltənət qaldırılmışdır.

## Cümhuriyyətin quruluşu

İstanbul hökumətinin işğal güclərinin "kukla rəhbərliyi" halında olması və bu hökumət tərəfindən Mustafa Kamal və yoldaşları tərəfindən Anadoluda qurulan milli hökumətə qarşı alınan cəbhə bir müddət sonra kimin rəhbər olacağı sualını gündəmə gətirmişdir. Eyni problem TBMM içində də özünü göstərmiş, bəzi üzvlərin səltənət və xilafəti yaşatma düşüncəsində olduqları görülmüşdür. Yenidən səltənət və xilafətə dönülsə, verilən mübarizə boşa gedəcək, millətin hakimiyyəti təkrar məsuliyyətsiz rəhbərliyə keçəcək və geriyə dönüləcəkdi. Halbuki, yenilikçi və islahatçı düşüncəni özünə şüar edən Mustafa Kamalın bu fikirlərindən dönməsi gözlənilə bilməzdi:



◉ Cümhuriyyət bayramında sənətkar təşkilatlarının keçid tədbiri (1930)

*"... 25 aprel 1920-ci il tarixində TBMM Mustafa Kamal, Cəlaləddin Arif, Cami Bəy, Fevzi Paşa, İsmət Bəy, Hamdullah Suphi və Haqqı Behiçdən ibarət icra komitəsi seçərək 1 may 1920-ci ildə qəbul edilən 5 maddəlik qanunla seçiləcək olan hökumətin seçki qanunları təyin olunar. Qısa müddət sonra da edilən bir dəyişikliklə nazirlərin Millət Məclisinin başçısı tərəfindən göstəriləcək namizədlər arasından seçkini qəbul edər. Bu tətbiq ilə artıq "millətin hakimiyyətinə" əsaslanan hökumət quruluşu qəbul edilmiş olacaq."4*

Məclisin yenilənməsi üçün edilən seçkilərin nəticəsində I dövr millət vəkillərinin əksəriyyəti dəyişmiş, hakimiyyətin millətdə olduğuna inanan millət vəkilləri II dövrdə daha çox idilər. Bu səbəbdən artıq Cümhuriyyətin qurulmasına uyğun zəmin vardı. Həm Məclisdəki vəziyyət və həm də Fethi Bəy kabinetinin 27 oktyabr 1923-cü ildə istefa verməsinin nəticəsində ortaya çıxan hökumət boşluğu, Mustafa Kamalı hərəkətə keçirmiş və Türk millətinin xarakterinə uyğun olan Cümhuriyyət 29 oktyabr 1923-cü ildə elan edilmişdir.

Bu hadisədən sonra Mustafa Kamal Türkiyə cümhuriyyətinin başçılığına gətirilmiş, İsmət (İnönü) Bəyi də baş nazirliyə təyin edərək kabineti qurmuşdur. Atatürk aşağıdakı sözləri ilə də rəhbərlik şəklini açıqlamışdır:

> *"...Bugünkü hökumətimiz birbaşa millətin öz-özünə, özbaşına etdiyi bir dövlət təşkilatı və hökumətidir ki, onun adı Cümhuriyyətdir. Artıq hökumətlə millət arasında keçmişdəki ayrılıq qalmamışdır. Hökumət millət, millət hökumətdir."5*

> *"...Türk millətinin yaradılış və şüarına ən uyğun olan idarə sistemi Cümhuriyyət idarə sistemidir. Türk milləti hakimiyyətini əhatəli surətdə göstərən yeni idarə sisteminə qovuşana qədər daim mövcud təşkilatların siyasətlərinə yad qalmışdır."6*



◉ Son xəlifə Əbdülməcid, qızı və nəvələri ilə birlikdə

## Xilafətin ləğvi

Xəlifəlik mövqeyi Misir hökmdarı Kansu Gavridə əhəmiyyətini itirmiş, saxta şəkildə qalmaqda idi. Yavuz Sultan Səlimin 1517-ci ildəki Ridaniye səfərindən sonra türklərə keçən xəlifəlik bu tarixdən sonra yenidən güc qazanmışdır. Xilafət mövqeyi Osmanlı imperiyasının güclü olduğu dövrlərdə dünya müsəlmanları üzərində təsirli olmuşdur. Lakin zəifləmə dövründə dövlət bu gücdən istifadə edə bilmirdi.

Milli Məclis tərəfindən səltənətin qaldırılması ilə xilafət mövqeyinə gətirilən Əbdülməcid Əfəndinin ona qanunla verilmiş statusdan başqa "xan", "peyğəmbər xəlifəsi"7 kimi statusları da istifadə etməsi, padşah kimi davranması və cümə günü özünü nümayiş etməsi, xaricdən təzyiqlər olduğu açıqca müəyyən olan bu mübahisələrə Mustafa Kamalın yaxın yoldaşlarının da qatılması, ortalığı qarışdırmağa başlamışdı. Bu vəziyyət gənc Cümhuriyyəti təhlükə altına qoymağa başladığı üçün 3 mart 1924-cü ildə TBMM-də verilən bir qanun təklifi ilə xilafət statusu ortadan

qaldırılmış, Osmanoğulları soyu xaricə göndərilmişdir. Bu ciddi vəziyyəti Atatürk bu sözləri ilə açıqlayır:

*"Əfəndilər; açıq və qəti söyləməliyəm ki, İslamı bir xəlifəlik xəyalı ilə işğal etməyə və aldatmağa çalışanlar tək və ancaq İslamın və xüsusilə də, Türkiyənin düşmənləridir. Belə oyuna bel bağlamaq yalnız cəhalət və qəflət əsəri ola bilər."8*



◉ Atatürk Ankara Hüquq Fakültəsində

## Hüquq sahəsindəki islahatlar

Xilafətin ləğvi ilə birlikdə 3 mart 1924-cü ildə Şəriyə və Evkaf nazirliyinin və Şəriyə məhkəmələrinin ləğv edilməsi hüquqda yeni tənzimləmələr ediləcəyinin işarələri verildi.

Osmanlı imperiyasının son dövrlərində təşkilatlardakı korlanma ədalət sisteminə də təsir etmiş, qazılardakı yanlışlıq ədalətdən güclünün lehinə istifadə edirdi. Məhkəmələr "Məcəllə" adı verilən və Hənəfi fiqhinə görə hazırlanmış qanunlara görə işləyirdi. Məcəllənin yarı teokratik və yarı dünyəvi xüsusiyyət daşımasına baxmayaraq, zəmanənin şərtlərinə uyğunlaşa bilmir və bəzi hökmləri də tətbiq oluna bilmirdi.

Yeni Türkiyə dövlətinin qurulması ilə köhnə rəhbərliyin əhəmiyyətini itirmiş bütün təşkilat və quruluşlarının da yeni bir quruluşa oturdulması gərək idi. Çünki Osmanlı dövlətindəki bəzi tətbiqlər keçmiş illərdə problemsiz işləmiş olsalar da, dəyişən və inkişaf edən şərtlər qarşısında axsaqlıqlar meydana gəlmişdir. Bu pozulan təşkilatlardan biri də ədalət təşkilatıdır. Atatürk bu yanlışlığı və həll yolunu belə açıqlamışdır:

*“Əhəmiyyətli olan nöqtə ədalət anlayışımızı, qanunlarımızı, ədalət təşkilatımızı, indiyə qədər bizi şüurlu, şüursuz təsir altında saxlayan, əsrin ehtiyacına uyğun olmayan bağlardan dərhal qurtarmaqdır. Millət hər mədəni məmləkətdə olan ədalət işlərindəki irəliləmənin, məmləkətin ehtiyaclarına uyğun gələn əsaslarını istəyir. Millət sürətli və qəti ədaləti təmin edən mədəni üsulları istəyir. Millətin arzu və ehtiyacına tabe olaraq ədalət işlərimizdə hər cür təsirlərdən cəsarətlə çıxmaq və sürətli irəliləmələrə atılmaqla əsla tərəddüd etməməliyik. Mədəni hüquqda, ailə hüququnda izləyəcəyimiz yol ancaq mədəniyyət yolu olacaq. Hüquqda məsləhət idarəsi və xurafatlara bağlılıq, millətləri oyanmaqdan məhrum edən ən ağır kabusdur. Türk milləti üzərində belə ağırlıq saxlaya bilməz.”9*

*“...Millətin qızğın islahat hücumları əsnasında həzm etməyə məcbur qalan köhnə qanun hökmləri, köhnə hüquqçular səy edənlərin və çalışanların təsir və atəşi yavaşlamağa başlayan kimi dərhal canlanaraq islahat əsaslarını və onun səmimi təqibçilərini və onların əziz ideallarını məhkum etmək üçün fürsət gözləyərlər...”10*

*“Osmanlı imperiyasının sərhədləri daxilində xarici vətəndaşların mühakimə olunmasının öz konsolluqlarına buraxılması müstəqillik haqqı ilə uyğunlaşdığını göstərmirdi. Bu vəziyyət, Osmanlı ədalət sistemində təmir edilməsi çətin olan yaralar açmışdı. Hər nə qədər Lozan hökmləri xəbərdarlıq edincə bu hüquqi kapitulyasiyalar qaldırılırsa da; yenə də mərkəzdən idarə olunan ədalət nizamı yaradılması mümkün olmurdu”11*

Bu mənfi şərtləri ortadan qaldırmaq üçün 1923-cü ildə qurulan mədəni qanun komissiyaları, “Məcəllə”nin islah etmə çalışmalarına başlamışsa da, nəticə ala bilmədən fəaliyyətlərinə son verilmişdir. Bu tıxanıqlığı həll etmək üçün hərəkətə keçən Mustafa Kamal hüquq sistemində köklü dəyişikliklərə girişmişdir. Bənzərlərinə görə daha sadə və yeni olan İsveçrə Mədəni Qanunu nümunə götürülərək hazırlanan Türk Mədəni Qanunu 17 fevral 1926-cı ildə prof. dr. Mahmud Esat Bozkurtun Ədalət Nazirliyi əsnasında qəbul edilmişdir. Bu qanunla azlıqlar da Mədəni Qanun hökmlərini qəbul etdilər. Bu qanun çərçivəsi ilə yanaşı 4 il içində Borclar qanunu, Cəza qanunu,

Quru Ticarət qanunu, Dəniz Ticarət qanunu, Hüquq və Cəza Mühakimələri qanunu, İcra İflas qanunu kimi qanunlar qüvvəyə minmişdir. Bu cəhdlərdən əvvəl də 5 noyabr 1925-ci ildə Ankara Hüquq fakültəsi açılmışdır.



◉ Cümhuriyyət prezidenti Qazi Mustafa Kamal Ankara Hüquq Məktəbinin açılışında (5 noyabr 1925)

Mədəni qanunla Türkiyədə dünyəvi hüquq sisteminə keçilmiş, qadın-kişi bərabərliyi qəbul edilmiş, mədəni nikah qanunu ilə çox evlilik ləğv edilmiş, qadının hər sahədə fəaliyyətdə olmasına imkan təmin edilmişdir.

## İqtisadiyyat sahəsindəki islahatlar

### Sənayedə edilən yeniliklər





◉ Atatürk Orman Çiftliyində və Nazilli Zavoduna səfəri zamanı.

Osmanlı imperiyasında idarəetmədə bəsirətsiz şəxslərin illərlə davam edən müharibələr və itkilərə qarşı iqtisadi sahədə köklü həll tapa bilməməsi dövlət gəlirlərində tənəzzülə səbəb olmuşdur. Bunun nəticəsində də xarici borclar getdikcə artmışdır. Bu borcları da yüksək faizli borclarla ödəməyə çalışmaq; büdcənin 30%-a yaxın hissəsini bu mürəkkəb vəziyyətdən çıxmaq üçün xərcləmək iqtisadiyyatı müflisləşdirmişdir. Bu iqtisadi iflasa baxmayaraq, Osmanlı dövlətində 1919-cu ilə qədər İqtisadiyyat Nazirliyi qurulmamışdır.

İmperiya son günlərini yaşayarkən, Anadolu xalqı da səfil və pərişan bir halda idi. Məhz bu mənfi şərtlər altında qurulan TBMM hökuməti Mustafa Kamalın öndərliyində yeni müharibəyə başlayırdı: İqtisadiyyat müharibəsi.

18 mart 1923-cü ildə İzmirdə ölkənin müxtəlif yerlərindən gələn tacir, işçi, cütçü və sənayeçilərin qatılması ilə Türkiyə İqtisadiyyat konqresi toplandı. Konqresdə iqtisadiyyatın yoluna qoyulması və köklü tədbirlər alınması üçün bəzi qərarlar qəbul edildi. Atatürk konqresdə bunları söyləmişdi:

> *"Yoldaşlar, siz birbaşa millətimizi təşkil edən xalqın siniflərinin içindən gəlirsiniz və onlar tərəfindən seçilərək gəlirsiniz. Beləliklə, məmləkətimizin, millətimizin halını, ehtiyacını və millətimizin əməllərini və acılarını yaxından bilirsiniz... Sizin söyləyəcəyiniz sözlər, alınmasının əhəmiyyətini bəyan edəcəyiniz tədbirlər, birbaşa xalqın dilindən deyilmiş kimi qəbul olunar... Xalqın səsi, haqqın səsidir. Qılınc ilə zəfər qazananlar, şumla zəfər qazananlara məğlub olmağa, nəticə olaraq yerlərini tərk etməyə məcburdurlar. Osmanlı səltənəti də belə olmuşdur... Qılıncdan istifadə edən yorular, nəhayət qılıncı qınına qoyar və bəlkə qılınc o qında kiflənməyə, paslanmağa məhkum olar. Lakin şum istifadə edən qol getdikcə daha çox güclənər. Daha çox gücləndikcə daha çox torpağa malik və sahib olar."12*

Bu qərarlar;

1. Xammalı yurd içində olan sənaye müəssisələrinin qurulması,

2. Şəxsi təşəbbüskarların dəstəklənilməsi,

3. İnvestisiya qoyanlara kredit təmin edəcək bankların qurulması,

4. Günlük istehlak mallarına üstünlük verilməsi,

5. Əhəmiyyətli quruluşların milliləşdirilməsi,

6. Sənayeni təşviq edən qanunların qəbul edilməsi, xüsusilə, gömrük tariflərinin, milli sənayenin inkişaf ehtiyaclarına görə dəyişdirilməsi,

7. Yerli malların quruda və dənizdə ucuz tarif ilə daşınması,

8. Sənaye bankı qurulmağa qərar verilməsi

maddələri altında toplanmışdır.

Alınan bu qərarlar dərhal tətbiq edilmiş, lakin dünyanın içində olduğu iqtisadi çətinliklərə görə Mustafa Kamal iqtisadi tətbiqləri; 1923-1932-ci illər arasında "populistliyə əsaslanan liberalizm ilə yarı dövlət müdaxiləçiliyi", 1932-1938-ci illər arasında da "qarışıq iqtisadiyyata əsaslanan planlı inkişaf" olaraq iki mərhələli tətbiq etmişdir.

1936-cı ildə "II beş illik inkişaf planı" hazırlanmasına baxmayaraq, Atatürkün vəfatı və başlayan II dünya müharibəsinə görə plan tətbiq edilmir. Plan 1960-cı ildə tətbiq olunmağa başlanır.

Beş illik inkişaf planına görə; toxuma sənayesində Bakırköy, Kayseri, Nazilli, Konya Ereğli toxuma fabrikləri ilə, bu fabriklərin pambıq ehtiyaclarını qarşılamaq üçün Adana və İzmir

bölgələrində pambıq əkinçiliyinin canlandırılması nəzərdə tutulmuşdur. Tekstil sənayesi, kəndir, kükürd, dəmir-polad, mis, kömür kimi mədən və neft axtarma müəssisələri, sellüloz və kağız sənaye, dulusçuluq, şüşə, kimya, süngər, gül yağı, elektrik və enerji istehsalı üçün planlar edilmişdir. Plan çərçivəsində fabriklər də açılmış, bütün bu sənaye sahəəri üçün işçi yetişdirəcək peşə təhsil təşkilatları fəaliyyətə başlamışdır.

Sənaye sərmayələrini təşviq etmək üçün, əvvəlcə 1927-ci ildə "Təşviq-i Sənaye Qanunu" qəbul edilmiş, xarici məhsullarla mübarizə apara bilmək üçün də 1929-cu ildə yüksək gömrük tarifi tətbiq olunmağa başlanmışdır.



1933-cü ildə Sümerbank qurulmuş, 1935-ci ildə də mədən qaynaqlarını araşdırmaq üçün "Mədən Tədqiqat və Axtarış İnstitutu", elektrik-enerji qaynaqlarını araşdırmaq üçün "Elektrik İşləri Etüd İdarəsi", mədən və elektrik işlətmələrini qurmaq üçün də "Etibank" qurulmuşdur.

## Nəqliyyat sahəsindəki islahatlar

Türkiyə şərtlərinə ən uyğun nəqliyyat vasitəsi kimi qatarı görən Mustafa Kamal dəmiryollarına çox böyük əhəmiyyət vermiş və əhəmiyyətli mərkəzləri dəmiryolu nəqliyyatı ilə bir-birinə bağlamışdır.



*"Osmanlı imperiyası zamanında etdirilən və 65 ildə bitən 3350 km-lik dəmiryoluna qarşılıq Mustafa Kamalın öndərliyində öz gücümüzlə 1925-1939-cu illər arasında 3000 km-lik yol çəkilmişdir."13*

Milliləşdirmə siyasətinin gərəyinə əsasən xarici şirkətlərin əlində olan dəmir və dəniz yolu şirkətləri də satın alınmışdır. Kapitulyasiyalarla əlimizdən alınan Türk limanları arasındakı ticarət haqqımız, Lozan andlaşması ilə geri alınmış, gəmilərimiz limanlarımızda səfərə başlamışdır. 1 iyul 1926-cı ildə "Kabotaj qanunu" qəbul edilmişdir. Üstəlik, sərnişin daşıma işi dövlətə buraxılmış, ticari yüklər mövzusu da dövlət və xüsusi sektor arasında paylaşdırılmışdır. Dəniz administratorluğu üçün isə 1938-ci ildə Denizbank qurulmuşdur.





◉ Sümerbank Gəmlik İplik Zavodu

Böyük Atatürk aviasiyaya da xüsusi əhəmiyyət vermiş və 1936-cı ildə qurulan “Dövlət Hava Yolları” ilə İstanbul-Ankara arası nizamlı səfərlər başladılmışdır.

## Sosial sahədəki islahatlar

### Papaq qoyulması

Cümhuriyyət elan edilən illərdə sosial, iqtisadi və mədəni sahədə mədəni ölkələr arasındakı yerini alması üçün Türk millətinin sürətli dəyişikliyə ehtiyacı vardı. Millətin keçirəcəyi bu dəyişiklik müddəti hər sahədə özünü göstərməli idi.



Osmanlı imperiyası dövründən Cümhuriyyətin ilk illərinə qədər Türk millətinin geyim və başlıq tərzləri uyğun deyildi. Mustafa Kamal bu mürəkkəbliyi ortadan qaldırmaq və mədəni ölçülər daxilində geyim şəkli təyin etmək üçün çalışmalara başladı.

Mustafa Kamal bu mövzuda çox qərarlı idi. Atatürk 25 avqust 1925-ci ildəki Kastamonu ziyarətinə papaq qoyaraq mədəni libasda şəxsən liderlik etmişdir:

> *“Artıq dayana bilmərik, nə olursa olsun irəli gedəcəyik; çünki məcburuq. Millət açıq-aydın bilməlidir: mədəniyyət elə güclü atəşdir ki, ona biganə qalanları yandırar, məhv edər. İçində olduğumuz mədəni ailədə layiq olduğumuz mövqeyi tapacaq və onu mühafizə edib, ucaldacağıq. Rifah, səadət və insanlıq bundadır..*

...Əfəndilər; Türkiyə cümhuriyyətini təsis edən Türk xalqı mədənidir. Tarixən mədənidir, həqiqətdə mədənidir... Türkiyə cümhuriyyəti xalqı ailə həyatı ilə, yaşayış tərzi ilə mədəni olduğunu göstərmək məcburiyyətindədir... Papağa etiraz edənlər vardır. Onlara çox qafil və çox cahil olduqlarını söyləmək istəyirəm. Onlardan soruşmaq istəyərəm, Yunan papağı olan fes

geyinmək caizdir, papaq taxmaq niyə olmaz? Və onlara və bütün bu millətə Bizans keşişlərinin və ravvinlərin xüsusi geyimi olan cübbəni nə vaxt və nə üçün geyindiklərini xatırlatmaq istəyirəm... Türkiyənin həqiqətən mədəni olan xalqı başdan ayağa xarici görünüşü ilə də mədəni və kamil insanlar olduqlarını həqiqətən göstərməyə məcburdurlar...”14

Necə ki, 25 noyabr 1925-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən qəbul edilən qanunla papaq qoyulması qanuniləşmişdir.

## Təriqət dərgahlarının bağlanılması

Osmanlı imperiyası dövründə təriqət dərgahları müəyyən müddət üçün vəzifələrini icra etsələr də, çöküş illərində Türk millətinin sosial və mədəni sahədəki inkişaf ehtiyaclarına cavab verə bilməz və dünyadakı inkişaflara ayaq uydura bilmirdilər. Üstəlik, bəzi təriqət dərgahlarının siyasətlə yaxından maraqlanması, mövhumatçı və mühafizəkar quruluş nümayiş etdirmələri və bunları heç əlaqəsi olmadığı halda İslam dini adına etmələri, Türk millətinin inkişafına və İslam dininin başa düşülməsinə maneə törədirdi.

Mustafa Kamal Atatürkün fikirləri çərçivəsində təriqət dərgahlarının bağlanılmasına qərar verildi. 2 sentyabr 1925-ci il tarixində hökumət fərmanı qəbul edildi və 12 dekabr 1925-ci ildə də qanun qüvvəyə mindi.

## Təqvim-saat, həftə tətili, ağırlıq və uzunluq ölçülərinin təşkil edilməsi

Osmanlı Mebusan məclisində də saat və zaman mövzusunda ortaya çıxan qarışıqlıqlara görə azan saatının istifadə edilməməsi üçün çalışmalar aparılmış, lakin müvəffəqiyyət əldə edilməmişdi. O illərdə Osmanlı Mebusan Məclisinin nəticəyə gələ bilmədiyi bu cəhdi Türkiyə Böyük Millət Məclisi hökuməti həll etmək istəmişdir. 1922-ci ilin sentyabr ayında verilən təkliflə mövzu gündəmə alınmış, lakin eyni düşüncə müdafiəçilərinin müxalifəti səbəbi ilə təklif ancaq 26 dekabr 1925-ci ildə qanuniləşmişdir.

İstifadə edilən təqvim mövzusunda da bəzi qarışıqlar yaşanırdı. İstifadə edilən iki fərqli təqvimə bir də xarici əlaqələrdə istifadə edilən miladi təqvim əlavə olununca, vəziyyət daha da mürəkkəb hala gəlirdi. Bu vəziyyəti düzəltmək üçün eyni gün və tarixli 698 saylı qanunla, 1 yanvar 1926-cı ildən etibarən etibarlı olmaq üzrə miladi təqvimin istifadə edilməsi qəbul edildi.

İmperatorluq dövründə ölkə daxilində tətbiq olunacaq müəyyən həftə tətili günü yox idi. Cümhuriyyətin qurulması ilə həftə tətili tətbiqindəki qarışıqlıq da sona çatdırıldı; dünya dövlətləri ilə uyğunluq təmin etmək üçün, şənbə günü günortadan sonra başlamaq üzrə bazar günü rəsmi tətil olaraq qəbul edildi.

1931-ci ildə də onluq sistemə keçildi; “endaze”, “ərşin”, “okka “ kimi ağırlıq və uzunluq ölçüsü vahidləri, metr və kilo kimi ağırlıq və uzunluq ölçü vahidləri ilə dəyişdirildi. 1935-ci ildə qəbul edilən qanunla da yeni il günü tətil olaraq qəbul edildi.

## Soyadı qanunu

Osmanlı imperiyasında Qərbdəki kimi soyadı istifadə edilmirdi, yəni türklərin soylarından gələn bir adları yox idi. İctimai əlaqələrdə tək adların istifadə edilməsi, dövlət işlərində və sosial həyatda qarışıqlıqlara gətirib çıxarır, adlara əlavə olunan ləqəblər isə problemi həll etməkdən uzaq qalırdı. Bu qarışıqlığı düzəltmək üçün 21 iyun 1934-cü ildə qəbul edilən qanunla adımızla birlikdə bir də türkcə soyadı istifadə etmək məcburiyyəti gətirildi. Bu qanunla Mustafa Kamala TBMM tərəfindən "ATATÜRK" soyadı verildi. Üstəlik, eyni il içində Osmanlı sinif quruluşuna aid "hoca", "paşa", "həzrət" kimi ünvanların da istifadə edilməsi qadağan edilmişdir.

## Hərf islahatı

Ərəb hərflərindən ibarət olan əlifba əsrlərdir istifadə edilməsinə baxmayaraq, öyrənilməsindəki çətinliklər həll edilməmiş və zamanla ehtiyacı qarşılaya bilmirdi. II hökumət dövründə də bu mövzuda çarələr axtarılmış, lakin müvəffəqiyyət əldə edilməmişdir. Atatürk Türk mədəniyyəti və türkcə ətrafındakı birliyi tezliklə meydana gətirmək üçün, yeni türk əlifbası mövzusundakı çalışmaları şəxsən idarə etmiş, yeni hərfləri xalqa öyrətmə çalışmalarına qatılmışdır. 1 noyabr 1928-ci ildə Məclisdə qəbul edilən qanun təklifi ilə, 3 noyabr 1928-ci ildən etibarən yeni hərflər istifadə edilməyə başlanmışdır.

## Qadın haqları

Türk qadını əsrlərdir geri qalmış və sosial haqları əlindən alınmış, sanki yox sayılmışdır. Mədəni ölkələr səviyyəsinə yüksəlmək istəyən Türkiyə cümhuriyyəti qadınlarına ikinci sinif insan rəftarı edə bilməzdi. Çünki qadınlar Milli Mübarizədə milli təşkilatlar quraraq işlər görmüş, cəbhəyə silah daşımış və vətənin xilas olması üçün kişilərlə birlikdə döyüşmüşdülər.



◉ Latın hərflərinin qəbulundan sonra yeni hərfləri əhaliyə öyrətmək məqsədilə 1 yanvarda Xalq Məktəbləri açılmağa başladı. Qadın və kişi hər vətəndaşın böyük maraq göstərdiyi bu məktəblərdən 1929-cu il ərzində dörddə biri qadın olmaqla 597 min insan diplom aldı. Bu rəqəm 1936-cı ildə 3,5 milyona çatmışdır.

Mədəni hüququn qəbulu ilə qadın-kişi bərabərliyi mənimsənmiş; evlənmə, tərəflərin istəyinə buraxılmış, aradakı vəkil sistemi qaldırılaraq evləndirmə məmurunun qarşısında edilən nikahlar etibarlı sayılmış, bu nikahdan sonra istəyənin dini nikah etdirməsi sərbəst buraxılmış; birarvadlılıq tətbiqi gətirilib boşanmalardakı "talaq" üsulu qaldırılıb boşama səlahiyyəti etibarlı səbəblər axtarmaq şərti ilə məhkəmələrə buraxılmışdır. Üstəlik, qadınlar miras paylaşımında və şahidlikdə də kişilərlə bərabər olma haqqına sahib olmuşlar.

Bu hüquqi tənzimləmələrlə bərabər Türk qadınının mədəniyyət səviyyəsini yüksəldib sosial həyatda və iş sahəsindəki həqiqi yerlərini almaları mövzusunda bütün işlər görülmüşdür. Bu cəhdlərdən sonra Türk qadını dünya qadınlarına nümunə olacaq irəliləyişlər etmişdir. Atatürk qadınlara verdiyi dəyəri aşağıdakı sözləri ilə ifadə edir:

> *"Zaman, elm, mədəniyyət nəhəng addımlarla irəlilədikcə, həyatın, əsrin bugünkü həqiqətlərinə görə övlad yetişdirmənin çətinliklərini bilirik... Bu günün anaları üçün lazımi xüsusiyyətləri daşıyan övladlar yetişdirmək... bir çox yüksək xüsusiyyəti şəxslərində daşımalarına bağlıdır. Bu səbəblə qadınlarımız daha aydın, səmərəli, məlumatlı olmağa məcburdurlar."16*

Qadınlara 3 noyabr 1930-cu ildə keçirilən bələdiyyə seçkilərində səs vermə haqqı, 8 oktyabr 1934-cü ildə də seçmə və seçilmə haqları verilmiş, beləliklə, sosial həyatda qarşılarına çıxan maneələr qaldırılmışdır. Atatürk bu mövzuda edilməli olanları belə ifadə etmişdir:

> *"...Daha sağlam və dürüst olaraq gedəcəyimiz yol vardır; böyük Türk qadınını işlərimizdə iştirak etdirmək, həyatımızı onunla birlikdə icra etmək. Türk qadınını əxlaqi, elmi, sosial və iqtisadi həyatda kişisinin ortağı, yoldaşı, köməkçisi və dəstəkçisi etmək yoludur."17*

> *"...Türk qadını dünyanın ən aydın, fəzilətli və ağır qadını olmalıdır. Ağır çəkidə deyil; əxlaqda, fəzilətdə ağır olmalıdır... Millətin qaynağı, sosial həyatın əsası olan qadın, ancaq fəzilətli olsa, vəzifəsini icra edə bilər. Hər halda qadın, çox yüksək olmalıdır..."18*



◉ Qadınlar Konqresində

Atatürk başqa çıxışında "Birlik, cinsindən tək birinin əsrin zərurətlərini əldə etməsi ilə kifayətlənsə, o birlik yarıdan çox gücsüzlük içində qalar... Bizim birliyimizin müvəffəqiyyətsizliyinin səbəbi qadınlarımıza qarşı göstərdiyimiz laqeydlik və qüsurdan qaynaqlanır..."19 deyərək qadınlara verdiyi dəyəri ifadə edir.

Tarix cəmiyyəti

Türkiyə torpaqları üzərində yaşayan xalq, müxtəlif qruplardan meydana gəldiyindən irq birliyi təmin edilə bilməmişdi. Üstəlik, türklər tarixlərini bilmirdilər. Osmanlı təhsil sistemində bu mövzuda lazımi işlər görülməmiş, Türk tarixi dərin araşdırılmamışdı. Atatürk bu mövzunu aşağıdakı sözləri ilə ifadə etmişdir:

> *"Biz hələ indiyə qədər həqiqi, elmi və müsbət mənası ilə milli dövr yaşaya bilmədik. Buna görə də milli tarixə malik ola bilmədik."20*



◉ Türk Ocaqlarının bağlanmasından sonra Cümhuriyyətin hər yöndən ideoloji təməllərini qurmaq və türk cəmiyyətinin əsrlər boyu keçirdiyi prosesləri araşdırmaq məqsədilə yaradılan Türk Tarixini Tədqiq Cəmiyyəti 1935-ci ildə Türk Tarix Qurumu adını aldı. Cəmiyyət ilk dəfə məşhur Türk Tarix Tezisinə dair fikirləri özündə əks etdirən və müəllifləri arasında tanınmış adların olduğu «Türk Tarixinin Əsas Xətləri» əsərini nəşr etdirdi. Şəkildə 1932-ci il 9 iyuldakı I Türk Tarix Qurultayında Mustafa Kamal üzvlərlə birlikdə görsənir.

Türk tarixinin başlanğıc nöqtəsi mövzusunda, ümumiyyətlə Osmanlı imperiyasının quruluş tarixi əsas alınırdı. Bu məlumatlar da, əksəriyyətlə xarici tarixçilərin işlərindən əldə edilirdi. Bu

məlumatlara görə də, əsrlərdir üç qitəyə hökm etmiş türklərin tarixi yox idi.

Mustafa Kamal Atatürk qəhrəman Türk millətinin həqiqi tarixini öyrənməsinə böyük əhəmiyyət vermiş, bu mövzudakı çalışmaları şəxsən başlatmışdır. Bu çalışmalarda əvvəlcə İslamiyyətdən əvvəl Türk tarixinə diqqət çəkilmiş, 23 aprel 1930-cu ildəki Türk Ocaqları Qurultayında bu mövzuda fəaliyyət göstərəcək tarix heyətinin qurulması qərarlaşdırılmışdır.21

Bu çalışmalar nəticəsində "Türk tarixinin əsas xətləri" adlı əsər meydana gətirilmişdir. 12 aprel 1931-ci ildə Türk Tarixi Tədqiqat Cəmiyyəti qurulmuş və cəmiyyətin ilk yığıncağı da Atatürkün başçılığında 26 aprel 1931-ci ildə edilmişdir:

> *"Bizim millətimiz dərin keçmişə malikdir. Bu düşüncə bizi əlbəttə altı-yeddi yüz illik Osmanlı türklüyündən, Səlcuq türklərinə və ondan əvvəl bu dövrlərin hər birinə bərabər olan böyük Türk dövlətlərinə qovuşdurur... Türk uşağı əcdadını tanıdıqca daha böyük çalışmalar etmək üçün özündə güc tapacaq."22*

Türk Tarixi Tədqiqat Cəmiyyətinin iş əsasları belə təyin olunmuşdur:

1. Toplanaraq elmi görüşlər etmək,

2. Türk tarixinin qaynaqlarını araşdırıb nəşr etmək,

3. Türk tarixini işıqlandırmağa yarayacaq sənəd və s. təmin etmək üçün lazım olan yerlərə araşdırma qrupları göndərmək,

4. Cəmiyyətin çalışmalarını hər cür yollarla nəşr etmək.23

Bu çalışmalardan sonra, əvvəlcə liseylər üçün şəxsən Atatürkün də qələmə aldığı 4 cildlik tarix kitabı hazırlanmışdır. Türk Tarixi Tədqiqat Cəmiyyəti ilk konqresini 2-11 iyul 1932-ci illər arasında təşkil etmişdir.

## Dil mövzusundakı çalışmalar

12 iyul 1932-ci ildəki Tarix konqresinin dərhal ardından Atatürk, "Türk Dili Tədqiqat Cəmiyyəti"ni qurdurmuş, dildə də birlik təmin edilməsi üçün addım atılmasını təmin etmişdir. 1-ci Türk Dili Qurultayı, 26 sentyabr 1932-ci ildə Dolmabahçe sarayında toplanmışdır.



Bu konqresdə dildəki ərəbcə və farsca sözlərin yanında bölgələr arasındakı ləhcə fərqliliklərinin də ortadan qaldırılması üçün İstanbul türkcəsi nümunə götürülərək çalışmalara başlanmışdır. Aparılan çalışmalar “Belleten” adlı jurnalda nümayiş olunmuşdur.

Milli mədəniyyət və birliyin təmin edilməsi üçün hər sahədə türkcə hakim olmalı idi. Atatürk bu mövzuya da diqqət göstərmiş və çalışmaları şəxsən izləmişdir. Atatürk “Türk dilinin öz mənliyinə, əslindəki gözəllik və zənginliyə qovuşması üçün bütün dövlət təşkilatımızın diqqətli, əlaqədar olmasını istəyərik.”24 deyərək mövzunun əhəmiyyətini ifadə etmişdir.

1934-cü ildə edilən II Türk Dili Qurultayına xaricdən də dil alimləri dəvət edilmişdir. Bu konqresdə:

1. Terminlərin türkcə və əlavələrlə edilməsinin əhəmiyyətliliyi,

2. Bu terminlərin dərhal dərs kitablarına keçirilməsi,

3. Dövlət nəşrlərinin türk dilinə tərcümə edilməsi

qərarlaşdırılmışdır. Bu dövrdə Osmanlıca-Türkcə cib bələdçiləri və bəzi nəşrlər hazırlanmışdır.

III Türk Dili Qurultayı 24-31 avqust 1936-cı illər arasında edilmişdir. Xaricdən gələn 13 filoloqun iştirakı ilə reallaşan qurultayda cəmiyyətin adı “Türk Dili Təşkilatı” olaraq dəyişdirilmişdir. Bu qurultayda çalışma əsasları, digər iki qurultaydakından fərqli olmuşdur: Artıq “Günəş Dil Nəzəriyyəsi” (özəlləşdirməyə rədd, yaşayan dilə dönüş) üzərində dayanmağa başlanmış, xarici sözlərə türkcə qarşılıq axtarılmasına son verilərək yaşayan dil qəbul edilmişdir.



◉ Atatürk Aspendos teatrında

## İncəsənət sahəsindəki çalışmalar

Atatürk Türk millətinin yüksək zövqünü ortaya çıxarmaq və Türkiyənin incəsənət çalışmaları cəhətdən də, mədəni ölkələr arasındakı yerini almasını təmin etmək üçün bu sahədəki çalışmaları təşviq etmiş, müvəffəqiyyətli sənətçiləri mükafatlandırmışdır.

Bunun üçün incəsənətin hər sahəsində çalışmalar sürətləndirilmiş, 1924-cü ildə Ankarada musiqi müəllimi məktəbi açılmışdır. Bu məktəb 1936-cı ildə Qazi Təhsil İnstitutu musiqi bölməsinə çevrilmişdir. Yenə eyni il Ankara dövlət konservatoriyası açılmış və sənətçilər yetişdirilməyə başlanmışdır.

> *“Türk Beşləri” olaraq xatırlanan, Ahmet Adnan Saygun, Cemal Reşit Rey, Ferit Alnar, Ulvi Cemal Erkin və Necil K. Akses, ilk sonata, konsert, simfoniya və operalarını vermişdilər.*

İstanbul bələdiyyə konservatoriyasında qərb musiqisinə də yer verilmişdir. Üstəlik, Muzıka-i Hümayun 1924-cü ildə Ankaraya gətirilmiş və adı Riyaset-i Cumhur Musiqi Heyəti olaraq

dəyişdirilmişdir. 1935-ci ilə qədər bu heyətin orkestr şefliyini Adnan Saygun və Zeki Üngör etmişdilər.

Dar-ül Bedayi 1931-ci ildə İstanbul bələdiyyəsinə tabe edilmiş, 1934-cü ildə isə Şəhər teatrları adını almışdır. Ankara Xalqevi səhnəsində 1932-ci ildə Atatürkün də ilk təmsillərində hazır olduğu “Akın”, “Çoban”, “Mavi İldırım” oyunları sərgilənmişdir.



◉ Dolmabağça sarayının daxilindən bir görünüş

Sənaye-i Nefise məktəbinin məzunları 1924-cü ildə Avropaya təhsil almaq üçün göndərilmişdir. Bu məktəbin adı 1928-ci ildə İncəsənət Akademiyası olaraq dəyişdirilmişdir. 1932-1933 təhsil ilində Qazi Təhsil İnstitutunda Rəsm-İş fakültəsi açılmışdır.

1924-cü ildən etibarən şəkil və heykəl sərgiləri açılmağa başlanmış, 20 sentyabr 1937-ci ildə də Rəsm Heykəl Muzeyi açılmışdır.25

Atatürk incəsənətdə əldə edilən müvəffəqiyyətin, mədəni ölkə olma yolunda və islahatların sağlamlaşdırılmasında əhəmiyyətli bir faktor olduğunu bu sözləri ilə ifadə edir:

> *“İncəsənətdə müvəffəqiyyət, bütün islahatların müvəffəqiyyətli olduğunun ən qəti dəlilidir. Bunda müvəffəqiyyətli ola bilməyən millətlər yazıqdırlar. Onlar bütün müvəffəqiyyətlərinə baxmayaraq, mədəniyyət sahəsində yüksək insanlıq xüsusiyyəti ilə tanınmaqdan daim məhrum qalacaqlar.”26*

> *“Əfəndilər, hamınız millət vəkili ola bilərsiniz, nazir ola bilərsiniz, hətta ölkə başçısı ola bilərsiniz, lakin sənətçi ola bilməzsiniz.”27*







◉ Cümhuriyyətin ilk illərində türk cəmiyyətində şəxslərin və ailənin miras və əşya hüququ sahəsindəki münasibətlərini tənzimləyən ən böyük islahat 17 fevral 1925-ci ildə Mədəni Məcəllənin qəbulu idi. Qərb ölkələri içində ən demokratik olan İsveçrə Mədəni Məcəlləsini əsas götürən məcəllənin bəzi müddəaları türk cəmiyyətinin quruluşuna uyğunlaşdırılmışdır.

*“Bir millət ki rəsm çəkə bilməz, bir millət ki heykəl düzəldə bilməz, bir millət ki fənnin tələb etdiyi şeyləri edə bilməz, etiraf etməli ki o millətin irəliləmə yolunda yeri yoxdur. Halbuki bizim millətimiz, həqiqi xüsusiyyətləri ilə mədəni və irəli olmağa layiqdir və olacaq.”28*

## QEYDLƏR


1. Abdurrahman Çaycı, “Atatürk’ün Uygarlık Anlayışı”, VI Atatürk konfransları, 1963-1974, TTK yay. XVII. silsilə, sayı 6, Ankara, səh. 177

2. Mahmud Güloğlu, “Cumhuriyet'e Doğru”, 1921-1922 Ankara 1971, səh. 340

3. “Söylev”, II cild, səh. 475

4. Toktamış Ateş, “Türk devrim Tarihi”, İstanbul, 2000, səh. 168

5. “Söylev ve Demeçlər”, II cild, səh. 241. AAM 1997

6. A.k.ə., III cild, səh. 106-107

7. Ali FuaT Cebesoy, “Siyasi Hatıralar I”, 1957, səh. 46

8. “Nutuk”, II cild, səh. 582

9. “Atatürk’ün Söylev ve Demeçləri”, I cild, səh. 317, t. i. t. e. Yay. 1945

10. “Atatürk’ün Söylev ve Demeçləri Atatürk’ün Söylev ve Demeçləri, II cild, səh. 251 A. A. M. 1997

11. Toktamış Atəş, “Türk Devrim Tarihi”, səh. 181

12. A. k. ə. II cild. səh. 104, A. A. M 1997

13. “Türk Tarihi Silahlı Kuvvetleri ve Atatürkçülük”, səh. 337, Gen. Qərargah baş. Yay. 1973

14. “Söylev ve Demeçlər”, II cild, səh. 216-220 A: A: M, 1997

15. A.k.ə., II cild, səh. 225

16. A.k.ə., II cild, səh. 156

17. Ziya Karal, “Atatürk'ten Düşünceler”, səh. 57

18. A.k.ə., II cild, səh. 242, A. A. M, 1997

19. A.k.ə., II cild, səh. 89

20. “Türk Tarihi Silahlı Kuvvetleri ve Atatürkçülük”, səh. 366, Gen. Qərargah baş. Yay. 1973

21. Toktamış Ateş, “Türk Devrim Tarihi”, səh. 191

22. Afet İnan, “Atatürk'ten Yazdıklarım”, səh. 11

23. Toktamış Ateş, “Türk Devrim Tarihi”, səh. 192

24. A.k.ə., səh. 358.T.İ.T.E.Yay. 1945

25. www.ataturk.net.tr

26. Cevat Abbas Gürer, “Cumhuriyet” qəzeti, 10.11.1941

27. Utkan Kocatürk, “Atatürk’ün Fikir ve Düşünceleri”, səh. 153, A. A. M, 1999

28. Yusuf Çotuksöken, “Atatürk'ten Seçme Düşünceler”, Özgül nəşrləri

III FƏSİL · 3-CÜ HİSSƏ

# Atatürk və Milli Təhsil

## Atatürk və Milli Təhsil

Böyük öndər Atatürk təhsil mövzusunda da böyük və köklü dəyişikliklər nəzərdə tutmuşdur. Bu dəyişiklik əvvəlki nizamın köhnəlmiş, müasir olmayan, xurafatlara əsaslanan təhsil sistemini; müasir, elmi, ağıllı təhsil sisteminə çevirməyi məqsəd qoymuşdur. Qurtuluş savaşı dövründə xalqın oxumaq-yazmaq nisbəti 4 faizdən daha az idi. Qazanılan müstəqilliyi davam etdirə bilmək və mədəniləşmək üçün, mədəni xalqa və təhsilli heyətlərə ehtiyac vardır. Osmanlı imperiyasından miras qalan, çağın zərurətlərinə uyğunlaşa bilməmiş təhsil təşkilatları ilə bu mədəniyyət hücumu təmin edilə bilməyəcək. Xalqın dərhal sürətli şəkildə öyrədilməsi və cəhalətdən qurtarılması üçün lazımi işlərə başlanmalı idi.



Bu məqsədlə qısa müddətdə millətin oxumaq-yazmaq səviyyəsini yüksəltmək üçün çalışmalar görülmüşdür. Üstünlük ölkənin əsl ünsürü olan kəndli birliyinin təhsildən uzaq olması ilə yaranan cəhaləti yox edib, oxumaq-yazmaq səviyyəsini yüksəltmək üçün proqramlar hazırlanması; təhsil üçün lazım olan ilk məlumatların verilməsi ölkə inkişafını qarşılayacaq ara işçi ehtiyacı üçün təhsil təşkilatlarının qurulmasına verilmişdir.

Osmanlı imperiyası dövründə də maarifə əhəmiyyət verilmiş; təhsil səviyyəsinin yüksəldilməsi üçün zamanın hökumətləri tərəfindən alınan tədbirlər ya şərq, ya da qərb təhsil sistemlərinin tətbiqi əsas alındığı üçün müvəffəqiyyət əldə edilməmişdi. Halbuki, Mustafa Kamal Atatürk hər sahə kimi təhsilin də milli olmasının əhəmiyyəti üzərində dayanaraq Türkün xarakterinə uyğun, zamanın zərurətləri ilə şəkillənmiş milli təhsil proqramının hazırlanması ilə işə başlamışdır.

Osmanlı imperiyasından miras alınan maarif sistemində təhsil, mədrəsələr və məhəlli məktəblər, hərbi məktəblər, xarici məktəblər və nazirlik məktəbləri arasında bölünmüşdü. Bu

mürəkkəb vəziyyət daxilində Mustafa Kamalın bu sözləri Türk xalqı üçün şüar olmuşdur:

> *“Dünyada hər şey üçün, maddiyyat üçün, həyat üçün, müvəffəqiyyət üçün ən həqiqi mürşid elmdir, fəndir.”*

Atatürk milli təhsilin necə xüsusiyyət daşımalı olduğunu da bu sözləri ilə ifadə etmişdir:

> *“Milli təhsil proqramından bəhs edərkən köhnə dövrün xurafatlarından və fitri xüsusiyyətlərimizlə heç də münasibəti olmayan xarici fikirlərdən, şərqdən və qərbdən gələ bilən bütün təsirlərdən tamamilə uzaq, milli və tarixi səciyyəmizə uyğun mədəniyyət nəzərdə tuturam.”1*

> *“Hökumətin ən effektiv və ən mühüm vəzifəsi maarif işləridir. Bu çalışmalarda müvəffəqiyyət əldə bilmək üçün elə proqram izləməyə məcburuq ki, proqram millətimizin bugünkü halı ilə, sosial həyati ehtiyacı ilə, ətrafın şərtləri və əsrin zərurətləri ilə tamamilə mütənasib və uyğun olsun. Bunun üçün böyük və lakin xəyali və zorakılıq olan mütaliələrdən tamamilə imtina edərək, həqiqəti görən gözlərlə baxmaq və əl ilə təmas etmək lazımdır...*

Əsrlərdən bəri millətimizi idarə edən hökumətlər maarifi ümumiləşdirmək istəyirdilər. Ancaq bu arzularına çatmaq üçün şərqi və qərbi təqliddən xilas ola bilmədiklərindən nəticə millətin məlumatsızlıqdan xilas ola bilməməsi olmuşdur. Bu qəmli həqiqət qarşısında, bizim izləməyə məcbur olduğumuz maarif siyasətimizin əsas xətləri belə olmalıdır:

Demişdim ki; bu məmləkətin ilk sahibi və birliyimizin əsas ünsürü kəndlidir. Məhz o kəndlidir ki, bu günə qədər maarif nurundan məhrum buraxılmışdır. Buna görə də bizim izləyəcəyimiz maarif siyasətinin təməli əvvəla mövcud cəhaləti yox etməkdir. Təfərrüata girməkdən çəkinərək bu fikrimi bir neçə söz ilə açıqlamaq üçün deyə bilərəm ki, mütləq ümumi kəndliyə oxumaq, yazmaq və vətənini, millətini, dinini, dünyasını tanıdacaq qədər coğrafi, tarixi, dini və əxlaqi məlumat vermək və dörd əməliyyatı öyrətmək maarif proqramımızın ilk hədəfidir... Bir tərəfdən məlumatsızlığı yox etməyə çalışarkən, digər tərəfdən də məmləkət övladının sosial və iqtisadi həyatda həqiqətən təsirli və faydalı edə bilmək üçün zəruri olan ibtidai məlumatları praktik tərzdə vermək maarif rəhbərliyimizin əsasını təşkil edir.”2

Bu ifadələrdə də görüldüyü kimi, Atatürk çağını aşan təhsil anlayışına malikdir. Əzbərdən uzaq olan, gərəksiz məlumatları ehtiva etməyən, faydalı və praktik məlumatlarla müasir fərdlər

yetişdirməyi məqsəd qoyan bu anlayış; günümüzün müasir təhsil tətbiqləri ilə üst-üstə düşür. Ancaq bu təhsil hücumunu reallaşdırmaq o qədər asan olmamışdır. Dağınıq təhsil quruluşunun tək bir dam altında toplamaq, tədris planı hazırlamaq, dil problemini həll etmək, məktəb tikmək kimi böyük problemlər qısa müddətdə, pilləli olaraq həll edilmişdir. Böyük öndər, təhsildə edilən böyük islahatın ilk hərəkəti olaraq təhsildə birliyi təmin edəcək qanunun hazırlanmasını təmin etmişdir.

## “Tövhid-i tedrisat” qanunu



◉ Tövhid-i Tədrisat qanununun vacib hədəflərindən biri də dünyəvi və pulsuz təhsili bütün vətəndaşlar üçün məcburi etmək idi. Bu qanunla bütün təhsil müəssisələri Maarif Vəkalətinə bağlandı. Mustafa Kamal bu məqsədi belə izah edirdi: «Xalqımızın, vətənimizin darü'l-irfanları (elm yuvaları) bir olmalıdır.» Şəkildə Cümhuriyyətin ilk dövrlərində qızların və oğlanların birlikdə təhsil aldığı bir məktəb.

*“Tövhid-i tedrisat” qanunu mədrəsə-məktəb təşkilatları ilə ikiyə bölünmüş təhsil sistemini tək dam altında yığmaq və tədris planı birliyi təmin etmək məqsədini daşıyırdı. Qurulduqları dövrdən etibarən əhəmiyyətli vəzifə icra edən mədrəsələr, xüsusilə son vaxtlarda, səriştəsiz şəxslərin əlinə keçmiş, əsas məqsədləri elm olmayan şəxslər tərəfindən fərqli məqsədlər üçün istifadə edilmişdi.*

Özlərini İslam dininin arxasında gizləyərək qaranlıq məqsədlər güdən bu şəxslər, bu təşkilatları da hədəf halına gətirmişlər. Halbuki, mədrəsələrin quruluş məqsədi aydın, elm adamı yetişdirmək olmuşdur. Necə ki, bu təşkilatlardan Zəmbilli Əli Əfəndi, Əli Kuşçu, Hoca Paşa kimi tanınmış elm adamları çıxmışdır. 18-ci əsrdə başlayan pozulma nəticəsində mədrəsələr funksiyasını və xüsusiyyətini itirməyə başlamışdır. Atatürk bu təşkilatların aydın nəsillər yetişdirmə idealından uzaqlaşdıqlarını görmüş və bu qanunla, təhsil üzərində bir yoxlama mexanizmi qurulmasını təmin etmişdir.

Mustafa Kamal bu mövzudakı düşüncələrini 3 fevral 1923-cü ildəki İzmir nitqində bu ifadələri ilə açıqlamışdır:

*"Bizdə ən çox gözə dəyən bir nöqtə vardır ki, o da hər kəs bu cür məsələlərdən qaçır. Mədrəsələr nə olacaq? Vəqflər nə olacaq? Dediyimiz zaman dərhal bir müqavimətə məruz qalarsınız. Bu müqaviməti edənlərin hansı haqq və səlahiyyətlə etdiklərini soruşmaq lazımdır.*

Bizim dinimiz ən məqbul və ən təbii dindir. Bir dinin təbii olması üçün ağla, fənnə, elmə və məntiqə uyğun olmalıdır... Millətimizin, məmləkətimizin mədəniyyət yurdları bir olmalıdır. Bütün məmləkət övladı qadın və kişi eyni surətdə oradan çıxmalıdır."3

*"Tövhid-i tədrisat" qanunu 3 mart 1924-cü ildə bu məntiq çərçivəsində qəbul edilmiş, dünyəvi təhsil sisteminə keçilməsi ilə, mədrəsələrin vəzifəsi sona çatmışdır. 3 mart 1924-cü ildə şəriyə və vəqf vəkalətlərinin qaldırılmasına dair qanunla da, məktəb və mədrəsələrə ayrılan büdcə Milli Təhsil Nazirliyinə təhvil verilmişdir. Bu çərçivədə təhsil birliyi təmin edilmiş, məktəblərin idarəsi, tədris planı və yoxlanması tək nazirliyin idarəsinə keçmişdir. 2 mart 1926-cı ildə "Maarif Təşkilatı Haqqında Qanun" təşkil edilmiş, beləliklə, dövlətin icazəsi olmadan heç bir məktəbin açılmayacağı qanunla təyin olunmuşdur. Eyni qanunla məktəblərdə tədris olacaq dərslərin mövzuları təyin olunmuş, zamanın zərurətlərinə uyğun gəlməyən dərslər, tədris planı proqramlarından çıxarılmışdır.*

Atatürk başlatdığı böyük təhsil səfərbərliyi ilə, hər cür imkandan istifadə edərək xalqın cəhaləti məğlub etməsi üçün məşğul olmuşdur. Yeni heyətlər, kurslar, yeni məktəblər və dərsliklərlə davam edən təhsil səfərbərliyi, qısa müddətdə müsbət nəticələr vermişdir. Oxuma-yazma nisbəti artmış, cahillik səbəbi ilə məktəbə göndərilməyən qız şagirdlər öyrədilməyə başlanmış, universitetə gedən şagird sayı çox artmışdır.

Nəticə olaraq, təhsildə edilən böyük islahat sayəsində, müasir, aydın fərdlər yetişdirmənin yolu açılmış, vətəndaşların böyük bir hissəsinə oxuma-yazma və təməl təhsil verilməsi təmin edilmiş, iqtisadi sahədə faydalı olacaq məlumatlar öyrədilmişdir.

## Hərf islahatı

**B**u təhsil həmləsinin əhəmiyyətli mərhələsi də hərf islahatıdır. Bu islahatla ərəb əlifbası tərk edilmiş və qərb mədəniyyətinə açılan latın hərfləri istifadə edilməyə başlanmışdır.

Ərəb əlifbası əsrlərdir istifadə edilməsinə baxmayaraq, Türk dilinin tam olaraq ifadə edilməsində yetərli deyildi. Məsələn, türkcədə səkkiz sait var ikən, bu say ərəb dilində üçdür.

Türkcənin, latın hərfləri ilə yazılması üçün müxtəlif cəhdlər başladılsa da bu səylər, əks reaksiyalara görə yarıda qalmışdır. II hökumətdən sonrakı ciddi çalışmalar Atatürk tərəfindən əsas mənası ilə həyata keçirilmişdir.

Hərf islahatına ilk olaraq 1923-cü ildəki İzmir İqtisad Konqresində toxunulmuş, Mustafa Kamalın əmrləri ilə 1927-ci ildən etibarən ciddi hazırlıq dövrü başlamışdır. Atatürk 9 avqust 1928-ci ildə, yeni Türk hərflərinin qəbul ediləcəyini açıqlamışdır. Bu mövzuda: "Vətəndaşlar, yeni Türk hərflərini tez öyrənin... Bütün millətə, kəndliyə, çobana, hambala, qayıqçıya öyrədin. Bunu vətənpərvərlik və milliyyətçilik vəzifəsi kimi qəbul edin"4, deyən Mustafa Kamal sözlərinə belə davam etmişdir:

*"Bu vəzifəni edərkən düşünün ki, bir millətin, bir ictimaiyyətin on, iyirmi faizi oxuma-yazma bilir, səksən, doxsan faizi bilmirsə, bu ayıbdır. İnsanlar bundan utanmalıdırlar. Bu millət utanmaq üçün yaradılmış millət deyil. Fəxr etmək üçün yaradılmış, tarixini iftixarla doldurmuş bir millətdir. Lakin millətin səksən faizi oxuma-yazma bilmirsə, bu səhv bizim deyil. Türkün səciyyəsini anlamayaraq başını bir sıra zəncirlərlə bağlayanlarındır.*

Artıq keçmişin səhvlərini kökündən təmizləmək ərəfəsindəyik. Səhvləri düzəldəcəyik. Bu səhvlərin düzəldilməsində bütün vətəndaşların fəaliyyət göstərmələrini istəyirəm. Bir il içində bütün Türk ictimaiyyətin yeni hərfləri öyrənəcək. Millətimiz yazısı ilə, ağlı ilə, bütün mədəni dünyanın yanında olduğunu göstərəcək."5

Atatürk hərf islahatı mövzusundakı irəliləyişi görmək üçün gəzintilərə çıxmış, xalqın yeni hərfləri öyrənməsi üçün müəllim kimi onlara liderlik etmiş və "baş müəllim" olaraq xatırlanmışdır.

Yeni hərflərin istifadəsi ilə əlaqədar qanun 3 noyabr 1928-ci ildə qüvvəyə girmiş, beləliklə, türkcə, latın hərfləri ilə yazılmağa başlanmışdır. Atatürk islahatın müvəffəqiyyətini bu sözləri ilə ifadə etmişdir:



*"Ərəb hərfləri ilə heç yazma-oxuma bilməyənlərin türk hərfləri ilə dərhal ünsiyyət qurduqlarını gördüm. Uca Türk millətinin xeyirli olduğuna qərara gəldiyi bu yazı məsələsində bu qədər yüksək şüur və intiqal, xüsusilə istiqlal göstərməkdə olduğunu görmək mənim üçün böyük səadətdir. Bir az sonra yeni Türk hərfləri ilə göz qamaşdırıcı türk mənəvi inkişafına vasil ola biləcəyi qüdrət və etibarın beynəlmiləl səviyyəsini gözlərimi bağlayaraq indidən o qədər parlaq görürəm ki, bu mənzərə məni çox sevindirir."*6

## Dil islahatı və "Türk Dili" təşkilatının quruluşu

Misak-ı Milli ilə təyin olunan vətən torpaqlarında yaşayan Türk millətini birləşdirən ünsürlərdən biri də dildir. Dil milli quruluşu meydana gətirən və sağlamlaşdıran bir bağdır. Yeni Cümhuriyyətin tam müstəqilliyinin təmin edilməsi və qorunması üçün dili, xarici dillərin təsirindən qurtarılmalıdır.

Türk dili mövzusunda Səlcuqlulardan bu günə qədər problemlər yaşanır. Yazı dili ilə, danışıq dili arasında böyük fərq var; elm dili olaraq da farsca və ya ərəbcədən istifadə edilirdi. Üstəlik, müxtəlif etnik qruplar, gündəlik danışıqda fərqli dillərdən istifadə edirdilər.

Cümhuriyyət qurulduqdan sonra Türk dili mövzusunda əhəmiyyətli çalışmalar görülməyə başlandı. Bu məqsədlə bir təşkilat yaradılmasına qərar verildi. Atatürk, dil mövzusunun Türk xalqı üçün nə qədər əhəmiyyətli olduğunu bu sözləri ilə ifadə etmişdir:

*"Türk demək dil deməkdir. Milliyyətin çox aşkar xüsusiyyətlərindən biri dildir. Türk millətindənəm deyən insanlar hər şeydən əvvəl və mütləq türkcə danışmalıdır. Türkcə danışmayan bir insan Türk mədəniyyətinə, ictimaiyyətinə mənsubiyyətini iddia etsə buna inanmaq doğru olmaz."*7

Atatürk Türk dilini milli mənliyinə qovuşdurmaq və zənginləşdirərək mədəniyyət dili halına gətirmək üçün, Semih Rıfat, Ruşen Eşref (Ünaydın), Celal Sahir (Erozan), Yakub Kadri (Karaosmanoğlu) ilə birlikdə 12 iyul 1932-ci ildə Türk Dili Tədqiqat Cəmiyyətini (Türk Dili Təşkilatı) qurmuşdur.

Atatürk Türk Dili Tədqiqat Cəmiyyətini qurduğu 1932-ci ildə TBMM-nin dördüncü dövr, ikinci toplanma ilinin açılış nitqində; "Milli mədəniyyətin hər cığırda açılaraq yüksəlməsini Türk Cümhuriyyətinin təməl diləyi olaraq təmin edəcəyik. Türk dilinin, öz mənliyinə, təməlindəki gözəllik və zənginliyinə qovuşması üçün, bütün dövlət təşkilatımızın, diqqətli, maraqlı olmasını

istəyərik"8 deyə çıxış etmiş, bu mövzuda dövlətin də üzərinə düşən vəzifələri yerinə yetirəcəyini ifadə edərək həssas olduğunu bildirmişdir.

26 sentyabr 1932-ci ildə Dolmabahçe sarayında toplanan Birinci Türk Dili Qurultayı, təşkilatın iş proqramını əhatə edən bu maddələri təsbit etdi:

1. Türk dilinin başqa dil ailələri ilə müqayisə edilməsi,

2. Türk dilinin tarixi və müqayisəli qrammatikasının yazılması,

3. Anadolu və Rumeli ağızlarından olan sözlərin yığışdırılması, osmanlıca sözlərə Türkcə qarşılıq tapılması,

4. Türkcə lüğət hazırlanması,

5. Təşkilatın orqanı olaraq jurnalın dərc olunması,

6. Türk dili haqqında yazılmış yerli və xarici əsərlərin toplanması və lazım olanların tərcümə edilməsi,

7. Terminlərin türkcələşdirilməsi.

Qısa müddətdə əhəmiyyətli çalışmalar edən Türk Dili Təşkilatının fəaliyyətləri mövzusunda, Mustafa Kamal bunları söyləmişdir:

"




◉ Türkiyə Böyük Millət Məclisi tərəfindən Cümhuriyyət prezidenti Qazi Mustafa Kamala hədiyyə edilən «Qızıl Əlifba»

*Dil təşkilatı ən gözəl və səmərəli bir iş olaraq müxtəlif elmlərə aid türkcə terminləri təsbit etmiş və bu suratlə dilimiz xarici dillərin təsirindən xilas olma yolunda əsaslı addım atmışdır. Bu il məktəblərimizdə tədrisin Türkcə terminlərlə başlamasını mədəniyyət həyatımız üçün mühüm hadisə olaraq qeyd etmək istəyirəm."9*

## Atatürkün təhsilə verdiyi əhəmiyyət

Atatürk qurduğu müasir dövlətin uzunömürlülüyünün müasir təhsillə mümkün ola biləcəyini düşünürdü. Bu səbəblə birinci dünya müharibəsi illərindən başlayaraq, müxtəlif vəsilələrlə müəllimlərə və xalqa səslənmiş, təhsillə əlaqədar çıxışlar etmişdir.

Məktəbləri ziyarət etmiş, dərslərə girib müəllimləri izləmiş və onların özlərini inkişaf etdirməsinə əhəmiyyət vermişdir. Atatürkün təhsilə verdiyi əhəmiyyət və bununla reallaşan müsbət inkişaflar, digər millətlərə də nümunə olmuşdur.

Atatürkün də şəxsən içində olduğu təhsil səfərbərliyində çox qısa müddətdə əhəmiyyətli inkişaf yaşandı. Xalqın oxuma-yazma səviyyəsini yüksəltmək və xalqa yeni hərfləri öyrətmək üçün "millət məktəbləri" açıldı. Beləliklə, oxuma-yazma səfərbərliyi başladıldı. Bunlara bağlı olaraq, əsgərliyini onbaşı və çavuş olaraq edənlərin təlimatçı olaraq qatıldıqları təlimçi kursları və kənd müəllim məktəbləri açıldı. Bu məktəblərdə, təməl təhsilin yanında, kəndlilərin təməl ehtiyacı olan əkinçilik məlumatları və dülgərlik, dəmirçilik, bənnalıq kimi əl sənətlərinin öyrədilməsinə əhəmiyyət verildi.

Üstəlik, 19 fevral 1932-ci ildə yenə bu təhsil səfərbərliyinə bağlı olaraq, böyük mərkəzlərdə Xalq Evləri, kiçik mərkəzlərdə isə Xalq otaqları quruldu. Bu təşkilatlar işlərinə 9 ayrı sahədə fəaliyyət göstərərək başlayıblar. Bunlar:

1. Dil, ədəbiyyat, tarix

2. İncəsənət

3. Təmsil

4. İdman

5. İctimai kömək

6. Xalq məktəbləri

7. Kitabxana və nəşriyyat

8. Kəndçilik

9. Muzey və sərgi sahələridir.

Xalq Evləri; məktəblərini bitirən vətəndaşlarımızın məktəbdən sonra da mədəniyyət səviyyələrini yüksəltmək, Atatürk qanun və islahatlarını xalqa izah etmək üçün də vəzifə icra etmişdir. Sonrakı illərdə bir siyasi partiyanın təsiri ilə fəaliyyətlərini davam etdirməyə başlayan Xalq Evləri çox partiyalı həyata keçişdən sonra bağlanılır. 1960-cı ildən sonra xüsusi icazə ilə yenidən açılan Xalq Evləri əvvəlki fəaliyyətini davam etdirə bilmədi.

Davam etdirilən milli təhsil fəaliyyətlərinin nəticəsində;

1927-ci ildə oxuma-yazma bilənlərin nisbəti 10.6% ikən bu nisbət 1935-ci ildə 19.2%-ə yüksəlmişdir.

Oxuma-yazma bilənlərin əhaliyə görə qadın və kişi nisbətləri 1935-ci ildə qadın: 8.2%, kişi: 29.3% və cəmi 19.2% müəyyən edilmişdir.11

Yuxarıdakı cədvəllərdən Atatürkün milli təhsilə verdiyi əhəmiyyət açıq müəyyən olur.

Atatürkün təhsilə verdiyi əhəmiyyəti, aşağıdakı sözlərinə baxaraq da anlaya bilərik:

*“Ən mühüm və səmərəli vəzifələrimiz milli təhsil çalışmalarıdır. Milli təhsil çalışmalarında mütləq müzəffər olmaq lazımdır. Bir millətin həqiqi qurtuluşu ancaq bu suratlə olar.”12*

*“Elm və fənlə əlaqədar təşəbbüslərin fəaliyyət mərkəzi isə məktəbdir. Bu səbəblə məktəb lazımdır. Məktəb adını hamımız birlikdə hörmətlə anaq! Məktəb gənc beyinlərə insanlığa hörməti, millət və məmləkətə sevgini, şərəfi müstəqilliyi öyrədir... Müstəqillik təhlükə altına düşdüyü zaman onu qurtarmaq üçün izlənəcək ən doğru yolu göstərər... Məmləkət və milləti qurtarmağa çalışanların eyni zamanda peşələrində namuslu mütəxəssis və çalışqan məlumat olmalıdır. Bunu təmin edən məktəbdir. Ancaq bu şəkildə hər cür təşəbbüslərin məntiqi nəticələrə gəlməsi mümkün olar.”13*






*"Məmləkətimizi, birliyimizi həqiqi hədəfə, xoşbəxtliyə çatdırmaq üçün iki orduya ehtiyac vardır: Biri vətənin həyatını qurtaran əsgər ordusu, digəri millətin gələcəyini yoğuran mədəniyyət ordusu. Bu iki ordunun hər ikisi də qiymətlidir, ucadır, səmərəlidir, hörmətlidir... Bu iki ordunun ikisi də vacibdir. Tək siz, mədəniyyət ordusu mənsubları, sizə bağlı olduğunuz ordunun qiymət və müqəddəsliyini izah etmək üçün sizə bunu söyləyim ki, siz ölən və öldürən birinci orduya nə üçün öldürüb nə üçün öldüyünü öyrədən bir ordunun fərdlərisiniz."14*

## QEYDLƏR


1. 16 iyul 1921, SD, II, səh. 16-17

2. A.k.ə., I cild, səh. 244-245, A. A. M, 1977

3. A.k.ə. II cild, səh. 93-94

4. A.k.ə., II cild, səh. 274

5. A.k.ə., II cild, səh. 274

6. IV tarix, 1933

7. H. Fethi Gözler, "Atatürk İnkılapları", səh. 194, İslahat nəşriyyat, 1985

8. A.k.ə., I cild, səh. 390 A. A. M, 1997

9. A.k.ə., I cild, səh. 429

10. Toktamış Ateş, "Türk Devrim Tarihi", səh. 188

11. Tuncer Baykara, "Türk İnkılap Tarihi ve Atatürk İlkeleri", səh. 163, Akademiya nəşriyyat, İzmir, 1999

12. Utkan Kocatürk, “Atatürk’ün Fikir ve Düşünceleri”, səh. 119 A. A. M, 1999

13. A.k.ə., səh. 123

14. “Cumhurbaşkanları, Başbakanlar ve M.E. Bakanlarının Milli Eğitimle İlgili Söylev ve Demeçleri”, səh. 17, t. d. t. e. Yay: 6, 1946

IV FƏSİL · 4-CÜ HİSSƏ

# Atatürkün hərbi dahiliyi

## Atatürkün hərbi dahiliyi

Atatürk Türk millətinin yetişdirdiyi ən bənzərsiz siyasi dahilik, ən güclü dövlət adamı və heç şübhəsiz, ən böyük komandirdir. İstər doğuşdan sahib olduğu qabiliyyətlər, istərsə də həyatı boyunca əldə etdiyi xüsusiyyətlər baxımından çox üstün və seçilən xüsusiyyətlərə malikdir. Onun üstün hərbi dahiliyi; uzaqgörənliyi, məqsədəuyğun qərarlar verə bilmə, cəsarət, güclü iradə, əzm, dayanıqlılıq və güclü məsuliyyət anlayışı kimi xüsusiyyətlərlə özünü göstərir. Onun bu hərbi və siyasi dahiliyi bütün dünyada da müzakirəsiz qəbul edilmişdir.

Həyatının əhəmiyyətli hissəsini döyüş meydanlarında keçirən Atatürk heç bir zaman məğlubiyyəti qəbul etməmiş nadir komandirlərdən biridir. Bu baxımdan türk milləti insanlıq tarixində nadir olaraq ortaya çıxan bənzərsiz qəhrəmanlardan birinə sahib olma imtiyazına malikdir.

Anasının qarşı çıxmasına baxmayaraq, əsgərlik peşəsini seçən və bu sahədə təhsilə başlayan Atatürk getdiyi hər məktəbdə üstün müvəffəqiyyət göstərmişdir. Yaxın dostu Ali Fuat Cebesoy Atatürklə necə tanış olduqlarını belə izah edir:

> *“Cümə axşamı günü axşam yoxlamasında daxili tibb zabiti məni götürdü, birinci sinif, birinci bölük, birinci komanda, birinci manqasına aparıb çavuşa təslim etdi. Bu çavuş M. Kamal idi. Həmin anda diqqətimi çəkən şey, formasının təmizliyi, diqqətlə geyinməsi, qarşı tərəfə hörmət aşılamaq istəyən əsgərlərə xas olan təsvir edilə bilməyən hakimiyyəti idi... Hər halda o çavuşluq mahiyyətini doldurmaq istəyən müstəsna bir hal və rəftar.”1*

Atatürkün hərbi dahiliyinin təməlində, özünü inkişaf etdirmək üçün göstərdiyi davamlı və böyük səyi durur. Məsələn, 1909-cu ildə zabitlərin peşə məlumatlarını artırmaları üçün hərbi əsər nəşr etmələri əhəmiyyətli görülmüşdü. Peşəsində yüksəlməyi və müvəffəqiyyəti hədəfləyən Atatürk alman generalı Litzmannın dəstənin “Müharibə Təlimi” adlı əsərini türk dilinə tərcümə edərək, 23 fevral 1909-cu ildə Selanikdə dərc etmişdir.

## Atatürkün türk ordusuna verdiyi əhəmiyyət və dəyər

Vətəninə, azadlığına və şərəfinə böyük əhəmiyyət verən Türk millətinin milli varlığı və istiqlalı üçün göstərə bilməyəcəyi qüdrət, edə bilməyəcəyi fədakarlıq yoxdur. Bu güvən

ilə "Ya istiqlal, ya ölüm" deyərək Milli mübarizəni başladan Atatürk; milli və müstəqil bir dövlət qurmuş, bu milləti müasir mədəniyyətlər səviyyəsinə daşımada, türk ordusunu təminat olaraq göstərmişdir. Atatürk bu düşüncəsini aşağıdakı sözləri ilə ifadə etmişdir:

> *"Ordu, türk ordusu, bütün millətin sinəsini etimad (güvən), qürur duyğuları ilə qabardan şanlı adı. Ordumuz, Türk birliyinin, Türk qüdrət və qabiliyyətinin Türk vətənpərvərliyinin poladlaşmış bir ifadəsidir. Ordumuz; türk torpaqlarının və Türkiyə idealını təsdiqləmək (reallaşdırmaq) üçün sərf etdiyimiz sistemli çalışmaların yenilənməsi qeyri-mümkün təminatıdır."2*

Atatürk vətən övladlarının vətənin bölünməz bütövlüyü üçün bir yerə gəldiyi; keçmişi şanlı, gələcəyi parlaq Türk ordusunu bu sözlərlə ifadə edir:

> *"TBMM ordusu istilalar etmək və ya səltənətlər qurmaq üçün onun-bunun əlində ehtiras aləti olmaqdan münəzzəhdir (ehtiras vasitəsi olmayacaq qədər təmizdir). İnsanca və müstəqil yaşamaqdan başqa məqsədi olmayan millətin eyni ideala bağlı və tək onun əmrinə tabe (onun əmrində) və sadiq öz övladlarından mürəkkəb (ibarət olan) möhtərəm və güclü heyətdir (hörmətli və güclü bir quruluşdur)."3*

Atatürkün böyük güvən və hörmət etdiyi Türk ordusu qanının son damlasına qədər vətən torpaqları üçün mübarizə etmə əzmini göstərmişdir. Güvənə və tərifə layiq olan qəhrəman Türk ordusu qazandığı böyük zəfərlə; düşməndən qurtardığı, Türk torpağını, uca Türk millətinə hədiyyə etmişdir. Baş komandir Atatürk qəhrəman türk ordusunun böyük zəfərini, türk xalqına bu sözləri ilə müjdələmişdir:

> *"Böyük Türk milləti ordularımızın qabiliyyət və qüdrəti, düşmənlərimizə dəhşət, dostlarımıza güvən verəcək mükəmməliyyətdədi. Millət orduları on dörd gün içində böyük düşmən ordusunu yox etdi. Dörd yüz kilometr aralıqsız təqib etdi. Anadoludakı işğal edilmiş bütün torpaqlarımızı geri qaytardı"4*

Atatürk Türk ordusunun vətən üçün, düşmən süngüsünə qarşı, gözünü qırpmadan, qəhrəmancasına döyüşməsindən duyduğu böyük qüruru belə ifadə etmişdir:



*“Tarixdə bütün vətəni, çox üstün düşmən gücləri qarşısında son torpaq parçasına qədər qarış-qarış qəhrəmancasına və namusla müdafiə etmiş və yenə varlığını qoruya bilmiş ordular görülmüşdür. Türk ordusu o cövhərdə belə ordudur. Yetər ki, onu əmr edənlər, əmr edə bilmək sifətinə sahib olsun.”5*

*“Qəhrəman Türk ordularının qazandıqları böyük zəfərlərdən mənə düşmüş vəzifələri edə bilmişəmsə, çox bəxtiyaram. Tək bu nöqtədə bir həqiqəti açıqlamaq üçün söyləməliyəm ki: mənim ordularımı göndərdiyim və yönəltdiyim hədəflər əsasən ordularımın hər əsgərin, bütün zabitlərinin və komandirlərinin fikirlərinin, vicdanlarının, əzmlərinin, ideallarının yönəldiyi hədəflər idi.”6*

Baş komandirliyini etdiyi Qurtuluş savaşı zəfərinin tək sahibi kimi türk ordusunu göstərən Atatürk türk əsgərindən duyduğu məmnuniyyət və etibarı bu sözləri ilə dilə gətirmişdir:

Türk insanı qaçmaz, qaçmaq nədir bilməz. Əgər türk insanının qaçdığını görmüsünüzsə, dərhal onun başında olan ən böyük komandirin qaçdığı qəbul edilməlidir.”7

*“Öləni görür, üç dəqiqəyə qədər öləcəyini bilir, ən kiçik bir zəiflik (məyusluq) belə göstərə bilmir; sarsılmaq yox! Oxumaq bilənlər əllərində Quranı Kərim cənnətə girməyə hazırlaşırlar. Bilməyənlər kəlimə-i şəhadəti söyləyərək gedirlər. Bu, türk əsgərlərindəki ruh gücünü göstərən, təəccüblənəcək və təriflənəcək bir misaldır. Əmin olmalısınız ki, Çanaqqala döyüşünü qazandıran bu yüksək ruhdur.”8*

Atatürk türk əsgərinin vətən sevgisini və imanını, bənzərsiz xüsusiyyətlərini bu sözləri ilə izah etmişdir. Türk əsgərlərinin yaratdığı üstün gücü isə belə təsvir etmişdir:



*“Mənim üçün ordumuzun qiymətini ifadə etmədə ölçü budur: Türk ordusunu bir hissəsi düşmənini məğlub edər. İki mislini dayandırar və təsbit edər (və yerinə mismarlayar).”9*

Türk ordusunun Qurtuluş savaşındakı çətin və ani hücumları qarşısında özünü itirən düşmənlərin qəhrəman ordumuz və onun böyük komandiri Mustafa Kamala duyduqları heyranlığın ifadəsi olan sözlər bunlardır:



◉ Mustafa Kamalın komandanlığı altındakı əsgərlər Ənvər paşadan medallarını alarkən

Gelibolu yarımadasının İngilis baş komandiri Hamilton:

*“Çox mükəmməl əmr edilən və cəsarətli döyüşən Türk ordusuna qarşı döyüşürük.”*

General Aspinal:

*“Tarixdə bir diviziya komandirinin üç ayrı cəbhəyə, vəziyyətə nüfuz edərək, tək bir hərbi gedişinə deyil, bir cəbhənin aqibətinə, hətta millətin taleyinə təsir edəcək vəziyyət yaratmağın bənzərinə çox nadir rast gəlinər.”10*

Atatürk vətənin hər yerində dastanlar yazan, şanını bütün xalqlara eşitdirən böyük türk ordusuna bu sözlərlə xitab etmişdir:

> *"Türk ordusu! Dünyanın heç bir ordusunda ürəyi səninkindən daha təmiz, daha sağlam əsgərə rast gəlməmişdir. Hər zəfərin mayası səndədir. Hər zəfərin ən böyük payı sənindir. Qənaətinlə, imanınla, itaətinlə heç bir qorxunun qorxutmadığı dəmir kimi təmiz ürəyinlə düşməni məğlub edən böyük səyin üçün könül borcumu və təşəkkürümü söyləməyi özümə əziz borc bilərəm."11*

Atatürkün məmləkətin böyük çətinlik içində olduğu bir dövrdə böyük zəfər qazanan Türk ordusundan Türk milləti adına bir də gözləntisi vardır. Bu gözlənti çətin zamanlarda göstərilən üstün səyin Cümhuriyyətin hakim olduğu dövrdə də göstərilməsidir. Vətənin bölünməz bütövlüyünün qorunması, xalqın hər cür xaos və anarxiyadan uzaq, rifah içində yaşaması üçün göstəriləcək bu səyi Atatürk belə ifadə edir:

> *"Zəfərləri və keçmişi insanlıq tarixi ilə başlayan, həmişə zəfərlə birlikdə mədəniyyət nurlarını daşıyan qəhrəman Türk ordusu!*

Məmləkəti ən böhranlı və müşkül anlarda zülmdən, fəlakət və müsibətlərdən və düşmənlərindən necə qorumuş və qurtarmısansa, Cümhuriyyətin bugünkü səmərəli dövründə də hərbi texnikasının bütün müasir silah və vasitələri ilə bəzənmiş olaraq vəzifəsini eyni müvəffəqiyyətlə edəcəyinə heç şübhəm yoxdur."12



◉ Bitlisdə hərbi hissəni yoxlayarkən

Şanlı ordumuz heç şübhəsiz, Atanın bu istəyini, xalqına verdiyi güvən və qürurla yerinə yetirir; Türk Silahlı Qüvvələri olaraq, şanlı tarixi ilə dünyadakı yerini alır. Böyük vəzifə eşqi ilə bu vəzifəni yerinə yetirən Türk Silahlı Qüvvələri Atatürkün çəkdiyi yolda güzəştə getmədən, şərəflə irəliləyir; türk xalqının azadlığına qarşı gələcək, gizli və açıq hər cür təhdidlə mübarizə edir.

Bu şərəfli təşkilat, milli varlığımızı qorumaq üçün yüz minlərlə şəhid vermiş, tarixi şanlı zəfərlərlə dolu bir ordunun varisidir. Yüksək xarakterini və üstün səciyyəsini, Türkün ayaq basdığı hər qarış torpaqda isbat etmişdir.

Ölkəmizə hiyləgər əməllər bəsləyənlərin fəaliyyətlərini, bu günə qədər həmişə boşa çıxaran Türk Silahlı Qüvvələri; dünən olduğu kimi bu gün də, pusquda gözləyən düşmənlərini daşındırır, qəhrəmanlığı, vətənpərvərliyi və hərbi dahiliyi ilə bütün dünyanın heyranlığını qazanmağa davam edir. Şanlı Türk Ordusu bu günə qədər, heç bir qarşılıq gözləmədən məmləkətimizin və millətimizin xeyrini, təhlükəsizliyini və bütövlüyünü güdmüş; bütün təşkilatları ilə Cümhuriyyətimizin, dünyəviliyin, hüququn və demokratiyanın müdafiəçisi olmuşdur. Hər cür

siyasi mübahisə və çəkişmənin üstündə yer alan Türk ordusu; Türk millətinin torpaqlarını işğalçıların əlindən qurtarmış və Cümhuriyyət tarixi boyunca da bu torpaqları hər cür daxili və xarici düşmənə qarşı qəhrəmancasına müdafiə etmişdir. Böyük öndər Atatürkün "Ordumuz; Türk torpaqlarının və Türkiyə idealını təsdiqləmək üçün sərf etdiyimiz sistemli çalışmaların məğlub olması qeyri-mümkün təminatıdır" ifadəsi ilə də diqqət çəkdiyi kimi, ordumuz varlığımızın ən əhəmiyyətli zəmanətidir.



Şanlı Türk ordusu çökmüş imperatorluğun milli torpaqlarını qorumaq üçün yüz minlərlə şəhid vermiş bir ordunun varisidir. Əvvəl Balkan müharibələrində böyük Slav ittifaqı ilə; sonra I dünya müharibəsi illərində, Çanaqqalada, Kut-ül Amarədə, Süveyşdə, Qafqazda dünyanın ən güclü orduları ilə; ardından Qurtuluş savaşında İngilis dəstəyi ilə Anadolunu işğal edən Yunan ordusu ilə döyüşmüş, bütün bu torpaqları o əsilzadə qanı ilə sulamış bir ordunun varisidir.

Türk ordusunun üstün qabiliyyətləri, intizam və dayanıqlılığı; Avropanın yayılan güclərini dayandırmış, II dünya müharibəsi illərində bütün Avropanı işğal edən Hitleri də çəkindirmişdir. Türk ordusu daha sonrakı illərdə də, Sovet təhdidinə qarşı dimdik ayaqda dayanmış, Koreyada qəhrəmanlıq dastanları yazaraq bütün dünyanın qibtə etməsinə səbəb olmuş, Kiprdə qorxmazlığını və dayanıqlılığını bütün dünyaya göstərmiş bir ordudur.

1980-ci illərin əvvəlindən bu yana ölkənin birliyinə və bütövlüyünə qəsd edən terrora qarşı, ən çətin mübarizələri verən, partizan döyüşündə verilə biləcək ən az itki ilə bəsirətli və təsirli mübarizə icra edən güc də yenə Türk Silahlı Qüvvələridir. Terror təşkilatının xarici ölkələrdən aldığı dəstəyə baxmayaraq, məqsədinə çata bilməməsi əksinə çözülmə və dağılma prosesi yaşaması, şübhəsiz təxminən 15 ildir əzmlə davam etdirilən bu mübarizənin nəticəsidir.

Türk ordusu şanlı bir keçmişdən güc alır; bu gün də eyni xüsusiyyətlə Türkiyə cümhuriyyətinin ən böyük zəmanəti olmağa davam edir. Bu vəziyyət şübhəsiz, vətənini və dövlətini sevən hər Türkün sinəsini qabardır. Millətimizin ordumuza olan inancı və etibarı tamdır. Edilən bütün sosial anketlərində Türk Silahlı Qüvvələrinin millətimiz tərəfindən "ölkənin ən etibarlı təşkilatı" olaraq göstərilməsi bu vəziyyətin başqa bir ifadəsidir.

## I Dünya Müharibəsində göstərdiyi hərbi dahilik

### Atatürkün Çanaqqalada göstərdiyi üstün müvəffəqiyyət

15 fevral 1915-ci il Çanaqqala döyüşünün başlanğıc tarixidir. Mustafa Kamal ilk günündən etibarən, əlindəki qüvvə ilə bu döyüşün içindədir. Var gücləri ilə Çanaqqala boğazına hücum edən düşmən qüvvələri 18 mart 1915-ci ildəki dəniz döyüşündə məğlub oldu. Lakin İstanbula çatmaq istəyən müttəfiqlər bu məğlubiyyətin ardından bir də qurudan hücum etməyə çalışdılar.

Bu zaman 25 aprel 1915-ci ilin səhəri maraqlı hadisə baş veri. Osmanlı hökuməti və baş qərargahı Gelibolu və Egey dənizi tərəfindən gələcək quru döyüşünü düşünürlər. Və dolayısilə, bu mövzuda hazırlıqlı da deyildirlər. Ancaq Mustafa Kamal düşmənin əhəmiyyətli strateji mövqeyi olan Arıburnundan hücum edəcəyini anladığı üçün, əmri altındakı 57-ci alayı Kocaçimen mövqeyinə gətirdi. Mustafa Kamal Conkbayırına çatdığı sırada 9-cu diviziyaya bağlı 27-ci alayın əsgərlərinin Conkbayırına doğru qaçdıqlarını görərək önlərini kəsər və belə soruşar:

- Hara gedirsiniz?

- Düşmən gəldi.

- Haradadır?

Qaçan əsgərlər 261 m. yüksəklikdəki təpəyə işarə edirlər. Həqiqətən də, düşmən qarşısında heç bir mane olmayan təpəyə doğru yaxınlaşırdı. Mustafa Kamalın yanında isə bir-iki zabit və qaçan əsgərlərdən başqa heç kim yox idi. Öz alayı hələ Kocaçimendə idi. Dərhal nəzarəti ələ alaraq əmr verdi:

- Düşməndən qaçılmaz.

- Sursatımız yoxdur.



◉ Qərargah polkovniki Mustafa Kamal İstanbuldan gələn millət vəkillərinə Çanaqqala səngərləri ilə bağlı məlumat verərkən

- Sursatınızdan daha güclü süngünüz var.

- Süngü tax, hücum!

Dərhal arxasından “Allah, Allah” səsləri bütün düzənliyə yayıldı. Qəhrəman Türk əsgəri indi süngüsü ilə, üz-üzə vuruşurdu. Bu mübarizə nəticəsində bir az zaman qazanılmış və 57-ci alay döyüş sahəsinə yetişmişdi. Mustafa Kamalın əmri ilə təkrar hücuma keçilmiş, bu döyüşü Türk ordusu qazanmışdı. Ancaq 57-ci alayın hamısı şəhid olmuşdu. 1 iyun 1915-c ildə Mustafa Kamal polkovniklik dərəcəsinə yüksəlmişdir.



◉ Çanaqqalada qərargah önündə

Bu məğlubiyyətə baxmayaraq, müttəfiq dövlətlər 6-7 avqust gecəsi Anafartalara hücum etmiş, şiddətli toqquşmalar başlamışdır. Bu sırada qurulan Anafartalar Qrup Komandirliyini boynuna götürən Mustafa Kamal 10 avqustdakı toqquşmalarda düşmənə böyük itkinlər verdirmiş, düşmənin Conkbayırına yerləşməsinə maneə törətmişdir.13

İngilis qüvvələrinin komandiri Hamilton yazdığı "Gelibolu döyüşləri" adlı kitabında bu döyüşlər haqqında belə deyir:

> *"Türklər bir birinin ardınca "Allah, Allah" qışqırıqları ilə həqiqətən çox igidcəsinə döyüşdülər. Bu döyüşü yazı ilə izah etmək mümkün deyil."14*

İngilislər çırpınmalarına baxmayaraq, qəhrəman Mehmetciyin müdafiə xətlərini aşıb, Çanaqqala boğazını keçə bilmədilər və nəticədə 20 dekabr 1915-ci il Çanaqqaladan geri çəkilməyə başladılar.

Mustafa Kamal Atatürkün ən yaxın silah yoldaşı Ali Fuat Cebesoy onun hərbi tərəfinin mükəmməlliyi mövzusunda bunları demişdir:

> *"Atatürk düşmənə qarşı Trablusgarp döyüşü ilə başladı və Milli mübarizənin zəfəri ilə ən yüksək nöqtəsinə çatdı. 1911-1923-cü illər. Bu hesaba görə bir neçə qısa müddət xaricində 12 il cəbhədən cəbhəyə qaçmışdır. Atatürk bütün döyüşlərində ya təcavüzə məruz qalan vətən parçasını, ya da hamısını müdafiə etmək və sonunda düşmən işğalından qurtarmaq üçün onu zəif tərəfindən tutaraq güclü zərbə ilə məhv etmək kimi vəziyyətlərlə qarşı-qarşıya qalmışdı. Bu çətin şərtlər altında Atatürk düşmən hücumlarını dayandırmış və yaxud onu tamamilə məhv etmişdir.*

Müdafiə döyüşlərində müvəffəqiyyəti təmin edən hədəfləri yaxşıca seçə bilmək qüdrəti, hücum döyüşlərindən daha çətin olduğu mütəxəssislərə məlumdur. Çünki müdafiədə üstünlük hücum edənin əlindədir. Bunu onun əlindən almadan müvəffəqiyyəti əldə etmək mümkün deyil. Hücumda isə əldə olan təşəbbüsü qarşıya verməmək hünərdir. Bu komandirlik qabiliyyətini xüsusilə Çanaqqala müdafiəsində göstərmişdir.

Atatürk Balkan və birinci dünya müharibələrini hazırlanmasında şəxsən baş komandir olmadığı üçün müvəffəqiyyəti təmin edən hədəflərin hansıları olduğunu səlahiyyətlilərə məqsədəuyğun bir surətlə göstərməyə və təklif etməyə müvəffəq olmuş, amma ona qulaq asmamışdılar.

Balkan müharibəsinin hazırlanmasında Egey dənizinə hakim ola bilməyəcəyimizi anlayan Atatürk, Rumelinin ehtiyacı olan dəstəkləmə və möhkəmlətmə işlərinin dənizdən edilməyəcəyini qəbul etmişdi. Bu səbəblə, Rumelidə olan qüvvələrimizin tək başlarına dörd istiqamətdən gedərək, üstün düşmən qüvvələri qarşısında ancaq zaman qazandıran bəzi hərəkətlər edilə biləcəyini düşünmüş və bunları da belə təsəvvür etmişdi: İşkodranın müdafiəsini məhəlli səbəblərə görə mümkün görmüş, Monastır, Üsküp kimi şəhərlərin yüksək mövqelər kimi tutulmasını və Yanadakı Nizamiye diviziyasının monastırdakı diviziyaların Selanik ətraflarında toplanmasını və Selanikdəki korpusların Ergene çayının arxa tərəfinə, yəni Şərqi Trakyaya doğru dəmiryolları ilə nəqlini münasib görmüşdü. Təsəvvür edilən bu hərəkətlər vaxt qazandıran və başlarını qatan hərəkətlər mahiyyətində olacaqdı.

Şərqi Trakyadan Bolqarıstana qarşı Osmanlı ordularının toplanması gecikəcəyi üçün Ədirnə qalası ilə Ergine çayı müdafiə xəttindən bu toplanma üçün vaxt qazanılmasını əhəmiyyətli görürdü. Toplanma bitən kimi şimaldan düşmən ordularının yan və arxasına qarşı şiddətli surətdə hücuma keçirilərək, insiyativin bolqarların əlindən alınmasını tövsiyə edirdi...”



◉ Birinci Dünya müharibəsində (1914-1918)

## Atatürkün Qurtuluş savaşında göstərdiyi hərbi dahilik

Atatürkün Qurtuluş savaşı əsnasında göstərdiyi üstün hərbi müvəffəqiyyətləri izah etməyə yaxın dostu Ali Fuad Cebesoyun izahatları ilə başlaya bilərik. Bu qiymətli əsgər (yuxarıda) Atatürkün Çanaqqala müharibəsi və birinci dünya müharibəsindəki müvəffəqiyyətlərini qiymətləndirdikdən sonra sözü Qurtuluş savaşına gətirərək belə deyir:

*“Milli mübarizənin başlanğıcı çox qarışıq vəziyyətlərə səhnə olmuşdu. Bu əsnada çox uzaqgörənlik və ağıl göstərdi. Tələsmədi və hərəkətə keçmədi. Ordularını yaxşı hazırlamağa başladı. Zamanla milli siyasətimizi parçalamaq istəyənlərin Anadoludakı yunan orduları olduğu anlaşılmışdı. Bunları məğlub və məhv etmədikcə milli siyasətimizin qərbə qəbul etdirilməsi mümkün olmayacaqdı. Əgər bu düşmən məğlub edilməzsə, Qərb dövlətləri bizim istədiyimiz şərtlərlə sülh müzakirələrinə yanaşmayacaqdılar.*

Bu halda nə olursa olsun, bu düşmən ordusunu məğlub deyil, məhv etmək lazım idi. Atatürk bu əhəmiyyətli iddiamızı bu çərçivə içərisinə aldıqdan sonra bütün məlumatı yığaraq düşməni necə məhv edə biləcəyini düşündü və bunu qərargahı və yaxın komandirləri ilə birlikdə hazırladıqdan sonra onlara tamamı ilə başa gəldi. Bu surətlə bütün millət ordunun arxasında idi. Hücum hərəkətinə özündən üstün olan düşməni ayrı-ayrı mövqelərdə qəflətən tutmaqla başladı. Bundan sonra həqiqi meydan müharibəsini ordularının başında onları addım-addım izləyərək etdirdi və müvəffəq oldu. Bu surətlə bənzərsiz bir baş komandir olduğunu bütün dünyaya isbat etdi.

Atatürkün baş komandir olaraq bəzi xüsusiyyətləri vardı; tarixdə ad qazanmış bəzi komandirlər kimi hərəkatında nə macərapərəst, nə də şəxsi şöhrət üçün riskə girən komandirlərdən deyildi. O ən çox millətinin müvəffəqiyyət qazanması ilə fəxr edərdi. Komandirlər bəzi vəziyyətlərdə riskə getməlidirər. O bu kimi hallarda millət adına onun vəkillərinin də riskə getmələrini təmin edərdi...”

## Sakarya meydan müharibəsində;

5 avqust 1921-ci ildə Ali Baş Komandan vəzifəsini boynuna götürən Mustafa Kamal 15 avqust 1921- ci ildə Fevzi (Çakmak) Paşa ilə birlikdə Polatlıda Ali Baş Komandan qərargahına getdi. 23 avqust 1921-ci ildə yunan ordusu təkrar bütün cəbhələrdə hücuma keçdi. Sakarya meydan döyüşü gecə-gündüz tam 22 gün davam etdi. Mustafa Kamal Paşanın əmrindəki qəhrəman mehmetcik bu döyüşdə tarixin qızıl səhifələrinə yeni dastan əlavə etdi. Bu dastan Mustafa Kamalın bu sözləri ilə başlayırdı:



◉ 1918-ci il 13 noyabrda içində yunan hərbi gəmilərinin də olduğu 50-dən çox gəmisi olan Müttəfiq donanması İstanbul limanına daxil oldu. Mustafa Kamal da həmin gün qatarla İstanbula döndü. Ədliyyə naziri Cavad Abasa gəmiləri göstərərək məşhur cümləsini söylədi: «Gəldikləri kimi gedərlər...» Şəkildə İstanbul küçələrində işğal qüvvələrinin zabitləri və yanlarında bir Osmanlı zabiti görsənir.

> *"Müdafiə etmə xətti yoxdur, müdafiə etmə planı vardır. O plan bütün vətəndir. Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk oluna bilməz."*

26 avqust 1921: Dastan 1922-ci ildə Dumlupınar meydan müharibəsinin qazanılmasından sonra 1 sentyabr 1922-ci ildə yenə Ali Baş Komandanın bu sözləri ilə davam edirdi:

> *"Ordular ilk hədəfiniz Aralıq dənizidir. İrəli!"*

Sakarya meydan müharibəsinin nəticəsini 12 sentyabr 1921-ci ilin axşam üstü Baş qərargah rəisi Fevzi (Çakmak) Paşa Basirettəpədən Ankaraya bu teleqrafla bildirirdi:



◉ 1920-ci il 16 mart səhəri erkən Müttəfiq dövlətlərin komissarları sədrəzəm Saleh paşaya nota verdi. Notada Kuveyi-Milliyyə hərəkatının təhlükəli olmağa başladığı, Müttəfiqlərə qarşı hücumların artması irəli sürülməklə İstanbulun işğal ediləcəyi bildirilirdi. Şəkildə işğal zamanı İstanbul səmasında bir fransız təyyarəsi görsənir.

> *"Anadolunun Yunan ordusu üçün məzar olacağı haqqındakı fikrimizin reallaşmaqda olduğunu ifadə edirəm."15*

Sakarya zəfərindən sonra Atatürk Türk ordusuna bu şəkildə səslənmişdir:

> *"Yoldaşlar, millətimizi yadların əlində kölə olmuş görməmək üçün girdiyimiz bu müharibədə Sakarya zəfəri kimi adı həmişə xatırlanacaq yeni və böyük bir zəfər qazandınız. Mənim kimi ömrünü illərdən bəri sizin yanınızda keçirmiş bir silah yoldaşınız; əzilmiş, qəhr edilmiş düşmənin çəkilməsindən sonra haqqınızda duyduğumuz təqdir və heyrəti, minnət və təşəkkürü ordunun hər fərdi və məmləkətin hər tərəfində eşidiləcək qədər yüksək səslə söyləməyi əhəmiyyətli gördüm.*

Sakarya qədər böyük biz bütün məmləkət, bütün varlığımız və istiqlalımız bahasına deyiləcək qədər əhəmiyyətli böyük müharibəyə girişdik. 21 gün, 21 gecə bir millətin işğal və talan fikri bir-biri ilə mübarizə aparırdı..



◉ İşğalın ikinci günündə Müttəfiqlər İstanbula tam hakim oldular. İngilislər deputatları həbs etməyə başladılar. Bir gün sonra həbs olunan bəzi deputatlar Maltaya göndərilirdi, Mustafa Kamal paşa İslam dünyasına səslənən bəyannamə dərc etdirərək «Bu hərəkət mənəviyyatı korlamayacaq, gücləndirəcəkdir» deyirdi. Şəkildə işğal zamanı Qalata körpüsündə ingilis qoşunları görsənir.

Məzlum millətimizi tarixin ən təhlükəli bir zamanında yenidən aydınlıq və xoşbəxtliyə qovuşduran bu müharibədə sizin baş komandiriniz olmaqla bir insan ürəyi üçün müqəddəs ola biləcək ən dərin səadət və iftixarı duydum. Dünyanın heç bir yerində və ordusunda ürəyi səninkindən daha təmiz və daha möhkəm bir əsgərə rast gəlinməmişdir. Hər zəfərin mayası səndədir. Hər zəfərin ən böyük payı sənindir. Həyatınla, imanınla, itaətinlə, heç bir qorxunun olmadığı dəmir kimi pak ürəyinlə düşməni məğlub edən böyük səyin üçün minnət və təşəkkürümü söyləməyi nəfsimə ən əziz borc bilirəm."16

Sakarya meydan müharibəsindən sonra 19 sentyabr 1921-ci ildə TBMM tərəfindən Mustafa Kamal Paşaya Qazi ünvanı və Marşal rütbəsi verildi. Mustafa Kamala "Qazi"lik ünvanı və "Marşal"lıq rütbəsi verildiyi gün TBMM-da etdiyi çıxışda nə cür təvazökar olduğunun çox gözəl bir nümunəsidir:



◉ İsmət paşa beş gün davam edən II İnönü döyüşündən sonra 1921-ci il 1 aprel cümə günü saat 18.30-da Metristəpədən çəkdiyi teleqramda yunanların yüzlərlə ölü verərək geri çəkildiyini bildirirdi. Şəkildə II İnönü üçün keçiriləcək tədbiri gözləyən silah salamı verən bir müfərrəzə.

*"...Qazanılan bu müvəffəqiyyət, yüksək heyətinizin iradəsi ilə güc tapan ordumuzun iradəsi sayəsində düşmən ordusunun iradəsinin qırılması surəti ilə ifadə edilmişdir. Bu səbəblə mükafatın həqiqi layiqlisi yenə ordudur."17*



◉ Böyük hücumda Kocatəpədə

## Dumlupınar Türk millətinin tarixində dönüş nöqtəsidir

26 avqust 1922-ci il səhər radələri, saat 04.30: Topçularımızın qulaqları cingildədən atışları ilə böyük hücum başladı.

26 avqust səhər saatlarında başlayan hücum 29 avqusta qədər davam etdi və çox qanlı keçdi. Nəhayət, Yunan ordusu həmin gün qaçmağa başladı. Amma Dumlupınarda mühasirəyə alındı.

30 avqust 1922-ci il axşamı saatlarında Yunan ordusunun əksəriyyəti yox edilmişdi. Əsirlər arasında Yunan ordularının komandiri general Trikopis də var idi.

Dumlupınar döyüşü yeni dövlətin tarix səhnəsinə çıxışının sənədidir. Qazi Mustafa Kamal 31 avqust 1922-ci ilin axşamı müharibə meydanında gördüyü mənzərəni belə izah edir:



◉ Böyük hücum üçün hər şey hazırdı. 25 avqust günü bütün hazırlıqlar tamamlandı. Gecə Mustafa Kamal, Fevzi və İsmət paşalar birliklərdən gələn raporları oxudular. Bir əmrlə Anadolu ilə həm İstanbul, həm də bütün dünya arasında hər cür əlaqə kəsildi.

> *"Yenidən bu döyüş meydanını gəzdiyim zaman ordumuzun qazandığı zəfərin böyüklüyü, buna qarşılıq düşmən ordusunun məruz qoyulduğu fəlakətin qorxuncluğu məni çox duyğulandırdı. O qarşıdakı silsilənin arxasındakı bütün vadilər, bütün dərələr, bütün qorunmuş və bağlanmış yerlər, buraxılmış toplarla, saysız vəsaitlərlə və bütün bu buraxılanların aralarında yığınlar meydana gətirən ölülərlə, toplanıb qərargahlarımızla göndərilməkdə olan sürü-sürü əsir karvanlar, həqiqətən bir məhşəri xatırladırdı..."*

Qazi Mustafa Kamal döyüşün nəticəsini uca Türk xalqına bu sözləri ilə elan edirdi:

> *"Böyük və əsilzadə Türk Milləti, qərb cəbhəsində 22 avqust 1922-ci ildə başlayan hücum hərəkətimiz, Afyonkarahisarı, Altıntaş, Dumlupınar arasında böyük meydan müharibəsi halında beş gün, beş gecə davam etdi.*

TBMM ordularının igidliyi şiddət və sürəti Allahın kömək etməsinə səbəb oldu. Mərhəmətsiz və qürurlu düşmən ordusunun əsas elementləri dəhşətli şəkildə yox edildi. Təşkilat və təchizat kimi gələcək və zəfərləri və adı tək millətimizin ağlından, əzəli və əbədi imanından meydana gələn ordularımızı fədakarlıqlara layiq olaraq sizə təqdim edirəm.

Ən böyük komandirindən, ən gənc üzvünə qədər ordularımıza hakim olan fikir, millətin göstərdiyi vəzifə üçün şəhid olmaqdır. Millətimizin quruluşundakı qüdrət və idealı üç il əvvəl iş yoldaşlarımla ifadə etməyə başlayaraq, dözülməz müşkülat içində davam edən mübarizələrimizin nəticələri artıq meydandadır.



◉ Böyük hücumun ikinci günündə Ankara əhalisi heç yatmadı. Ankarada və Anadoluda çıxan qəzetlərin başlıqları ümiddən dolu idi: «Qəhrəman ordumuz bütün cəbhələrdə uğurla döyüşü davam etdirir» (Hakimiyet-i Milliye), «Söz silahındır», «Müjdələrimiz! Afyonu aldıq» (Anadolu'da Yeni Gün), «Döyüş başladı. Kömək Allahdandır» (Açıksöz), «Alovlu bir sel kimi işğal olunmuş diyarlara axan ordumuz...» (Öğüt). Şəkildə 27 avqustda Ankarada namazgah deyilən ərazidə dua edən Ankaralılar.

Millətimizin rəy və idarəsinə əsaslanan hər işin nəticəsi millət üçün xeyir və salamatlıq olduğu sabit gələcəyə əmindir. Və söz verilən zəfəri ordularımızın əldə etməsi şübhəsizdir."

Böyük zəfəri əvvəl Mudanya konfransı (3 oktyabr 1922) sonra da Lozanna konfransı (20 yanvar1922) izləyirdi. 11 oktyabr 1922-ci ildə "Mudanya sülh müqaviəlsi" İsmət Paşanın başçılığındakı Türk heyəti ilə, İngiltərə (general Harrington), Fransa (general Chappy) və İtaliya (general Mobelli) nümayəndələri arasında imzalandı. Razılaşmanın imzalanmasından sonra 16 oktyabr 1922-ci ildə "New York Times" qəzeti bunları yazdı:



◉ TBMM-nin 1923-cü il 21 noyabr tarixli yığıncağında Qazi Mustafa Kamal paşaya verilməsini qərara aldığı İstiqlal medalının ön və arxa üzü

*"Kiçik və sonsuza qədər uzanırmış kimi görünən torpaq yolun sonundakı Mudanya qəsəbəsinə sülh müqaviəsini Türk nümayəndəsi İsmət Paşaya diktə etdirməyə gələn müttəfiq qüvvələrinin nümayəndələri, İsmət Paşa tərəfindən özlərinə diktə etdirilən razılaşmanı imzaladıqdan sonra sahildə onları gözləyən gəmilərinə Türk ordusunun çaldığı hərəkətli bir marş müşayiətində minirdilər."18*

## Mustafa Kamal cəsur əsgər idi

Mustafa Kamal cəsur və çevik idi; məqsədəuyğun qərarlar alan və heç bir çətinlik qarşısında qorxmayan, son dərəcə qərarlı əsgər idi. Döyüş meydanındakı davranışı və danışıqları onun bu üstün xüsusiyyətlərini sübut edir. Bu güclü xarakteri onunla birlikdə döyüşən və onu yaxından tanıyan insanlara görə çox böyük təsir meydana gətirirdi. Üstəlik, onunla tanış olan xarici siyasətçi və jurnalistlər ona heyran qalırdılar.

Onun cəsarətini izah etmək üçün minlərlə xatirə anlatmaq və minlərlə nümunə vermək mümkündür. Ancaq aşağıda göstərəcəyimiz bir neçə nümunə bu cəsarətin ölçülərini anlamaq üçün kifayətdir:

*"Mustafa Kamal həmişə atəş altında gəzirdi. Əsgərlərin məruz qaldığı hər cür təhlükəni paylaşdığı və ətrafında yüzlərlə insan öldüyü halda, ona bir şey olmurdu. Bir dəfə yeni qazılan sipərin qarşısında oturarkən bir İngilis topu üstlərinə atəş açdı. Top mənzilini tapmağa çalışarkən güllələr də getdikcə yaxınlaşırdı. Vurulması riyazi qətilik ifadə edirdi. Yanındakılar sipərə girməsi üçün yalvarmağa başladılar. O; "Xeyr", deyə etiraz edirdi, "Sipərdə gizlənsəm, əsgərlərimə pis nümunə olaram..." Geridə, sipərdə olanlar qorxu və heyrətlə onu seyr edərkən, o siqaretini yandırmış, heç nə yoxmuş kimi sakit-sakit danışırdı. Düşmən topçusu mənzili bir az daha yaxınlaşdırdı. Partlayan qəlpə yağışı altında üstü, başı toz içində qaldığı halda, Mustafa Kamala bir şey olmamışdı."19*



◉ Mustafa Kamal cəsur, hücumçu, düzgün qərarlar alan və heç bir çətinlik qarşısında yılmayan, son dərəcə qərarlı bir əsgər idi.



Atatürk'ün Aldığı Madalyalar

| Madalyanın Adı | İhdas Eden | Tarihi |
|---|---|---|
| 5.Rütbeden Mecidi Nişanı | Abdülmecid | 25.12.1906 |
| 2.Rütbeden Mescidi Nişanı | Abdülmecid | 12.12.1916 |
| 1.Rütbeden Mescidi Nişanı | Abdülmecid | 16.12.1917 |
| 4.Rütbeden Osmani Nişanı | Abdülaziz | 06.11.1912 |
| 3.Rütbeden Osmani Nişanı | Abdülaziz | 01.02.1915 |
| 2.Rütbeden Osmani Nişanı | Abdülaziz | 01.02.1916 |
| İmtiyaz Madalyası | 2.Abdülhamid | 30.04.1915 |
| İmtiyaz Madalyası | 2.Abdülhamid | 23.09.1917 |
| Harp Madalyası | 5.Mehmed Reşad | 11.05.1918 |
| Liyakat Madalyası | 2.Abdülhamid | 01.09.1915 |
| Liyakat Madalyası | 2.Abdülhamid | 17.01.1916 |
| İstiklal Madalyası | TBMM | 21.11.1923 |

Atatürk'ün Aldığı Madalyonlar

| Adı ve Veriliş Nedeni | Tarihi |
|---|---|
| 1. Ordu Manevra Hatırası | 20.08.1937 |
| 2. Ordu Manevra Hatırası | 13.10.1937 |
| Ankara'ya Gelişinin 18. Yıl Hatırası | 27.12.1937 |
| Müttefik Ajanslar 4. Kongresi | 1929 |
| Abide-i Zafer Hatırası | 1927 |
| İran Şahı'nın Türkiye'yi Ziyaretleri Hatırası | 1934 |

## QEYDLƏR


1. "Görsel Bilgiler Ansiklobedisi", 2-ci cild, səh. 940.

2. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 131

3. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 136

4. "Atatürk Bir Çağ'ın Açılışı"- hərbi prof. dr. Sadi Irmak, səh. 384

5. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 135)

6. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 137

7. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 1374

8. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 136

9. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad İmer, Remzi nəşriyyat, 1989, səh. 134

10. "Atatürk Bir Çağ'ın Açılışı", hərbi prof. dr. Sadi Irmak, səh. 383

11. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad Irmak, Remzi nəşriyyat, 1989, səh. 138

12. "Atatürk'ten Seçme Sözler", toplayan: Cihad Irmak, Remzi nəşriyyat, 1989, səh. 138

13. http://home.vicnet.net.au/~ttav/ataturk/yasami-2.htm

14. www.demokrasivakfi.org

15. www.demokrasivakfi.org

16. www.demokrasivakfi.org

17. www.demokrasivakfi.org

18. www.demokrasivakfi.com

19. Adnan Nur Baykal, “Mustafa Kemal Atatürk’ün Liderlik Sırları”, Sistem nəşriyyat, İstanbul, 1999, səh. 31

V FƏSİL

# 5 Atatürkün diplomatik dahiliyi

Hərbi dahiliyi ilə yanaşı Mustafa Kamal Atatürkün bir başqa əhəmiyyətli xüsusiyyəti dünya siyasətini bilən lider olması idi. Dünya üzərindəki siyasi hadisələri çox yaxından izləyir və hər mövzuda çox məqsədəuyğun təhlillər edirdi. Siyasi mövzulardakı uzaqgörənliyi, bu irəli fikirliliyi bütün açıqlığı ilə ortaya qoyur. Vəfatının üzərindən 60 ildən çox zaman keçməsinə baxmayaraq, irəli fikirlərinin bir-bir reallaşması, bu baxımdan çox əhəmiyyətlidir. Atatürk ilə amerikan generalı Mac Arthur arasında keçən bir görüş bu mövzuya verilə biləcək ən yaxşı nümunələrdən biridir.

II dünya müharibəsinin qəhrəmanı və Yaponiya fatehi general Mac Arthur 1932-ci ildə Türkiyəyə ziyarət etmişdi. Bu vəsilə ilə Türkiyənin lideri və islahatçısı Atatürk ilə tanış olma fürsəti də tapmışdı. İki böyük əsgər qarşılaşdıqları anda bir-birlərinə qarşı böyük yaxınlıq duydular. Səmimi atmosfer və səmimiyyət içində davam edən bu uyğun görüşmə əsnasında; dünyadakı hadisələrə toxundular; həm ümid, həm qorxu ilə gələcək haqqındakı düşüncələrini ifadə etdilər.

Atatürk bu görüşdə Mac Arthurun Avropanın vəziyyəti mövzusundakı sualını belə cavablandırmışdı:

> *“Versal müqaviləsi I Dünya Müharibəsinin səbəblərindən heç birini qaldırmamışdır. Əksinə, dünənin başlıca düşmənləri arasındakı uçurumu tamamilə dərinləşdirmişdir. Qaliblər məğlub olanlara sülh şərtlərini zorla təsdiqlədərkən bu ölkələrin etnik, geosiyasi və iqtisadi xüsusiyyətlərini görməmiş, yalnız düşmənlik duyğuları ilə cəhd ediblər. Beləliklə, bu gün içində olduğumuz sülh dövrü yalnız “silahları buraxma” olmuşdur. Əgər siz amerikalılar Avropa işləri ilə məşğul olmaqdan daşınmasaydınız, bu “silahları buraxma” dövrü uzanar və bir gün sülh əldə edilə bilərdi.*

Məncə, dünən olduğu kimi, sabah da Avropanın gələcəyi, Almaniyanın davranışlarına bağlı görünür. Böyük dinamizmə sahib olan 70 milyonluq çalışqan və intizamlı bir millət milli ehtiraslarını qamçılayacaq bir siyasi axına özlərini qapdırsa, Versal müqaviləsini ortadan qaldıracaq.”

Atatürk “Almaniyanın çox qısa müddətdə, İngiltərə və Rusiya xaricində bütün Avropanı suverenliyi altına alacaq gücdə ordu qura biləcəyini, döyüşün ən gec 1940-1945-ci illərdə partlayacağını, Fransanın güclü ordu qurma qabiliyyətini itirdiyini və İngiltərənin adalarını

qorumaq üçün Fransaya güvənə bilməyəcəyini"1 söyləmiş; bu təxminlər, sonrakı illərdə eynilə reallaşmışdır.

Atatürkün İtaliya mövzusundakı fikri isə belədir :

*"İtaliya Mussolininin rəhbərliyində unudulmayacaq mərhələlər keçmişdir. Əgər Mussolini gələcəkdəki döyüşün xaricində qala bilmək müvəffəqiyyətini göstərə bilsə, sülh masasına güclü dövlət olaraq otura bilər. Amma qorxaram ki, İtalyanın bugünkü lideri Sezar rolunu oynamaqdan əl çəkə bilməyəcək. Bu da İtalyanın hərbi gücü olmadığını dərhal ortaya çıxaracaq."*



◉ Atatürkün II Dünya müharibəsi ilə bağlı proqnozları sonrakı illərdə eynilə gerçəkləşdi.

Atatürkün İtaliya mövzusundakı bu təxmini də doğru çıxmış, Mussolininin ordusunun heç də güclü olmadığı II Dünya Müharibəsinin ilk illərində açıqca ortaya çıxmışdır.

Atatürk general MacArthur ilə etdiyi görüşdə Amerikanın keçən döyüşdə olduğu kimi tərəfsiz qala bilməyəcəyini və döyüşə qatılması ilə Almaniyanın məğlub olacağını da ifadə etmiş; Sovet və Yapon təhlükələrinə diqqət çəkərək, sözünə belə davam etmişdir:

*"Avropada çıxacaq müharibəni qazanan nə İngiltərə, nə Fransa, nə də Almaniya olacaq. Müharibəni bolşevik Rusiya qazanacaq. Rusiyanın yaxın qonşusu və onlarla ən çox döyüşmüş bir xalq olaraq biz türklər oradakı hadisələri yaxından izləyirik. Təhlükəni bütün çılpaqlığı ilə görürük. Oyanan şərq xalqlarının duyğularını çox gözəl istifadə edən, onları oxşayan və kinlərini dilə gətirməsini bilən bolşeviklər tək Avropaya deyil, Asiyaya da göz dağı verən bir güc halına gəlir.*



◉ Mustafa Kamal səkkiz ildən sonra ilk dəfə 1927-ci il 1 iyulda İstanbula gəldi. Müsavət illərində qoyub getdiyi şəhərə daxil olarkən Sarayburnunda sahillərə və qayıqlara doluşmuş minlərlə İstanbullu onu salamlayarkən belə deyirdi: «Səkkiz ildən sonra qəlbim rahat, gülən və daha da gözəlləşən İstanbula gəldim...» Onu Dolmabağça sarayının pilləkanlarında bacısı Məqbulə xanım qarşılayır.

Avropa dövlət adamları başlıca anlaşılmazlıq mövzularını hər cür eqoistlikdən uzaq, yalnız ümumi mənfəətlər cəhətdən ələ almazlarsa, qorxuram ki, fəlakətin qarşısı alına bilməyəcək. Avropanın problemi artıq İngiltərə, Fransa və Almaniya arasındakı anlaşılmazlıq deyil.

Bu gün Avropanın şərqində bütün sivilizasiyanı, üstəlik insanlığı təhdid edən yeni bir güc meydana çıxmışdır. Bütün maddi və mənəvi imkanlarını toplu şəkildə, bir dünya islahatı üçün səfərbər edən bu qorxunc güc, üstəlik Avropa və amerikalıların bilmədikləri yeni siyasət üsulları tətbiq edir və əleyhdarlarının ən kiçik səhvlərindən belə faydalanır. Qənaətimlə, Avropada çıxacaq bir hərb, dərhal Asiyaya sıçrayacaq və Yaponiya, Asiya üzərindəki arzuları üçün lazımsız qəhrəmanlıqlara cəhd edəcək."2



◉ Mussolini

II dünya müharibəsi Atatürkün 1932-ci ildəki bu analizinə görə inkişaf etmiş; Avropadakı müharibənin ən böyük qalibi, Almaniyanın məğlubiyyətində böyük pay sahibi olan Sovet Rusiyası olmuşdur. Sovet Rusiyası müharibənin ardından bütün Şərqi Avropa və Orta Asiya üzərində hakimiyyət qurmuşdur. Yaponiya isə Atatürkün nəzərdə tutduğu kimi "Asiya üzərindəki arzuları üçün lazımsız qəhrəmanlıqlara cəhd etmiş", Çini işğal etmiş, ardından Sakit okeana yayılmağa çalışmışdır.

Yuxarıda vurğuladığımız bu sözləri, Türk millətinə müasir Türkiyə cümhuriyyətini hədiyyə edən Mustafa Kamal Atatürkün dünyadakı siyasi hadisələri çox yaxından izləyən və məqsədəuyğun təhlillər edə bilən böyük bir dövlət adamı olduğunu ortaya qoyur.

Atatürk Almaniyanın və İtalyanın II Dünya Müharibəsindəki rolunu Rusiyanın qazanacağı gücü doğru bir şəkildə təxmin etmiş; tədbir alınmazsa, müharibənin qaçınılmaz olacağını ortaya qoymuşdur.

Atatürkün Türkiyəyə və dünyaya bağlı analizləri həmişə doğru çıxmışdır. "İnqilab tarixi və sosiologiya baxımından Atatürk" adlı əsərdə Atatürkün bu istiqaməti belə izah edilir:



◉ Time jurnalının 1923-cü il 24 mart tarixli sayının üz qabığı

*"...Birinci dünya müharibəsini itirəcəyimiz, ikinci dünya müharibəsinin çıxacağı kral Edwardın madam Simpson üçün taxtından ayrılacağı, Mussolininin xalqı tərəfindən linç ediləcəyi, ikinci dünya müharibəsində Rumıniyanın taleyi Hatay mövzusunda Fransanın tutumu həmişə doğru təxmin etdiyi hadisələrdir... Xüsusilə, beynəlxalq əlaqələrdə diqqətə çarpan bu irəli fikirlilik 1935-ci ildə Gladys Bakerin dilindən çıxan bu əhvalatda yaxşıca vurğulanar:*

*"Müharibə olacağı təqdirdə Amerika tərəfsizlik siyasətini qoruya biləcəkmi?" "İmkan yoxdur" dedi. "İmkan yoxdur. Əgər müharibə baş verərsə, Amerikanın millətlər birliyində işğal etdiyi yüksək vəziyyəti hər halda təsirli olacaq. Coğrafi vəziyyətləri nə olursa olsun, millətlər bir-birlərinə bir çox əlaqələrlə bağlıdırlar."3*

Atatürk Qurtuluş savaşı əsnasında etdiyi təxminlərlə də, irəli fikirliliyini və üstün hərbi məlumatını ortaya qoyurdu. Yunis Nadinin söylədiyi aşağıdakı hadisə onun düşmənini nə qədər yaxşı tanıdığını bizə izah edir:

*"Sakarya müharibəsindən sonra idi. Erkan-ı hərb zabiti cəbhədən alınan məlumatı Ali Baş Komandan Qazi Mustafa Kamala oxuyurdu. Məlumat bəyanında cəbhə komandirlərindən birinin Seyit Qazi və ya Dökərin bilmirəm nə qədər Şərq və ya Şimalında bir düşmən dəstəsi görüldüyündən bəhs edirdi. Paşa qaşqabağını tökərək "Xeyr, orada düşmən dəstəsi ola bilməz və yoxdur. Yazın, yaxşı baxsınlar!" dedi. Erkanı hərb zabiti getdikdən sonra orada iki saat daha qaldı. Biz günorta yeməyi yeyərkən zabit təkrar gəldi. "Xəbər aldım, həqiqətən orada düşmən dəstəsi yox imiş, əfəndim" dedi. Cəbhədəki komandir gözlə görülən bir düşmən dəstəsindən bəhs edərkən, Qazi Paşa altı yüz kilometr uzaqdan orada düşmən dəstəsi olmadığını görür və xəbərdarlıq edirdi."4*

## Atatürkün demokrat şəxsiyyəti

Atatürkün diplomatik dahiliyinin qaynağı həmişə demokrat bir insan olmasından gəlirdi. Həyatını həmişə xalqın içində keçirməsi buna ən gözəl nümunədir. Üstəlik, Atatürk açıq danışmağı, sərbəst müzakirəni sevirdi.

Atatürkün böyük üstünlüklərindən biri də dövlət və islahat işlərini yoldaşları ilə görüşüb müzakirə etmək idi. Atatürk bu müzakirələrdən çox həzz duyardı. O, xariqüladə zəkasına, böyük görüş gücünə, hadisələri təhlil etmə qabiliyyətinə güvənməklə yanaşı; başqalarının fikir və mütaliələrinə də qiymət verərdi. Müşavirə etməyi bilməsi və müşavirələr sonunda öz bənzərsiz məntiqini hadisələrə hakim etməsi, onun ən əhəmiyyətli xüsusiyyətlərindən idi.5

Atatürk heç vaxt diktator rolunu mənimsəməmişdir. Həqiqi tənqiddən xoşu gəlirdi. Bəzən süfrəsi böyük müzakirələrə səhnə olmuşdur. Hərçənd, təlqin etmək istədiyi fikirlərdə daim müvəffəq olmuşdur; lakin bu fikirlər həmsöhbətləri ilə, yəni təlqin havası vermədən icra edilmişdi.6

Atatürk Məclisə qarşı da diktator rolunu mənimsəməmiş, inandırma metodu ilə Məclisdən müsbət qərarlar ala bilmək üçün çox səy göstərmişdir.7

## Atatürkün idarəetmə və liderlik xüsusiyyətləri



Atatürkün diplomatiya sahəsində müvəffəqiyyətli olmasını təmin edən ən əhəmiyyətli faktor üstün liderlik xüsusiyyətlərinə sahib olmasıdır. Adnan Nur Baykal “M. Kamal Atatürkün liderlik sirləri” adlı kitabında bu xüsusiyyətləri belə sıralamışdır;

1. Açıq olmaq

2. Adam hazırlamaq

3. Məlumat və təcrübə sahibi olmaq

4. Məlumat toplama qabiliyyəti

5. Məlumatlandırma vərdişi

6. Özünü bilmək

7. Cəsur olmaq

8. Ətrafa dair məlumat sahib olmaq

9. Dayanıqlı olmaq

10. Qarşısındakını dinləmə vərdişi

11. Əmir verməyə icazə verməmək

12. Rahat ola bilmək

13. Zarafat edə bilmək
14. Mücərrəd düşünə bilmə qabiliyyəti
15. Fədakar olmaq
16. Realist olmaq
17. Vəzifəyə namizəd olmaq
18. Etibarlı olmaq
19. Özünə güvənmək
20. Hazırlıqlı olmaq
21. Hədəfə yönəlik qərarlı olmaq
22. Hesab insanı olmaq
23. İnandırma qabiliyyəti
24. Təşəbbüsdən istifadə etmək
25. İnsaf sərrafı olmaq
26. İnsana dəyər vermək
27. Etdiyi işə inanmaq
28. İctimai fikir yaratma qabiliyyəti
29. Tez qərar verə bilmə qabiliyyəti
30. Qərar vermə qabiliyyəti
31. Danışmaq və yazmaq qabiliyyəti
32. Ləyaqət aşiqi olmaq
33. Mükəmməlçi olmaq
34. Dözümlü olmaq
35. Təşəbbüskar olmaq
36. Təvazökar olmaq
37. Öyrənmə əzminə sahib olmaq
38. Qabaqcıl olmaq
39. Təşkilatlandırma qabiliyyəti
40. Prinsip sahibi olmaq
41. Problem həll edən olmaq

42. Proqramlı olmaq

43. Qeyri-adi olmaq

44. Məsuliyyət alma vərdişi

45. Strategiya şüuruna sahib olmaq

46. Olacaqları təxmin edə bilmək

47. Vizion sahibi olmaq

48. İdarə etmə qabiliyyəti

49. Zaman mövhumuna sahib olmaq

50. Zamanlama qabiliyyəti

## Atatürkün kral, padişah və dövlət adamları ilə dostluğu

Milli mübarizə tariximizin silinməz simalarından olan və 1920-ci ildən Atatürkün ölümünə qədər Qaziantəpi təmsil edən qiymətli şəxsiyyət Kılıç Ali; şəxsi həyatı da daxil olmaqla Atatürk haqqında bir çox məlumat və xatirəyə sahib idi. Onun ağzından Atatürkün diplomatik əlaqələrinə dair bir neçə nümunə verə bilərik;

> *“Atatürkdə vəzifə eşqi hər şeydən üstün idi. Mövzu vəzifə ifası olarkən onun gözündə millət vəkili, nazirlik, dövlət başçılığı, bunların hamısı boş şeylər idi. Boş düşüncələrə qiymət və əhəmiyyət verməzdilər...*

Heç unutmuram,

Hatay məsələsi ətrafında Cenevrədə müzakirələr olurdu. Hatayda ərəb dilinin rəsmi dil olması mövzusu üzərində dayanırlar, bunda təkid edirdilər. O zamanki hökumət isə anlaşılmazlıq üzündən fransızlarla hər hansı ola biləcək silahlı ixtilaf vəziyyətinin önünə keçmək kimi bəzi vahiməli düşüncələrlə təklif edilən bu maddəni az qala qəbul etməyə meyllənirdi.

Atatürk bunu öyrənincə və gec vaxt olsa da, İsmət Paşanın köşkündə bu mövzu üzərində Heyət-i Vəkilə müzakirələrinin cərəyan etdiyini xəbər alınca əsəbiləşdi.

Dolmabahçe sarayındaydıq. Atatürk bu ərəbcə məsələsini eşidən kimi süfrəni dağıtdı. Qonaqlar getdikdən sonra əmr verdi. Telefonla Ankarada İsmət Paşanın köşkünü tapdıq. Atatürkün əmrlərini Saracoğluna təkrarlayırdım. Atatürk hiddətlə:

- İskəndərin bayrağının harada olduğunu da bilməyən fransızlar, xüsusilə başlarında alman məngənəsi durarkən Hatay üçün müharibə edə bilməzlər. “Mən Hatayı alacağam” deyə oradakı türk uşaqlarını ərəb dilində təhsil aldırmaq üçün Şam mədrəsələrinə göndərəcəyik? Bu nə zehniyyətdir?

Deyə hökumətə sərt xəbərdar edərək və əmrlər verərək təklif edilən maddəni rədd etmiş və fransızlara istədiyini etdirmişdi.

Atatürkü görüb, onunla görüşüb də ona heyran olmamaq mümkündür? O cəzb edər, razı salar, təlqin edərdi. Onun üçün nə qədər krallar, padişahlar, əmirlər, dövlət adamları ziyarətinə gəlmişdilər, hamısı da heyranlıq hissləri içində yanından ayrılmışdılar.

İngilis kralı gəldi. Bütün mərasim qaydaları bir tərəfə buraxaraq onunla görüşdü. Atatürklə madam Simpsonu tanış etdi. İkisi də heyranlıq və dostluq bağı ilə ayrılıb getdilər.

Axşam yeməyi kral və kraliça ilə birlikdə Dolmabahçedə çox xüsusi mahiyyətdə baş tutdu. Bu xüsusi yeməkdə mən də Nuru Conker ilə orada idim. Kral Atatürkə İsmət Paşa ilə harada dost olduğunu soruşdu. Atatürk;

- Müharibə meydanında!

Deyə cavab verdi. Kral Atatürkə o dərəcə heyran olmuşdu ki, dərhal Atatürkün iki əlini onun iki əlinin arasına alaraq;

- Mənimlə nə vaxt yoldaş olacaqsınız?

Deyə səmimi və sadəlövh sual soruşdu. Atatürk ciddi və ağır bir əda ilə:







- Yoldaşlığımız hələ indi başlamışdır. Bunun davamına və inkişaf etməsinə çalışacağıq, cavabını verdi."9

## Atatürkün xarici siyasəti

Atatürkün xarici siyasətinə toxunmaq onu anlamaq üçün çox əhəmiyyətlidir. Çünki onun Milli mübarizəni başlatdığı günlərdə möhtəşəm keçmişə sahib bir dövlət yıxılır və yeni dövlətin ilk addımları atılmağa başlanırdı. Atatürkün bu dövrdə xarici siyasətdə atdığı hər addım, yeni dövlətin gələcəyi baxımından çox əhəmiyyətli idi.

Atatürkün xarici siyasətdə məqsədləri belədir;

### Milli dövlət qurmaq

Milli mübarizəni başlatdığı sırada Mustafa Kamalın ilk məqsədi ölkənin düşmən işğalından qurtarılması və milli sərhədlər daxilində Türk dövlətinin qurulması idi. Mustafa Kamal bu fikirlərini əvvəl yaxın yoldaşlarına qəbul etdirmişdir. Daha sonra Misak-ı Milli ilə başlayan, Ərzurum və Sivas konqresində genişlədilən və son olaraq da İstanbul Məclis-i

Mebusan tərəfindən qəbul edilən bu çox əhəmiyyətli sənəd Mondros sülh müqaviləsi ilə bütün dünyaya bildirilmişdir.

## Tam müstəqillik

Osmanlı dövləti son dövrlərində xarici müdaxilələr, xarici dövlətlərə verilən imtiyazlar və kapitulyasiyalara görə müstəqilliyini az qala itirmiş vəziyyətdə idi. Atatürkün hədəfi isə asılılıqları tamamilə ortadan qaldırıb tam müstəqil bir ölkəyə qovuşmaq idi. Onsuz da Milli mübarizənin çıxış nöqtəsi də bu idi. Edilən bütün müqavilələrdə, bütün görüşlərdə, Atatürkün qoyduğu şərtlərin əsas hissəsini bu mövzu təşkil edirdi.

## Qərbləşmək



◉ Atatürk ingilis kralı Edvardla

Üzünü qərbə çevirmiş Türk xarici siyasəti və müasirləşmə səyləri Atatürk ilə başlamışdır. Atatürk Türkiyənin mədəni dünyadakı yerini ala bilməsi üçün qərbləşməli olduğuna inanmış, türkləri bütün mədəni millətlərin dostu olaraq təsvir etmişdir. Xarici dövlətlərin bizə zərər verməmək, azadlığımızı məhdudlaşdırmağa çalışmama şərti ilə ölkəmizdə dilədikləri kimi davrana biləcəklərini ifadə etmişdir.

Yeni Türkiyəni "Avropa Türkiyəsi" adlandırmışdır.

Bunu xatırlatmaqda fayda vardır: Atatürkçü düşüncədə qərbliləşmək heç bir zaman kor-koranə bir qərb təqlidçiliyi olaraq təyin olunmamışdır. Məsələn, başqa bir ölkə yerinə İsveçrə Mədəni Qanununun nümunə götürülməsi, bu sənədin Türkiyəyə xas şərtlərə daha çox uyğun gəlməsindədir.

## Məzlum millətlərə nümunə olmaq

Atatürk tam müstəqil Türk dövləti qurmaqla yanaşı Milli mübarizə hərəkatı ilə başqa məzlum millətlərə də qurtuluş hərəkətləri üçün nümunə olmaq istəyirdi. Bunun ən açıq ifadəsini dövlət adamlarının onunla əlaqədar sözlərində görə bilərik. Məsələn, Tunisin dövlət başçısı Həbib Burgiba Atatürk ilə əlaqədar olaraq bunları söyləmişdir:

> *“Mustafa Kamalın şəxsiyyəti xalq kütlələrinin qiyamı və xalq mübarizələrinin ölçüsü olmuşdur. Bu mübarizələr onun ölümündən sonra genişləmişdir. Şərq və qərb blokları arasındakı üçüncü dünyaya da sirayət etmiş və onu müstəmləkə təzyiqindən qurtarmışdır”10*

Atatürkün xarici siyasətinin qanunlarını belə sıralaya bilərik;

## 1) Realizm

Atatürk xarici siyasətinin qanunlarını təyin edərkən, həm ölkənin vəziyyətini, həm də digər millətlərin içində olduğu vəziyyəti həqiqi dünyagörüşü ilə qiymətləndirmişdir. Məsələn, Milli mübarizə dövründə Sovet İttifaqı ilə bir çox mövzuda ortaq siyasət güdülmüş; ancaq Rus dostluğu ilə kommunizm arasında bir bağ qurulmamış, kommunizmin həqiqi üzü görülə bilmişdir.

## 2) Hüquqa bağlılıq

1936-cı ildə Montreux boğazlar müqaviləsinin imzalanması müddətində izlənilən yol Atatürk dövründə Türkiyənin beynəlxalq hüquqa bağlılığını göstərən əhəmiyyətli bir nümunədir.

Lozanna müqaviləsindən sonra hakimiyyətimiz məhdudlaşdırılaraq bizə buraxılan boğazlar, II Dünya Müharibəsi davam edən illərdə Rusiya və İngiltərə arasında müvəffəqiyyətli bir tarazlıq siyasəti izlənilməsi ilə Türkiyənin əlinə keçmişdi. Bu müvəffəqiyyəti hüquqi mübarizə ilə əldə etmək Atatürkün sülhsevər tərəfini də ortaya qoymuşdur.

## 3) “Yurdda sülh, dünyada sülh”

> *“Yurdda sülh, dünyada sülh”: Atatürkün xarici siyasəti olanda ən çox zikr edilən sözlər bunlar olmuşdur. Atatürk istər Milli mübarizə dövründə, istərsə sonrakı illərdə ortaya çıxan hər problemi ilk mərhələdə sülhsevər yollarla həll etməyə çalışmışdır. Ancaq bunu da ifadə etmək lazımdır ki, Atatürkün sülhsevərliyi, güzəştə getmək və ya sakitləşdirmək deyildi. Atatürkün həqiqi tərəfi belə bir siyasət izlənilməsinin qarşısını almışdı.*

Atatürk həmişə xarici siyasətini xalqa əsaslandırmış, xalqla birlikdə icra etmişdir. Milli mübarizəni başlatmaq üçün çox sevdiyi əsgərlikdən ayrılaraq Anadoluya getməsi, öz deyimi ilə

"fərdi millət" olaraq bu mübarizəni davam etdirməsi bunun ən əhəmiyyətli dəlillərindəndir.

Atatürkün xarici siyasətdə nə qədər müvəffəqiyyətli olduğunu ən gözəl şəkildə əks etdirən yazılardan biri "Neue Zürcher Zeitun" qəzetinin 22 noyabr 1938-ci il tarixli nüsxəsində nümayiş olunmuşdur:

> *"Atatürkün cənazə mərasimi, onun son zəfəri oldu. Tabutunun qarşısında əleyhdarlarının hamısı səssiz qaldı. Türk və alman əsgərləri tabutunun arxasında bir sırada getdilər; bir başqa sırada Stalin və Hitlerin nümayəndələri yan-yana idilər; həm Valencia (Respublikaçılar), həm də General Franco çələng göndərmişdilər. Tabutunun qarşısında faşistlər, demokratlar, kommunistlər əyildilər. Türk xalqı hər təbəqəsinin üzvləri ilə yalvardı və ağladı. Zənginlə kasıb, yüksəklə alçaqlar arasında heç bir fərq yox idi. Ankaranın bu gün yaşadığı dünyanın heç bir zaman görmədiyi bir mərasim idi."*

## QEYDLƏR


1. Şahin Arıcak, Armada jurnalı, 1995;

2. A.k.ə.

3. Emre Kongar, "Devrim Tarihi ve Toplumbilim Açısından Atatürk", 4-cü nəşr, Remzi nəşriyyat, İstanbul, 1999, səh. 141-142

4. Emre Kongar, "Devrim Tarihi ve Toplumbilim Açısından Atatürk", 4-cü nəşr, Remzi nəşriyyat, İstanbul, 1999, səh. 140

5. "Atatürk'ün Hususiyetleri", səh. 73

6. "Atatürk Bir Çağ'ın Açılışı", akademik Sadi Irmak, səh. 18

7. "Atatürk Bir Çağ'ın Açılışı", akademik Sadi Irmak, səh. 112

8. "Atatürk Bir Çağ'ın Açılışı", akademik Sadi Irmak, səh. 33

9. Kılıç Ali, "Atatürk'ün Hususiyetleri", səh. 123

10. "Cumhuriyet" qəzeti, 26 mart 1965, nəql edən: Selahəddin Çiller, səh. 105

VI FƏSİL

# 6 Atatürkün uzaqgörənliyi

Atatürkün ən əhəmiyyətli xüsusiyyətlərindən biri onun uzaqgörənliyidir. Müvəffəqiyyətli komandir və dövlət adamı olaraq gələcəyi görmə xüsusiyyətindən istifadə edən Atatürk, o dövrdə bir çox adamın fərqində olmadığı bəzi həqiqiləri sezmiş, hədəflərini və tədbirlərini bunlara görə yaratmışdır. "Yolunda gedən bir yolçunun tək üfüqü görməsi yetərli deyil. Şübhəsiz, üfüqün kənarını da görməli və bilməlidir" sözü; onun uzaqgörənliliyi bir lider olma xüsusiyyətini layiqi ilə daşıdığının bir göstəricisidir. Onun bu xüsusiyyəti bir çox xarici dövlət adamının da təqdirini qazanmış, tarix boyunca adından şərəflə danışılmasını təmin etmişdir.

ABŞ-ın sabiq dövlət başçısı John F. Kennedyin Atatürk üçün söylədiyi bu sözlər diqqət çəkicidir:

> *"Atatürk adı insana bu əsrin böyük insanlarından birinin tarixi müvəffəqiyyətlərini, Türk millətinə ilham verən öndərliyini, müasir dünyanı anlayışındakı uzaqgörənliliyi və bir hərbi öndər olaraq qüdrət və cəsarətini xatırladır. Şübhəsiz ki, Türkiyə cümhuriyyətinin doğuşu və o zamandan bəri Atatürkün və Türkiyənin girdiyi dərin və geniş islahatlar qədər, bir millətin özünə olan etibarını daha müvəffəqiyyət ilə ifadə edən bir başqa nümunə göstərilə bilməz."1*

## Türk Millətinin qurtuluşunu təmin etməsi üçün intuisiya və fəaliyyətləri

Çanaqqala müharibəsinin sonunda polkovnik olan böyük öndərin hücum gücünü itirən düşmənin çəkilmə niyyətində olduğunu kəşf etməsi və bütün cəbhədə son və qəti hücum edilməsini istəməsi bu müharibənin qazanmasında çox əhəmiyyətli faktordur. Bu və bunun kimi bir çox nümunə milli mübarizə dövründə Atatürkün uzaqgörənliyi ilə aldığı qərarların vacib əhəmiyyət daşıdığını göstərir. Bu qərarlar sayəsində Türk milləti Atatürkün öndərliyində böyük zəfərlər qazanmışdır.

Atatürkün uzaqgörənliyi yalnız milli mübarizə dövründə yaşananlardan deyil, mübarizənin əvvəlində və sonrasında reallaşan hadisələrdən də rahatlıqla aydın ola bilər.

Atatürk birinci dünya müharibəsi ilə əlaqədar intuisiyası ilə müharibənin əleyhimizə sona çatacağını təxmin etmiş, buna görə də, Türk torpaqlarının qurtuluşu üçün alınacaq tədbirləri

düşünmüşdür. O dövrdə Atatürk, Suriya cəbhəsində yeddinci ordu komandiridir. Antəpə getməkdə olan Əli Cenani bəyə: "...Hazırlaşın. Milli güc yaradın, özünüzü müdafiə edin, mən istədiyiniz silahı verərəm" deyərək, alınacaq tədbirləri ifadə etmişdir.

Atatürkün uzaqgörənliliyinin bir başqa nümunəsi isə ikinci dünya müharibəsinin olacağı istiqamətindəki şərhləridir. Atatürk 1932-ci ildə məşhur amerikan generalı Mac Arthur ilə etdiyi görüşdə; dünyanın, xüsusilə də Avropa dövlətlərinin hər an bir müharibənin içinə girə biləcəyini ifadə edərkən, "almanlar özlərini siyasi axına qapdırsalar, 1940-1945-ci illər arasında döyüşəcəklər. Bu döyüş çox qanlı olacaq, ancaq Amerika müdaxilə etsə bitər, bu döyüşün əsas qalibi isə Rusiya olacaq" deyərək fikrini bildirmişdir.

Söylədiklərinin bir-bir reallaşması, Atatürkün nə qədər yaxşı lider olduğunun göstəricisidir. Çünki o, yalnız öz ölkəsinin deyil, bütün ölkələrin siyasi və hərbi vəziyyətini analiz edərək bu nəticələrə gəlmişdi; uzaqgörən olmağın bir lider və bir komandir üçün nə qədər əhəmiyyətli xüsusiyyət olduğunu bizə göstərmişdir. Bu görüşdəki digər danışıqlar da diqqət çəkicidir:

> *"...Fransızlar artıq güclü ordu qurmaq qabiliyyətindən məhrumdurlar. İngilislər bundan sonra adalarının müdafiəsi üçün fransızlara güvənə bilməzlər. İtalyanlar müharibədən kənar qala bilsələr, müharibədən sonra sülh əhəmiyyətli rol oynaya bilərlər. Amma Musollininin ehtirasına görə bunu edə bilməyəcəklər. Beləliklə, almanlar İngiltərə və Rusiyadan başqa bütün Avropanı işğal edəcəklər."2*

## Gənc Cümhuriyyətin qarşılaşacağı problemlər üçün əvvəldən tədbirini alması

Atatürk uzaqgörənliyi ilə Türkiyənin gələcəkdə qarşılaşa biləcəyi problemləri görmüş, bu mövzuda Türk millətinə xəbərdarlıq etmişdir. Bunun ən gözəl nümunəsi gəncliyə səsləndiyi sözlərində gizlidir. O, "Yetişəcək uşaqlarımıza və gənclərimizə görəcəkləri təhsilin hüdudu nə olursa olsun, əvvəlcə, hər şeydən əvvəl Türkiyənin gələcəyinə, öz mənliyinə düşmən olan bütün ünsürlərlə mübarizə aparmağın əhəmiyyəti öyrədilməlidir."3 deyərək, müstəqilliyimizə göz dikənlərlə mübarizəyə girməkdən çəkinməli olduğunu vurğulamışdır. Atatürk bu mübarizədə Türk gəncliyinin nələrə diqqət yetirməli olduğunu bu sözləri ilə açıqlamışdır:

> *"Bir gün İstiqlal və Cümhuriyyəti müdafiə etmək məcburiyyətində olsan, vəzifəyə atılmaq üçün içində olacağın vəziyyətin imkan və şəraitini düşünməyəcəksən. Möhtac olduğun qüdrət damarlarındakı əsilzadə qanda mövcuddur."*

## Atatürkün Rusiyanın gələcəyini təxmin etməsi

Bilindiyi kimi, 1985-ci ildə Sovet İttifaqının başına keçən Qorbaçovun başlatdığı "Гласность" (aşkarlıq) və "Перестройка" (yenidənqurma) siyasətlərinin nəticəsində 70 il davam edən kommunist sistem və dolayısilə də Sovet İttifaqı dağıldı. 1991-ci ilin dekabr ayında Rusiya, Ukrayna və Belarusun "Müstəqil Dövlətlər Birliyi"ni qurmalarını açıqlaması ilə Sovet İttifaqı tarixə qarışmış oldu.

Şübhəsiz ki, Sovet İttifaqının dağılması 20-ci əsrin ən əhəmiyyətli siyasi hadisələrindən biri idi. Çünki Rusiya Federasiyası ilə birlikdə Sovet İttifaqını meydana gətirən 14 respublikanın müstəqilliklərini elan etməsi, Orta Asiya, Qafqaz və Şərqi Avropadakı regional tarazlıqları da fərqli ölçülərə daşıdı. Burada bizi ən çox maraqlandıran nöqtə, müstəqilliklərinə qovuşan respublikalardan beşinin türk olması idi. Orta Asiya xəritəsində yer alan bu Türk dövlətlərinin neft-təbii qaz kimi yeraltı zənginliklərinə sahib olması, Avrasiya adı verilən və Türkiyənin də içində olduğu bölgəni əhəmiyyətli mövqeyə gətirdi.

Türkiyənin Balkanlar, Qafqaz və Şərqi Aralıq dənizi bölgələrinin kəsişmə xətlərinin tam ortasında çox müzakirə olunan vəziyyətdə olması, Avropa dövlətlərinin və bütün dünyanın diqqətinin Türkiyə üzərində toplanmasına gətirib çıxardı. Bu vəziyyətdə edilməli olan bütün dünya ölkələri ilə dostluq əlaqələri qurmaq və geosiyasi mövqeyimizin nəticələrini lehimizə istifadə etməkdir.

Burada maraqlı olan, 1936-cı ildə hələ II Dünya Müharibəsi baş verməmiş və Rusiya böyük güc olmamış ikən, Atatürkün Çankayadakı axşam yeməyində Rusiyanın gələcəkdəki mövqeyi ilə əlaqədar olaraq söylədiyi bu sözlərdir:

> *"Bir az səbir edin, Yurdda sülh, dünyada sülhə sarılın. Çünki 60 il sonra Rusiya 60 parça olacaq. Bu nəsil Bolşevik üsyanı etdi. Qan qussa, quş üzümü yedim deyər. Oğulları da atalarının yolu ilə gedər. Amma ondan sonrakı nəsil Rusiyanı 60 parçaya bölər…*

Bu gün Sovet İttifaqı dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Lakin heç kim bu gündən sabah nə olacağını bilməz. Bu gün Rusiyanın əlində sıx tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni tarazlıq əldə edə bilər. Məhz o zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, təməli bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq, o gün susub gözləmək deyil. Hazırlaşmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar? Mənəvi körpüləri möhkəm tutaraq. Dil bir körpüdür. İnanc bir körpüdür. Tarix bir körpüdür. Köklərimizə enməli və hadisələrin böldüyü tariximiz içində inteqrasiya olunmalıyıq. Onların bizə yaxınlaşmasını gözləməməliyik, biz onlara yaxınlaşmalıyıq. Rusiya bir gün dağılacaq. O zaman Türkiyə onlar üçün nümunə ölkə olacaq."4

Yaxın dövrdə baş verən bu həqiqiləri və Türkiyənin 21-ci əsrdə Avrasiya üçün kilid ölkə mövqeyində olacağını nəzərdə tutması Atatürkün bu üstün xüsusiyyətinin bir dəlilidir.

Atatürk 1933-cü ildə bu sözləri söyləyəndə bunların reallaşa biləcəyinə şübhəsiz kimsə ehtimal verməzdi. Ancaq böyük öndər şəxsiyyətinə əks olunmuş uzaqgörənliyi ilə düşüncələrini belə dilə gətirmişdir:



*"Şərqdən doğulacaq günəşə baxın! Bu gün günün ağardığını necə görürəmsə, uzaqdan bütün şərq millətlərinin də oyanışını elə görürəm. Müstəqilliyə və azadlığa qovuşacaq daha çox qardaş millət vardır. Onların yenidən doğuşları şübhəsiz ki, irəliləməyə və rifaha yönəlmiş olaraq baş verəcək. Bu millətlər, bütün çətinliklərə və bütün maneələrə baxmayaraq, maneələri məğlub edəcək və onları gözləyən gələcəyə çatacaqlar."5*

## Türk birliyinin qorunması

Orta Asiyada 1990-cı illərdən etibarən ortaya çıxan yeni portret Türkiyəyə çox əhəmiyyətli və yeni bir strateji qapı açdığı kimi, 21-ci əsr üçün çox ciddi məsuliyyəti də özü ilə gətirir. Yetmiş il davam edən basqının ardından kommunizmin çökməsi ilə, Orta Asiya çöllərində əsməyə başlayan müstəqillik külələri, Türk dünyasını birlik və bərabərliyə, bir dünya gücü olmağa doğru istiqamətləndirir.

Qazaxıstanın dövlət başçısı Nursultan Nazarbayevin 28 sentyabr 1991-ci ildə İstanbulda etdiyi çıxış Türk respublikalarının bu gözləntisini və gələcəyə istiqamətli ümidlərini əks etdirməsi baxımından son dərəcə əhəmiyyətlidir:

*"Ancaq bahar selləri ilə nə qədər maneə törətməyə, önünə bəndlər çəkməyə çalışırsınızsa çalışın, su yenə də öz yolunu açacaq. Tarix çayı ilə də eynisi olmuş və "soyuq müharibə" maneəsini yıxan tarix insanlıq qanunları ilə təyin olunan əsas yatağına dönmüşdür... Xalqlarımız arasında qarşılıqlı anlayış və güvən duyğusu meydana gəldi. Dostluq təsirli əməkdaşlığın ən etibarlı zəmanətidir. Bu vəziyyət bizi ümidləndirir."6*

Türkiyənin sahib olduğu strateji miras 21-ci əsrdə Türk millətini lider ölkələr sıralamasında ilk sıralara yerləşdirəcək olan son dərəcə köklü və şanlı bir mirasdır. Tarixi və aktual həqiqətlər, istənilsə və əzm edilsə Türkün dünya liderliyinə gəlməsinin mümkün olduğunu göstərir.

Bu nöqtədən hərəkətlə Türk birliyinə doğru atılan bu addımların Atatürkün söylədiyi bu sözlər ilə uyğun gəldiyini görməmək qeyri-mümkündür:

*"Mən hər şeydən əvvəl Türk millətindənəm. Belə doğuldum. Belə öləcəyəm. Türk Birliyinin bir gün həqiqət olacağına inanıram. Mən görməsəm belə, gözlərimi dünyaya onun yuxuları içində bağlayacağam. Türk birliyinə inanıram, onu görürəm. Sabahın tarixi yeni fəsillərini Türk birliyi ilə açacaq. Dünya sakitliyini bu fəsillər içində tapacaq. Türkün varlığı bu köhnə aləmə yeni üfüqlər açacaq, günəşin, üfüqün nə demək olduğu o zaman görüləcək."7*

## Şahidlər Mustafa Kamaldan danışır;

1935-ci ildə Amerikalı bir jurnalist soruşur:

*"Müharibə olarsa, Amerika tərəfsizlik siyasətini qoruya biləcəkmi?"*

*"Mümkün deyil", dedi. Əgər müharibə olarsa, hər halda Amerikanın millətlər birliyində işğal etdiyi yüksək vəziyyəti təsirli olacaq. Coğrafi vəziyyəti nə olursa olsun, millətlər bir-birlərinə bir çox əlaqələrlə bağlıdırlar.*

Atatürk dünyadakı millətləri bir mənzildə oturanlar kimi görürdü. ABŞ bu mənzilin ən üst lüks qatında oturur. Əgər mənzildə oturanların bəziləri tərəfindən atəşə verilsə, digərlərinin yanğından xilas olma şansı yoxdur. Müharibə üçün də eyni şey ola bilər. ABŞ-ın bundan uzaq durması mümkün deyil.”

Atatürk bu sözləri əlavə etdi;

> *“Bundan başqa Amerika böyük və güclü və dünyanın hər yerində bağlılığı olan bir dövlət olduğundan, özünün siyasət və iqtisadiyyat cəhətdən ikinci pillədəki vəziyyətə düşməsinə heç bir zaman icazə verə bilməz.”8*

Müvəffəqiyyətli olan bir şagirdə mükafat verilərkən, Atatürk “Bu şagird təltif edilməlidir!” demişdi.



◉ Qazaxıstan prezidenti Nursultan Nazarbayev

Milli təhsil naziri Rəşid Qalib Bəy:

- “Fəxri fərman verək, Paşam.

- Fəxri fərman nəyi ifadə edir?

- Avropaya göndərək.”

Atatürk:




- “Rəşid Qalib Bəy, artıq Avropa çökmüşdür. Onu yeni bir ruh və zehniyyətin hakim olduğu Amerikaya göndərəcəksiniz!”9

## Aviasiya, müasir kənd təsərrüfatı kimi mövzuların əhəmiyyətini əvvəldən müəyyənləşdirməsi

Atatürk təyyarələrin hələ müharibədə istifadə edilməsinin mümkün olmadığı günlərdə, Fransada Abidin Daverə təyyarələrlə əlaqədar olaraq bunları söyləmişdir:

> *"Gün gələcək təyyarələr müharibələrdə əhəmiyyətli rol oynayacaq."10*

Bu söz, Abidin Daverin heç ağılına yatmamışdı. Çünki bu sözün deyildiyi 1900-cü illərdə, təyyarələrin müharibədə istifadə edilməsi ağıllara belə gəlmirdi.

1930-cu illərdə də aviasiyaya əhəmiyyət və dəyər verilməli olduğunu düşünərək, "Gələcək səmadadır" deyən böyük Atatürk aviasiyanın idman sahəsi kimi mənimsənməsi və Türk gəncləri arasında yayılmasını ürəkdən arzulamışdır.

Atatürk, "Türk quşu"nun qurucu işlərində olduğu kimi, aviasiya ilə əlaqəli digər təşəbbüslərdə də verdiyi sərəncamlarla lider rolunu oynadı. Üstəlik, aviasiyanı böyük maraqla və ürəkdən dəstəkləyən Atatürk mənəvi qızı Sabiha Gökçeni də bu mövzuda təşviq etmişdir. Sabiha Gökçen həm mülki, həm də hərbi aviasiya sahəsində, beynəlxalq şöhrətə və dəyərə sahib aviatorumuz olmuşdur.

## Dövrün iqtisadi şərtlərini yaxşı aşkar edərək gələcəyə istiqamətli tədbirlər alması

Tam müstəqillik üçün lazım olan qayda milli suverenliyin təmin edilməsidir. Atatürkə görə bu hədəflər yalnız kağız üzərindəki prinsiplərlə, qanun maddələri ilə və ehtiraslarla, arzularla əldə edilə bilməz. Bu hədəfləri tam olaraq reallaşdıra bilmək üçün ən güclü təməllərdən biri iqtisadiyyatdır.

Atatürkə görə siyasi və hərbi zəfərlər nə qədər böyük olursa olsunlar, iqtisadi zəfərlər ilə taclandırılmazlarsa, əldə edilən zəfərlər qalıcı ola bilməz; qısa zamanda sönərlər. Bu səbəblə, parlaq zəfərlərimizin təmin etdiyi və təmin etməyə davam edəcəyi faydalı nəticələrdən faydalana bilmək üçün iqtisadiyyatımızın, iqtisadi suverenliyimiz yaradılmalı, gücləndirilməli və genişlədilməlidir. Bu səbəblə, Atatürk daha əvvəl bəhs etdiyimiz kimi, iqtisadiyyat sahəsində qalıcı bir çox islahat aparmış və bunları heç vaxt itirmədən tətbiq etmişdir.

Bir nitqində Atatürk iqtisadiyyatın bir ölkənin rəhbərliyi üçün nə qədər əhəmiyyətli olduğunu bu sözləri ilə vurğulayırdı:

> *"İqtisadiyyat demək hər şey deməkdir. Yaşamaq üçün, xoşbəxt olmaq üçün, insanın varlığı üçün nə lazımdırsa, bunların hamısı deməkdir."11*

Kamal Atatürk iqtisadi müvəffəqiyyətlərə imza atmağın yolunun, gənc qurşaqların ən yaxşı şəkildə yetişdirilməsindən keçdiyini də bu sözləri ilə dilə gətirmişdir:

*"Bu vəziyyətdə, uşaqlarımızı buna uyğun şəkildə öyrətməliyik, onlara buna uyğun elm və mədəniyyət verməliyik ki, ticarət dünyasında, kənd təsərrüfatında, incəsənətdə və bütün sahələrdə səmərəli, təsirli bir iş içində olsunlar... Təhsil proqramımızın, istər ibtidai təhsildə, istərsə də orta təhsildə veriləcək bütün məlumatları bu anlayışa uyğun olmalıdır."12*



Atatürkün iqtisadiyyata baxışını və milli sənayeləşmə addımlarını öz qaynaqlarımızla başlatmağımızı nümunə olan bir başqa təşəbbüsü də, Sümerbank (1933) və Etibankın (1935) quruluş qanunlarına, dövlətə aid sərmayənin gələcəkdə xalqa satılacağına bağlı hökm qoyulmasıdır. Atatürkün sənaye mülkiyyətin xalqa yayılmasını istədiyinin ən diqqətə çarpan göstəricisi də, İş bankının xalqa təqdim edilən hissələrindən satın almasıdır.

İqtisadiyyat sahəsində ilk olaraq üzərində dayanacağımız mövzu I iqtisadi konqresin hələ Lozanna andlaşması nəticələnmədən edilməsidir. İzmirdə 17 fevral 1923-cü ildə toplanan İqtisadi konqresin açılış nitqində Atatürk Osmanlı dövlətinin tənəzzülünə səbəb olan iqtisadiyyat anlayışını və kapitulyasiyaları nümunələri ilə izah etmiş, bu mövzular üzərində əhəmiyyətlə dayanmışdır;

*"Siyasi və hərbi zəfərlər nə qədər böyük olsa da, iqtisadi müvəffəqiyyətlərlə taclandırılmazlarsa, əldə edilən zəfərlər qalıcı ola bilməz və qısa müddətdə sönər".... Bir dövlət ki, vətəndaşlarına qoyduğu bir vergini əcnəbilərə qoya bilməz; bir dövlət ki gömrüyü üçün rəsmi əməliyyatları və digər əməliyyatları etmə haqqından qadağan edilər, bir dövlət ki, əcnəbilər üzərində mühakimə səlahiyyətindən məhrumdur, o dövlətə müstəqil deyilməz... Osmanlı ölkəsi xarici ölkələrin müstəmləkəsindən başqa bir şey deyildi."13*




*"...Zənn edilməsin ki, xarici sərmayəyə düşmənik, xeyr, bizim ölkəmiz genişdir. Çox əməyə və sərmayəyə ehtiyacımız var. Qanunlarımıza uyğun olmaq şərti ilə xarici sərmayəyə lazım olan zəmanəti verməyə həmişə hazırıq. Xarici sərmayə bizim əməyimizə əlavə olunsun və bizim ilə onlar üçün faydalı nəticələr versin. Lakin əvvəlki kimi deyil."14*

Atatürk bu çıxış ilə qurulması planlanan yeni Türk dövlətinin izləyəcəyi iqtisadiyyat siyasətini təyin etmişdir. Atatürkün iqtisadiyyat siyasətimizin əsas prinsipi olaraq gördüyü ən əhəmiyyətli mövzulardan biri də, kəndlinin işinin nəticələrini öz faydasına ən yüksək səviyyəyə çıxarması olaraq təyin etmişdir. Bu səbəblə, həm cütçünün işini və səmərəsini artıracaq məlumatlandırmanın, vasitə və texniki alətlərin tamamlanması, həm də bu işlərdən yaranacaq nəticələr ən çox fayda təmin edəcək iqtisadi tədbirlərin alınması üçün çalışmaq lazım idi. Yolların və müasir daşıma vasitələrinin olmaması, edilən dəyişikliklərin cütçünün əleyhinə olması və tətbiqə qoyulan qanunların cütçünü qorumaması kimi maneələrin ortadan qaldırılması əsas şərt idi. Bu mövzu ilə əlaqədar olaraq Atatürk bunları demişdir:

*"Əgər millətimizin əksəriyyəti fermer olmasaydı, biz bu gün dünya üzərində olmayacaqdıq.*

Millətimiz fermerdir. Millətin fermerdəki əməyini müasir, iqtisadi tədbirlərlə maksimum həddinə çıxarmalıyıq. Kəndlinin işlərinin nəticə və səmərəsini öz mənfəəti lehinə maksimum həddinə yüksəltmək, iqtisadi siyasətimizin təməl daşıdır.

Ona görə bir tərəfdən fermerin əməyini artıracaq və səmərəli edəcək məlumat, vasitə və fənni alətlərin istifadə etmə və edilməsinə, digər yandan onun işlərinin nəticələrindən maksimum dərəcədə faydalanmasını təmin edəcək iqtisadi tədbirlərin alınmasına çalışmaq lazımdır.

Milli iqtisadiyyatın təməli əkinçilikdir. Buna görə əkinçilikdə inkişafa böyük əhəmiyyət veririk. Kəndlərə qədər yayılacaq proqramlı və praktik işlər, bu məqsədə çatmağı asanlaşdıracaq.

Əfəndilər! Millətimiz fermerdir. Millətin fermerdəki işini yeni iqtisadi tədbirlərlə son həddə çatdırmalıyıq. Kəndlinin işinin nəticələri və səmərəsi öz mənfəəti lehinə son həddə çıxarmaq iqtisadi siyasətimizin təməl ruhudur."15

## QEYDLƏR



◉ Afət İnanla birlikdə Yeşilköydə hərbi təyyarələri araşdırarkən


1. "Atatürk'le Övünüyorum", "Hürriyet" qəzeti, 10 noyabr 1963

2. www.tekadam.8k.com/15.html

3. "Atatürk'ün Söylev ve Demeçleri", 1922, səh. 224

4. www.geocities.com/mxez/kehanet4.htm

5. www.gazi.edu.tr/ataturk/sozler.htm

6. Dos. dr. Ramazan Özey, "Türk Dünyası", "Tarih ve Medeniyet" jurnalı, dekabr 1996, səh. 60

7. "Atatürk'ün Sofrası", İsmət Bozdağ, Karvan nəşrləri, 1975, səh. 138-143

8. Feridun Kandemir, Yakın "Tarihimiz Yayınları", 2-ci cild səh. 118

9. Niyazi Əhməd Banoğlu, "Nükte Fıkralarla Atatürk", səh. 707

10. www.geocities.com/mxez/kehanet4.htm

11. http://e-okul.kolayweb.com/ataturk/dusunce.htm

12. A.k.ə.

13. A.k.ə.

14. A.k.ə.

15. A.k.ə.

VII FƏSİL

# 7 Ən böyük Türk: Atatürk

## Atatürkün milli suverenlik anlayışı

Milli suverenlik bir insan və ya sinifin suverenliyinə əsaslanmadan, millətin öz rəhbərliyində söz sahibi olması deməkdir. Bunun ədalətin, bərabərliyin və azadlığın dayağı olduğunu düşünən Atatürk; "Azadlığın da, müsavatın da, ədalətin də dayağı milli hakimiyyətdir" deyərək bu düşüncəsini dilə gətirmiş; "Suverenlik qeyd-şərtsiz millətə məxsusdur" deyərək də suverenlik anlayışını açıq dillə ifadə etmişdir.

Atatürkün bu mövzudakı düşüncələri, hərbi və siyasi həyatındakı işlərinə də təsir etmiş, Qurtuluş müharibəsinin ilk günündən etibarən, insan ya da ictimai təbəqə hakimiyyətindən, milli hakimiyyətə keçməyi təmin etmək üçün çalışmışdır.

Mustafa Kamal girdiyi mübarizənin bu təməl ünsürünü Amasya bildirişindəki bu sözləri ilə ortaya qoymuşdur:

> *"Millətin istiqlalını yenə millətin əzmi və qərarı qurtaracaq."*

Atatürk öndərliyində başladılan Milli mübarizə dövründə bəzi kütlələr, ölkənin xilas olması üçün böyük dövlətlərin səlahiyyəti altına girməkdən başqa çarə olmadığını müdafiə edərkən; Atatürk buna şiddətlə qarşı çıxmış və milli iradəni meydana gətirmə və müstəqilliyə qovuşma mövzusunda inancını itirməmişdir.

Milli mübarizəyə "milli hakimiyyət" düşüncəsi ilə başlayan Atatürk digər dövlətlərin səlahiyyət rəhbərliyi altına girmək düşüncəsini, "Nutuk"da belə açıqlamışdır:

> *"Əfəndilər, mən bu qərarların heç birində isabət görə bilmədim. Çünki bu qərarların əsaslandığı dəlillər və məntiqlər çürük və əsassız idi.*

Əfəndilər, bu vəziyyət qarşısında bir tək qərar vardı: o da milli hakimiyyətə əsaslanan, qeyd-şərtsiz yeni türk dövləti qurmaq. Məhz daha İstanbuldan çıxmazdan əvvəl düşündüyümüz və Samsunda Anadolu torpaqlarına ayaq basan kimi tətbiq etməyə başladığımız qərar bu qərar olmuşdur."



◉ Tarixi qərarların alındığı Ərzurumdakı Qurultay binası

Millətin hədəflədiyi bütün məqsədlərə çatma gücünə sahib olduğunu vurğulayan Atatürk, "Millət cəhdlərinin önünə keçə biləcək heç bir güc yoxdur. Güc birdir və o millətindir" deyərək bu düşüncəsini ifadə etmişdir. Ərzurum konqresində "Milli iradənin başlıca güc qaynağı" olduğunu, "Kuva-yı Milliyeyi amil və İdarə-i Milliyeyi hakim etmək əsasdır" sözləri ilə elan edən Atatürkün bu qanunu; daha sonrakı tarixi proseslərdə Türk islahatının təməl dayağı olmuşdur.

11 sentyabr 1919-cu ildə "Ümumi Konqres" tərəfindən elan edilən, "Sivas konqresi bəyannaməsi" adı ilə xatırlanan və konqresdə alınan qərarları ehtiva edən sənəddə; Ərzurum konqresində alınan bu qərarın eynilə təkrarlanması, Atatürkün milli iradənin millətə verilməsi mövzusundakı dayanıqlılığının göstəricisidir. Xronoloji olaraq baxıldıqda, bütün bu işlərin Türkiyədə milli suverenliyi reallaşdırmaq üçün əsaslandığı görüləcək. Konqreslərdə alınan qərarların yanında milli suverenlik mövzusunda atılmış əhəmiyyətli addımlardan biri də Mısak-ı Milli qərarlarıdır. Misak-ı Milli ilə "milli və bölünməz" bir Türk ddövlətinin sərhədləri çəkilmiş, Ərzurum və Sivas konqresləri qərarlarındakı milli qurtuluş proqramı, hüquq və siyasət anlayışı əsaslarına oturdulmuşdur.

Atatürkün Türkiyədə milli suverenlik qanununu tam mənası ilə reallaşdırması isə TBMM-nin açılması ilə olmuşdur. TBMM-nin açılması ilə Türkiyədə milli suverenlik qanunu rəsmi olaraq və həqiqətən reallaşdırılmışdır.

*"Suverenlik qeyd-şərtsiz millətə məxsusdur" ifadəsi ilə, iradəni TBMM-yə verən Atatürk milli hakimiyyətin qorunması mövzusunda Türk millətinə düşən vəzifəsi bu sözləri ilə ifadə etmişdir:*

*"Heç şübhə yoxdur ki, dövlətimizin əbədi yaşaması üçün, məmləkətimizin güclənməsi üçün, millətimizin rifah və xoşbəxtliyi üçün həyatımız, namusumuz, şərəfimiz, gələcəyimiz üçün və bütün müqəddəs anlayışlarımız və nəhayət hər şeyimiz üçün, bütün sayıqlığımızla və bütün gücümüzlə milli suverenliyimizi mühafizə və müdafiə edəcəyik."*

## Türk milli şəxsiyyətini qorumadakı əzmi

Atatürk üçün vəzifə demək, millətinə xidmət etmək demək idi. O ömrü boyunca Türk millətinin müstəqilliyi və yüksəlməsi üçün göstərdiyi fədakarlıqdan qürur duymuşdur. "Məmləkətdə tək bir qaya qalsa, o qayanın başına çıxaraq oradan vətəni müdafiə edəcəyəm" deyən Atatürk millətindən aldığı güclə, həyatının sonuna qədər bu məsuliyyətini müvəffəqiyyətlə

daşımışdır. Atatürk Qurtuluş savaşında qazanılan zəfərdən sonra Afyonlulara xitabən etdiyi bir çıxışda belə demişdir:

> *"Mən vəzifəmin bitmədiyini, yükləndiyim məsuliyyətin də böyük və çətin olduğunu idrak edirəm. Yoldaşlar, bu vəzifə bitməyəcək. Mən torpaq olduqdan sonra da davam edəcək. Mən isə sevinə-sevinə bütün varlığımı bu müqəddəs vəzifəyə həsr edəcəyəm. Və bu yüksək məsuliyyəti yüklənməklə xoşbəxt olacağam. Çünki böyük millətimizin ürək və vicdanından mənə qarşı sarsılmaz bir təhlükəsizlik və etimadın daşmaqda olduğunu görürəm. Bu mənim üçün böyük bir gücdür."1*

Bu sözləri ilə vəzifəmizin əsla bitməyəcəyini Türk millətinin rifahı, səadəti üçün davamlı çalışmalı olduğunu ifadə edən Atatürk; bu mövzuda bizə nümunə olmuşdur. Onu çox yaxşı tanıyan şəxsiyyətlərdən biri olan İsmət İnönü Atatürk haqqında danışarkən, onun Türk millətini yüksəltməyi vəzifə etmiş xarakterini bu sözləri ilə vurğulamışdır:

> *"Ən böyük zəfərləri qazandıqdan sonra da Atatürk ömrünü tək Türk millətinin haqlarını, insanlığa əzəli xidmətlərini və tarixə həkk olunmuş üstünlüklərini isbat etməklə keçirmişdir."2*

Atatürk gərək müharibənin çətin zamanlarında, gərəksə zəfərin ardından gələn fikri mübarizə dövründə heç qorxmadan çalışmış; millətini müasir mədəniyyətlər səviyyəsinə yüksəltmək üçün, həyatı boyunca şəxsi istəklərindən daha çox millətinin rifahı üçün məşğul olmuşdur:

> *"Həyatımın bütün mərhələlərində olduğu kimi, son zamanların böhranları və fəlakətləri arasında da bir dəqiqə keçməmişdir ki, hər cür hüzur və istirahətimi, hər növ şəxsi duyğularımı, millətin salamatlığı və səadəti adına fəda etməkdən həzz almayım. Gərək hərbi, gərəksə siyasət həyatımın bütün dövr və mərhələlərini dolduran mübarizələrimdə daim hərəkət prinsipim milli iradəyə əsaslanaraq millətin, vətənin möhtac olduğu məqsədlərə getmək olmuşdur."3*

## Masonluq və kommunizmə qarşı aldığı tədbirlər

Atatürkün həyatı boyunca masonların fəaliyyətlərindən xoşu gəlməmiş, yaxın yoldaşları Mason lojalarına üzv olmalarına baxmayaraq, cəmiyyətin gizli olmasından narahat olmuş və ölkə miqyasında bunu qadağan etmişdir. 18 və 19-ci əsr boyunca İstanbul başda olmaq üzrə Anadoludakı bir çox bölgədə qurulan Mason lojaları, M. Kamal Atatürkün 10 oktyabr 1935-ci ildə mason lojalarının bağlanılması əmri ilə sarsılmış və 13 oktyabr 1935-ci ildə də bütün lojalar Daxili İşlər Nazirliyi tərəfindən rəsmi olaraq bağlanılmışdır. Gizli fəaliyyətlərinə maneə törədilən masonlar bu dövrü "yuxu dövrü" adlandırmışdır. Ancaq İsmət İnönü dövründə 1948-cü ildə masonluq yenidən sərbəst buraxılmış və rahatlıqla təşkilatlanmışdır.

Atatürk milli olmayan axınların ölkəyə girməsinə və bu cür quruluşlara qarşı idi. Atatürk həyatı boyunca milliyyətçiliyin yerləşməsi üçün çalışarkən millətə zərər verə biləcək axınlarla da mübarizə aparmışdır.

Böyük öndər millətinə və dininə olan sevgisini bu sözləri ilə ifadə edərkən, kommunizm ilə əlaqədar düşüncəsini də dilə gətirmişdir:

> *"Bu unutmamalıdır ki, bu tərz iradə, bir bolşevik sistemi deyil. Çünki biz nə bolşevikik, nə də kommunist; nə biri, nə digəri ola bilmərik. Çünki biz millətimizi sevirik və dinimizə hörmət edirik."4*

## Türk dilinə və Türk tarixinə verdiyi əhəmiyyət

Ulu öndər Atatürk türk dilini, Türk milləti üçün xəzinə olaraq görür. Atatürkə görə "Türk millətinin dili türkcədir. Türk dili dünyada ən gözəl, ən zəngin və ən asan dildir", "Türk dili Türk millətinin ürəyidir, beynidir."5

Atatürkün düşüncələrində "milli dil" Türk millətini bir yerdə tutan, birlik və bərabərlik içində yaşamasını təmin edən ən əhəmiyyətli faktorlardan biridir. Milli duyğular ilə dil arasındakı əlaqə çox gücdür. Dilin milli və zəngin olması, milli duyğunun inkişafında başlıca faktordur. Dil milli duyğunu inkişaf etdirərək, milli şüuru ortaya çıxarar; bu istiqaməti ilə dil müstəqilliyin qorunmasında da vəzifə icra etmiş olar. Böyük öndər "Türk dili, dillərin ən zənginidir. Yetər ki, bu dil şüurla işlənsin. Ölkəsini, yüksək müstəqilliyini, qorumasını bilən Türk milləti dilini də xarici dillər boyunduruğundan qurtarmalıdır" deyərək, milli dilin qorunması mövzusundakı həssaslığını ifadə etmişdir.

Atatürk milli dilin qorunması və gələcək nəsillərə köçürülməsi istiqamətində işlər görmüş, "Türk demək dil deməkdir. Milliyyətin çox aşkar xüsusiyyətlərindən biri dildir" deyərək, millətimizin birliyi üçün Türk dilinə veriləcək olan əhəmiyyəti vurğulamışdır. "Türk dilinin öz mənliyinə, əslindəki gözəllik və zənginliyinə qovuşması üçün, bütün dövlət təşkilatımızın,

diqqətli, maraqlı olmasını istəyərik.”6 sözü ilə də, bu mövzuda dövlətə düşən vəzifəyə işarə etmişdir.

Atatürk Türk milliyyətçiliyinin yerləşməsi və möhkəmlənməsi barəsində millətin ortaq dil mövzusunda məlumatlanmalı olduğuna inanmış və bu məqsədlə çalışmışdır. Bu istiqamətdə Atatürkün təlimatı ilə; 12 iyul 1932-ci ildə sonralar “Türk Dili təşkilatı” adını alacaq olan Türk dili tədqiqat cəmiyyəti qurulmuşdur. Atatürk Türk dili üzərindəki yerli və xarici araşdırmaları şəxsən araşdırmış, öz dövründəki alimləri, türk dili üzərində araşdırmalar etməyə istiqamətləndirmişdir. Necə ki, türk dilinin ən qədim abidələri olan Göytürk (Runik) yazılı mətnlərin ilk iki cildi onun sağlığında nümayiş olunmuş; Divanı Lügati't-Türk, Kutadgu Bilig kimi əsərlər üzərində də yenə onun sağlığında çalışılmağa başlanmışdır.7

Atatürk özündən sonra gələcək nəsillərin də Türk dilinə və tarixinə sahib çıxmalarını istəmiş, bu məqsədlə qurulan təşkilatların işlərinə maddi-mənəvi fayda vermişdir. Atatürkün Türk tarixi və Türk dili mövzularına nə cür əhəmiyyət verdiyi, ölümündən qısa müddət əvvəl yazdığı vəsiyyətnamə ilə mal varlığını Türk Dili Təşkilatı ilə Türk Tarixi Təşkilatına buraxmasından aydın olur. Bu iki təşkilatın büdcəsi bu gün də Atatürkün mirasından qarşılanır.

Bir insanın milli dəyərlərinə sahib çıxması üçün millətini sevməli; millətini sevməsi üçün isə onu tanımalıdır. Millətinin keçmişdə yaşadıqlarını öyrənən insan ona daha möhkəm bağlarla yapışar; sədaqəti artar və milli duyğuları daha da bərkiyər. Türk millətinin böyüklüyünə və üstün sivilizasiya qabiliyyətlərinə könüldən inanan Atatürk; mədəni millətlərin səviyyəsinə çıxa bilmək üçün, Türk millətinin əvvəl tarixini bilməli olduğunu düşünürdü. Üstəlik, Atatürk tarix öyrənməni ilk qaynaqlardan şəxsən araşdırılıb öyrənilməsi tərəfdarı idi. Atatürk bu düşüncəsinin səbəbini bu sözləri ilə açıqlamışdır:

> *“Dünyanın bizə hörmət göstərməsini istəyiriksə, əvvəla biz öz mənliyimizə və milliyyətimizə bu hörməti hissən, fikrən, həqiqətən bütün fəaliyyət və hərəkətlərimizlə göstərək. Milli mənliyini tapmayan millətlərin başqa millətlərin ovu olduğunu bilməliyik.”8*

Atatürkə görə türklüyümüzü bütün əsilzadəliyi və tarixi ilə tanımaq və tanıtmaq əsas şərtdir. Həyatı boyunca tarix araşdırmalarında Türk və xarici tarixçilərlə birlikdə çalışan Atatürk; bu araşdırmalardan əldə etdiyi məlumatları Türk millətinə aşılamaq istəmişdir. Türk millətinin böyüklüyünə bütün türklərin inanmasını arzulayan Atatürk bu fikri müdafiə etməyi həyatı boyunca məqsəd hesab etmişdir. “Böyük dövlətlər quran atalarımız böyük və geniş sivilizasiyalara da sahib olmuşdur. Bunu axtarmaq, tədqiq etmək Türklüyə və dünyaya bildirmək bizim üçün bir borcdur... Türk uşağı əcdadını tanıdıqca daha böyük işlər görmək üçün özündə güc tapacaq”9 deyərək; Türk insanının tarixini öyrənməsinin əhəmiyyətini vurğulamış; aşağıdakı sözləri ilə də bu mövzudakı çalışmalara olan etibarını ifadə etmişdir:

*"Mədəniyyət işlərimizə könlümüzün titrədiyini bilirsiniz. Bu işlərin başında da Türk tarixini doğru təməllər üstündə qurmaq, öz türk dilinə lazım olan dəyəri vermək üçün səmimiyyətlə çalışıldığını söyləməliyəm. Bu işlərin gözqamaşdırıcı nəticələr verəcəyinə indidən inanmalısınız."10*

Türk mədəniyyətini və Türk tarixini elmi yoldan araşdırmaq, tanıtmaq və yaymaq məqsədi ilə, Atatürk təşkilatın işlərinə öndərlik etmiş, iş planını özü çəkmiş; Türk və Türkiyə tarixini işıqlandıracaq araşdırmacılara yol göstərici xüsusiyyətdə aşağıdakı əmrləri vermişdir:11



◉ Həsən Rizanın «Fatihin Ədirnədən İstanbula yürüşü» adlı yağlı boya tablosu

*"....Tarix yazmaq tarixi etmək qədər mühümdür, yazan edənə sadiq qalmazsa, dəyişməyən həqiqət insanlığı təəccübləndirəcək mahiyyət alar."12*

## Müasir Türk modelinin qurucusu

*"Böyük davamız ən mədəni və ən rifahlı millət olaraq varlığımızı yüksəltməkdir" deyərək, Türk millətini mədəni millətlər səviyyəsinə çıxarma mübarizəsini açıqca ifadə edən Atatürk müasir Türk modelinin də qurucusudur.*

Atatürk bütün millətlərə hörmət edirdi; amma Türkü hamısından üstün görürdü. Atatürk Türk millətinə olan sevgisini və etibarını hər fürsətdə dilə gətirmişdir. "Mənim həyatda tək fəxrim (şərəfim), sərvətim yalnız Türklükdür"13 deyərək, Türk olmaqdan duyduğu qüruru və 10-cu il nitqindən alınan bu sözləri ilə də Türk millətinin gələcəkdə böyük işlər bacaracağına olan inancını vurğulamışdır:

*"Bu gün eyni iman və qətiyyətlə söyləyirəm ki, milli ideala toplu gedən Türk millətinin böyük millət olduğunu, bütün mədəni aləm qısa zamanda bir daha tanıyacaq. Əsla şübhəm yoxdur ki, Türklüyün unudulmuş böyük mədəni xüsusiyyəti və böyük mədəni qabiliyyəti bundan sonrakı inkişafı ilə gələcəyin yüksək mədəniyyət üfüqündən yeni bir günəş kimi doğulacaq."*

Atatürkün millətinə olan sevgisi bütün ömrünü millətə xidmət edərək keçirməsini və bundan böyük qürur duymasını təmin etmişdir:

*"Mənim üçün dünyada ən böyük mövqe və mükafat millətin bir fərdi olaraq yaşamaqdır. Əgər Haqq məni bunda müvəffəq etmişdisə, şükür edərəm. Bu gün olduğu kimi ömrümün sonuna qədər millətin xidmətində olmaqla fəxr edəcəyəm."*

Atatürkün millətinə olan etibarı Türk olmaqdan duyduğu qürurla möhkəmlənmiş; girdiyi hər mühitdə, etdiyi hər çıxışda bunu ifadə etməkdən çəkinməmişdir. O, millətin mədəniyyətini içinə həzm etmiş; Türk millətinin zəkasını, cəsarətini, mərhəmətli var olmasını, qəhrəmanlığını və hərbi müvəffəqiyyətini şəxsiyyətində toplamış bir liderdir.

## Atatürkün mülayim milliyyətçilik anlayışı

Atatürk milliyyətçiliyi milliyyət, dil və mədəniyyətdə; kədərdə və sevincdə birlik və bərabərliyi ifadə edir. Bu anlayış dünya millətlərini bir ailə sayan, hər millətin haqqına hörmətcil olan, haqlarını və qürurunu qoruma mövzusunda şüurlu və sülhsevər bir milliyyətçilikdir.

*"Millət həyatı təhlükəyə girmədikcə çıxarılan müharibə, döyüş deyil, cinayətdir, elə isə əsas olan sülhdür. İnsanları xoşbəxt edəcəyəm deyə onları bir-birinə boğazlatmaq, insanlıqdan kənar və çox kədərli sistemdir. İnsanları xoşbəxt edəcək tək vasitə onları bir-birinə yaxınlaşdırmaq, onlara bir-birlərini sevdirmək, qarşılıqlı maddi və mənəvi ehtiyaclarını təmin etmək üçün hərəkət və enerjidir" sözləri; Atatürkün müharibə tərəfdarı dövlət adamı olmadığının göstəricisidir.*

Müharibənin bir millət üçün nə demək olduğunu ən acı və ən açıq şəkildə yaşayan Atatürk; böyük zəfərin qazanılmasından sonra həmişə sülhsevər siyasət izləyərək digər dövlət adamlarına

nümunə olmuşdur. Atatürkün bu sözləri də sülhsevər siyasət anlayışının bir göstəricisidir:

> *"Dürüst və açıq olan xarici siyasətimiz xüsusilə sülh fikrinə əsaslanır. Hər hansı beynəlxalq məsələmizi sülh vasitələri ilə həll etməyi axtarmaq bizim mənfəət və zehniyyətimizə uyğun gələn bir yoldur. Beynəlxalq sülh havasının qorunması üçün Türkiyə cümhuriyyəti əlindən gələn hər hansı bir xidmətdən geri qalmayacaq."14*



◉ Osmanlı dövrünün ən möhtəşəm memarlıq abidələrindən biri olan Topqapı sarayı

Atatürkün müasir dövrdə əhəmiyyəti daha da yaxşı aydın olan "Yurdda sülh, dünyada sülh" qanunu bu gün də milli siyasətimizin əsasını təşkil edir. "Sülh yolunda haradansa çağırış gəldisə, Türkiyə onu can ataraq qarşıladı və köməyini əsirgəmədi" deyən Atatürkün bu davranışı Türkiyənin xarici siyasətinin təməl qanunlarından biri olaraq varlığını davam etdirir.

Yurdda sülh, milli birlik və bərabərlikdən güc alan vəziyyətdir. Vətəndaşlar bir-birlərini qırmadan, bir-birlərinin haqq və azadlıqlarına hörmət edərək yaşadıqlarında; bölücü fikirlərə və yurdu bölmək istəyənlərə qarşı tək ürək olaraq mübarizə etməyi qəbul etdiklərində; sülh və hüzur özbaşına təmin edilər. Bir ölkədə sülh təmin etmək inkişafın önünün açılması üçün də lazımdır.



◉ Dolmabağça sarayı

Dünyada sülh isə dövlətlərin aralarındakı çəkişmələri, anlaşılmazlıqları sülhsevər yollardan təhlil etmələridir. Müharibələr yalnız acı, qan, gözyaşı və fəlakət gətirər; qazananlar da bir çox

şeylərini itirərlər. O halda, ancaq və ancaq bütün sülhpərvər yollar tıxandığında müharibəyə gedilməlidir. Əsas olan müharibə deyil, sülhdür.

Atatürk böyük dövlətlərlə, həmişə dostcasına və səmimi əlaqələri prinsip etmişdir. Bütün dünya dövlətlərinin azadlığına, torpaq bütövlüyünə hörmətli olmaq; insanları fəlakətlərə sürüyən müharibələrin qarşısını almaq; dünya sülhünü təmin etmək məqsədi ilə digər dövlətlərlə əməkdaşlıq etməyi istəmişdir.

## QEYDLƏR


1. Akademik Sadi Irmak, "Atatürk Bir Çağ'ın Açılışı", İstanbul, 1984, səh. 17

2. Akademik Sadi Irmak, "Atatürk Bir Çağ'ın Açılışı", İstanbul, 1984, səh. 331

3. "Atatürk'ün Söylev ve Demeçleri", 1 noyabr 1920, I cild, səh. 61

4. "Atatürk'ün Söylev ve Demeçleri", III cild, səh. 20

5. Afet İnan, "Medeni Bilgiler ve M. K Atatürk'ün El Yazıları", 1969, səh. 18-19

6. "Atatürk'ün Söylev ve Demeçleri", 1 noyabr 1932, I cild, səh. 372

7. Türk Dili təşkilatı veb saytı, www.tdk.gov.tr

8. Afet İnan, "Medeni Bilgiler ve M. K Atatürk'ün El Yazıları", 1969, səh. 25

9. Afet İnan, "Atatürk hakkında Hatıralar ve Belgeler", 1968, səh. 311

10. "Atatürk'ün Söylev ve Demeçleri", 1 noyabr 1934, I, cild səh. 377

11. Türk tarix təşkilatı veb saytı, http://www.ttk.gov.tr

12. Avqust 1931, T. T. K. M.

13. Utkan Kocatürk, "Atatürk'ün Fikir ve Düşünceleri", Ankara, 1969, səh. 95

14. "Atatürk'ün Söylev ve Demeçleri", 1929, səh. 347

VIII FƏSİL

# Atatürk və İslam dini

## Dinimizə olan hörmət və bağlılığı

Atatürkün Quran-i Kərimə duyduğu dərin sevgi və hörməti İslam dininin ən saf şəkli ilə yaşanmasına olan inancı onun dindar tərəfini hər dövrdə ortaya çıxarmışdır. Həqiqi din ilə batil inanclarla dolu cəhaləti həmişə dəqiq şəkildə ayıran Atatürk; bir çox çıxışında Allahdan, İslamdan, Qurandan hörmət və bağlılıqla bəhs etmişdir. Hz. Peyğəmbərimizi (s.ə.v.) tərifləmiş və Türk millətinə həqiqi dinə sarılmağı və daha dindar olmağı tövsiyə etmiş; Allaha yönəlmədə hz. Məhəmmədi (s.ə.v.) rəhbər göstərmişdir:



◉ Ədirnədəki Selimiyyə məscidinə səfəri zamanı.

> *"Bütün dünyanın müsəlmanları Allahın son peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq tətbiq etməlidir. Bütün müsəlmanlar hz. Məhəmmədi (s.ə.v.) nümunə götürməli və onun kimi hərəkət etməli; İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidir. Çünki ancaq bu şəkildə insanlar xilas ola bilər və inkişaf edə bilərlər."1*

Hz. Məhəmmədi (s.ə.v.) tərifləyərək onu özünə nümunə götürən Atatürk hz. Məhəmmədin (s.ə.v.) peyğəmbərliyinə qəti olaraq iman etmişdi. Peyğəmbərimiz hz. Məhəmmədə (s.ə.v.) duyduğu heyranlığı və onun peyğəmbərliyini həyəcanla izah etdiyi bir sırada yanında olan M. Şemseddin Günaltay atanın həmin andakı halını belə izah etmişdir:

> *"...Atatürkün dənizlərdən rəng alıb rəng verən gözləri masanın üzərində sərilmiş xəritəyə dikildi və məni qolumdan tutaraq masanın başına çəkib barmağını bir nöqtəyə qoydu. Bu, öz əlləri ilə çəkdikləri hərbi xəritə idi və hz. Məhəmmədin (s.ə.v.) böyük Bədir Cəngini addım-addım göstərirdi. Hz. Məhəmmədə (s.ə.v.) və onun peyğəmbərliyinə qədər böyük hərbi dahiliyinə heyran olan bənzərsiz Sakarya qalibi, Bədir qalibini göylərə çıxararkən, "Onun Haqq Peyğəmbər olduğundan şübhə edənlər, bu xəritəyə baxsınlar və Bədir dastanını oxusunlar" deyə həyəcanlandı."*

Atatürk; Peyğəmbərimizi çox yaxşı tanımış, üstün xüsusiyyətlərini müxtəlif vəsilələrlə izah etmişdir:

> *"O, Allahın birinci və ən böyük quludur. Onun izində bu gün milyonlarla insan gedir. Mənim, sənin adın silinər; lakin sona qədər onunku ölümsüzdür."2*

> *"Tarix həqiqətləri təhrif edən bir sənət deyil, ifadə edən bir elm olmalıdır. Bu kiçik hərbdə belə hərbi dahiliyi qədər siyasi fikri ilə də yüksələn bir insanı, cazibədar dərviş kimi təsvir etməyə cürət edən cahil avaralar bizim tarix çalışmamıza qatıla bilməzlər...."3*

Atanın son sözü bu olmuşdu:

> *"Hz. Məhəmmədin (s.ə.v.) bir ovuc imanlı müsəlmanla məhşər kimi izdihamlı və çox zəngin Qureyş ordusuna qarşı Bədir meydan müharibəsində qazandığı zəfər, fani insanların qazancı deyil, Onun Peyğəmbərliyinin ən güclü dəlili məhz bu döyüşdür."4*

Atatürk xüsusi söhbətlərində bir neçə dəfə dindar olmağın əhəmiyyətindən, Peyğəmbərimizin həyatından, Əsri Səadət və Hülefayı Raşidin (dörd xəlifə) dövrlərindən, dinimizin ucalığından, Allahın qüdrətindən danışmışdır. İslam dininin son və mükəmməl din, Peyğəmbərimizin (s.ə.v.)

də son peyğəmbər olduğunu hər fürsətdə vurğulayan Atatürk xalqına da dindar olmağı, dinini öyrənməyi nəsihət etmişdir.

Atatürkün hz. Məhəmmədə (s.ə.v.) olan sevgisini təsvir etdiyi sözləri isə belədir:

> *"Böyük bir islahat yaradan həzrəti Məhəmmədə (s.ə.v.) qarşı bəslənilən sevgi, ancaq onun ortaya qoyduğu fikirləri, əsasları qorumaqla təcəlli edə bilər."5*

Atatürk dinimizin tam mənası ilə və əslinə uyğun olaraq yaşanmasını; millətimizə doğru, müasir, xurafatlardan təmizlənilmiş bir din anlayışını mənimsətməyi hədəfləmişdir. Quranın əslini mənimsəmişdir.

Həqiqi mənada dindarlığın, Atatürkün təsvir etdiyi mülayim, insancıl, müasir quruluşda özünü göstərdiyi açıq aydın olur.

Böyük Atatürkün İslam dinini, Quran-i Kərimi, hz. Peyğəmbəri (s.ə.v.) və dini müəssisələri tərifləyən bütün bu sözləri, onun dinimizə olan səmimi bağlılığını göstərən konkret və müzakirəsiz sənədlərdir.

## Atatürk dini təhsilə böyük əhəmiyyət vermişdir

Din təhsilinin əhəmiyyətinin də fərqində olan Atatürk bu təhsilin məktəblərdə verilməli olduğunu bu sözləri ilə ifadə etmişdir:

> *"Hər fərd din və dəyanətini, imanını öyrənmək üçün bir yerə möhtacdır. Ora məktəbdir. Lakin necə ki, hər sahədə yüksək məktəb və ixtisas sahibləri yetişdirmək lazımdırsa, dinimizin həqiqətini tədqiq edən, araşdırıb elmi və fənni qüdrətinə sahib olacaq seçilmiş və həqiqi üləma yetişdirəcək yüksək müəssisələrə sahib olmalıyıq."6*

Dinimizin üzərində əhəmiyyətlə dayandığı mövzulardan olan elm və təhsil Atatürkün də diqqətlə yaxınlaşdığı anlayışlardandır. Peyğəmbərimiz (səv) də elmlə əlaqədar fikirlərini aşağıdakı hədislərində açıqca ifadə etmişdir:

"Elm Çində də olsa alın."

> *"Elm müsəlmanın yediyidir, harada tapsa oradan alar."*

*"Hikməti al, hər hansı qabdan çıxmasının sənə zərəri olmaz."*

Bu hədislərin də göstərdiyi kimi, elm və mədəniyyət Allahın insanlara bəxş etdiyi nemətlərdir; və müsəlmanlar bu nemətləri ən təsirli şəkildə öyrənməli və istifadə etməlidirlər. Bu açıq fikirli yanaşmanı mənimsəyən Atatürk də elm Çində belə olsa onu almağı, digər sözlə Türkiyəni müasir mədəniyyətlər arasına daxil etməyi ən əhəmiyyətli hədəf olaraq qəbul etmişdir:

*"Övladlarımızı o surətlə təlim və tərbiyə etməliyik, onlara o surətlə elm və mədəniyyət verməliyik ki, ticarət, kənd təsərrüfatı, incəsənət aləmində və bütün bunların fəaliyyət sahələrində faydalı olsunlar, əməli üzv olsunlar. Buna görə də maarif proqramımız, gərək ilk təhsildə, gərək orta təhsildə veriləcək bütün şeylər bu düşüncəyə görə olmalıdır."7*

Atatürk məktəblərin cəmiyyət həyatındakı əhəmiyyəti ilə əlaqədar olaraq da bunları dilə gətirmişdir:

*"Məktəb adını həmişə birlikdə hörmətlə, təzimlə zikr edək. Məktəb gənc beyinlərə, insanlığa hörməti, millət və məmləkətə sevgini, istiqlalın şərəfini öyrədər. İstiqlal təhlükə altında olduğu zaman onu qurtarmaq üçün təqibi uyğun olan ən sağlam yolu bəlli edər. Məmləkət və milləti qurtarmağa çalışanların eyni zamanda peşələrində namuslu mütəxəssis və bir alim olmalıdır. Bunu təmin edən məktəbdir."8*

*"Xütbədə məqsəd ictimai maarifləndirmə və xalqa yol göstərməkdir"9 deyən Atatürk, həm müasir mədəniyyəti mənimsəmiş, həm də dininə səmimiyyətlə bağlı bir millət istəmişdir. Onun həqiqi məqsədi və bizə buraxdığı miras budur.*

## Dini qaynaqların tərcüməsi

Allah Quranı insanlara bir rəhbər və rəhmət olaraq endirmişdir. Allah Quranla insanları qaranlıqdan aydınlığa çıxarar, onlara qurtuluş yollarını göstərər. Quranın bu

xüsusiyyətini bizə bildirən ayələrdən biri belədir:

> *“Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.*
>
> **(Sad surəsi, 29)**

Atatürk də Quranı rəhbər etmiş bir müsəlmandır. Həyatının hər dövründə Quran təhsilinə çox böyük əhəmiyyət vermişdir. Hafiz Zeki Çağlayarman Atatürkün bu tərəfini belə izah etmişdir:

> *“Atatürkün bacısı Makbule xanımla uzun illər qonşuluq etdik. Hər il Ramazan ayı yaxınlaşınca Atatürk bacısına; “Makbule, Ramazan gəlir, anamıza hatim oxutmağı unutma” deyər və hatim oxuyacaq Hafizə hədiyyə edilməsi üçün zərfin içərisində pul verərdi.”10*

Atatürk Qurana olan bağlılığını onu “Kitab-ı Ekmel” yəni (Ən mükəmməl kitab) deyərək dilə gətirirdi. Dolmabahçe sarayı və Çankaya köşkünə hafizləri çağırdaraq tez-tez Quran oxudar, ayələr üzərində araşdırmalar edər və hafizlərlə tərcümə və təfsir mövzularında fikir mübadiləsi edərdi.


◉ Adana Ulu məscidinə səfəri zamanı

Atatürk Quranın mənasının xalq tərəfindən başa düşülməsi üçün də çox böyük səy göstərmişdir. Bu məqsədlə o dövrdə var olmayan türkcə tərcümə və təfsir yazılmasını istəmişdir. Hadimli Əfəndinin “Hulasatü'l Bəyan fi Tefsiri'l Quran” və Almalılı Həmdi Yazarın “Haqq din Quran dili: Yeni tərcüməli türkcə təfsiri” başda olmaqla Cümhuriyyətin ilk 15 ilində, yəni Atatürkün yaşadığı müddətdə, Quranla əlaqədar 10 əsər yazılıb nəşr edilmişdir. Bu əsərlərin əksəriyyəti başda 1936-ci il Həmdi Yazara etdirdiyi əsər olmaqla xalqımıza pulsuz paylanılmışdır. Türk dilinə tərcümə edilən hədislər də xalqımıza həqiqi İslamı öyrətmə məqsədi ilə yenə pulsuz paylanılmışdır.11 Yenə eyni dövrdə məscidlərin din adamı ehtiyaclarını qarşılamaq məqsədi ilə İmam-Natiq məktəbləri açılmışdır.

Atatürk dinin əhyası istiqamətində reallaşdırdığı bu fəaliyyətləri belə izah edir:

*"İlk olaraq Quranın dilimizə tərcümə edilməsini istədim. Bu da ilk dəfə Türk dilinə tərcümə edilir: Hz. Məhəmmədin (s.ə.v.) həyatına aid bir kitabın tərcümə edilməsini əmr etdim."12*

Atatürk məscidlərdə oxunan xütbələrin həqiqi məqsədinə çatması, yəni insanlara faydalı və yol göstərici olması üçün aldığı tədbirləri də belə açıqlayır:

*"Xütbədən məqsəd; xalqın aydınlanması və xalqa yol göstərməkdir. Xütbə oxuyan şəxslərin siyasi vəziyyəti, cəmiyyət vəziyyətini, sivilizasiya vəziyyətini, sivilizasiya dünyasının problemlərini hər gün izləmələri əsas şərtdir. Bunun üçün xütbələr tamamilə Türkcə və günümüzə uyğun olmalıdır və olacaq." (Balıkəsir xütbəsi)13*

Quranın xalqa öyrədilməsi və açıqlanması çalışmaları da Atatürkün dinə olan inancının və dinə xidmət anlayışının açıq bir göstəricisidir. O dövrə qədər türk dilinə tərcümə edilməyən Quran, ilk olaraq Atatürk dövründə türkcə tərcümə və təfsir edilmiş; bununla cəmiyyətin Quranı anlaması və ondan öyüd alması hədəflənmişdir. Necə ki, bu Quranın endirilmə məqsədidir. Ayələrdə Quranın insanlar tərəfindən başa düşülməsinin və öz dillərində oxunub qavranmasının əhəmiyyətinə belə işarə edilir:

*"Biz Quranı sənin dilində asanlaşdırdıq ki, onlar öyüd-nəsihət ala bilsinlər.*

**(Duxan surəsi, 58)**



> *“Əgər Biz onu yad bir dildə Quran etsəydik, onlar deyərdilər: “Nə üçün onun ayələri müfəssəl izah edilməmişdir? Yad dil və ərəb peyğəmbər?!” De: “O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır”. İman gətirməyənlərin isə qulaqlarında tıxac vardır. Onlar ona qarşı kordurlar. Onlar sanki uzaq bir yerdən çağırılırlar.*
>
> **(Fussilət surəsi, 44)**

## Atatürkün dünyəvilik qanunu

### Dünyəvilik qanunu və İslam

Türkiyə cümhuriyyəti konstitusiyamızda ifadə edildiyi kimi “dünyəvi” dövlətdir. Dünyəvilik, tarixdə və dövrümüzdə bəzən səhv başa düşülmüş və səhv tətbiq olunmuş bir qanundur. Bu səbəblə, bu qanunu və nəticələrini təfərrüatları ilə araşdırmaqda fayda vardır.

Əvvəlcə ifadə edilməlidir ki, dünyəvilik qanununun təməl məqsədi cəmiyyətdə inanc və ibadət azadlığını təsis etməkdir. Dünyəvilik dövlətimizin vətəndaşlarını bir dini mənimsəmə, bu dinin gərəklərini yerinə yetirmə, ya da yetirməmə mövzusunda öz vicdanları ilə baş-başa buraxır; bu da onlara azad seçim imkanı verir. Bu qanun ilə Türkiyə cümhuriyyətinin hər vətəndaşı, sahib olduğu inanca görə azad həyata və ibadət etmə imkanını və zəmanətini tapacaq.

1938-ci ildə nümayiş olunan Cümhuriyyət Xalq Partiyasının On beşinci ili kitabında Atatürkün sağlığında mənimsənən “dünyəvilik prinsipi” bu şəkildə izah edilmişdir:

> *“Milli və sosial həyata fərdin dinsiz, o və ya bu etiqad sisteminə mənsub olması, milli və sosial vəzifəsi baxımından nə bir qüsur, nə də bir fəzilət sayıla bilməz. Türkiyədə dinin dünya işlərindən ayrı tutulduğu, dünyəviliyin elan olduğu andan etibarən heç kim, heç bir ibadətə məcbur edilə bilməz. Heç kim vicdanının ilhamı ilə qəbul etdiyi ibadətdən məhrum oluna bilməz.”14*

Diqqət yetirilsə görüləcək ki, Türkiyə Cümhuriyyəti dövlətinin sahib olduğu bu dünyəvilik modeli əslində İslam dininə də uyğundur. Çünki İslam inanc üçün azad iradəni və vicdanı şərt qəbul edir. Bir insanın İslamı din olaraq mənimsəməsi tamamilə öz azad iradəsinə bağlıdır. İslamı qəbul etdikdən sonra da Quranda əmr edilən ibadətləri icra etməsi, ya da qoyulan qadağanlardan çəkinməsi; tamamilə şəxsin öz vicdanı ilə əlaqədardır. Əlbəttə müsəlmanlar bir-birlərini Quranda

izah edilən əxlaqi xüsusiyyətlərin tətbiq olunması üçün xəbərdar edə bilər, təşviq edə bilərlər. Amma bu mövzuda əsla məcbur edilə bilməz, insan təzyiq yolu ilə dini icra etməyə yönləndirilə bilinməz.

Qısacası, dünyəvilik bütün yurddaşların vicdan, ibadət və din azadlığını zəmanət altına almaqdır. Atatürkün dünyəvilik fikrini açıqlayan akademik Əli Fuad Başgil bu mövzu ilə əlaqədar belə demişdir:

> *“Qısaca dünyəvilik, din azadlığını və bundan yaranan vətəndaşlıq haqlarını düşmənlərə qarşı qorumaqdır. Dövlət həyatında dünyəviliyin məqsədi budur. Dünyəvi dövlət din azadlığını və dindarı hər növ hücuma qarşı qoruyan dövlətdir.”*

Prof. dr. Hamza Eroğlu da dünyəviliyi, “din azadlığının və bundan yaranan haqların qorunması və təminatı” üçün zəruri bir şərt olaraq göstərir.15

Bunun əksi dövlət modelini düşünək: məsələn, insanların zorla müsəlman, ya da xristian edildiyi bir ölkəni düşünək. Üstəlik, bu dinlərə inanan şəxslərin, dinlərin qaydalarına görə yaşamaları üçün də məcbur edildiklərini fərz edək. Tutaq ki, bu dövlət modeli cəmiyyətdəki insanları namaz qılmaları, ya da kilsəyə getmələri üçün dövlətin hərbi qüvvələri ilə məcbur etsin. Ya da bir az daha “mülayim” bir üsul mənimsəyib, namaz qılanlara, ya da kilsəyə gedənlərə mükafat verilsin... Belə dövlət, dünyəviliyə tamamilə zidd olacaq. Üstəlik, bu cür davranışlar İslama və Quran əxlaqına da zidd olacaq.

Çünki zorla, ya da mənfəət qarşılığı əldə edilən bir dini inancın, ya da ibadətin, İslama görə heç bir dəyəri yoxdur. İnanc və ibadət Allaha və Allah rizası üçün olduğunda bir dəyər daşıyar. Əgər dövlət insanları inanca və ibadət etməyə məcbur etsə, insanlar dövlətdən qorxduqları üçün dindar olarlar. Din baxımından məqbul olan vicdanların tamamilə sərbəst buraxıldığı bir mühitdə dini yaşanmasıdır.

Dövlətimizin təməl qanunlarından olan dünyəvilik, həm vicdan azadlığı kimi təməl insani dəyərə xidmət etdiyi, həm də bu dəyərə böyük əhəmiyyət verən İslam dini ilə uyğunlaşdığı üçün hər türk vətəndaşının mənimsəməli və müdafiə etməli olduğu bir qanundur.

Atatürk dünyəvilik qanununu belə açıqlamışdır:

> *“Din vicdan məsələsidir. Hər kəs vicdanının əmrinə uymaqda sərbəstdir. Biz də dinə hörmət edirik. Düşünməyə və düşüncəyə qarşı deyilik. Biz yalnız din işlərini, dövlət və millət işləri ilə qarışdırmamağa çalışırıq. Niyyət və hərəkətə əsaslanan mühafizəkar hərəkətlərdən çəkinirik.”16*

*"Türkiyə cümhuriyyətində hər yetkin insan dinini seçməkdə azad olduğu kimi dinin mərasimi də sərbəstdir. Yəni ibadət azadlığına toxunulmamalıdır. İbadətlər asayiş və ümumi əxlaq qaydalarına qarşı ola bilməz; siyasi nümayiş şəklində edilə bilməz. Türkiyə cümhuriyyətində hər kəs Allaha istədiyi kimi ibadət edər. Heç kimə dini fikirlərinə görə bir şey edilə bilməz..."17*

Atatürkün bu açıqlamalarından da aydın olduğu kimi, dünyəvilik din azadlığını müdafiə edir. Bunun əksini müdafiə edən bəzi art niyyətli şəxslərə ən gözəl cavabı yenə Atatürk vermişdir:

*"Dünyəvi hökumət anlayışından dinsizlik mənası verməyə çalışan fəsadçılara fürsət verməyin."18*

Bir fransız jurnalistlə etdiyi reportajda, "islahatların dinə qarşı necə davrandığı" sualına da Atatürk bu cavabı vermişdir:



*"Siyasətimizi dinə zidd olmaq bir tərəfə, din baxımından əskik belə hiss edirik."19*

Atatürkün dünyəvilik tərifi İslamın ruhuna və məqsədinə tamamilə uyğundur. Quran-i Kərimdə bir kimsənin dini qəbul etməsinin öz qərarına bağlı olduğu, dini qəbul etməzsə, bunun üçün ona zor tətbiq edilə bilməyəcəyi belə bildirilir:

Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.



“

(Bəqərə surəsi, 256)

## Səmimi dindar Atatürk

Atatürk İslam əxlaqını və dinimizin öhdəçiliklərini hələ ailə ocağında ikən öyrənmiş, təhsil həyatı boyunca da bu məlumatlarını gücləndirərək inkişaf etdirmişdir. Mustafa Kamal “Mülayim-müasir-dindar” quruluşun ən gözəl nümunəsi və ən müvəffəqiyyətli tətbiq edicisi, dünyəvi Cümhuriyyətimizin qurucusudur. Atatürk mövhumatçılıq ilə mübarizə edərkən İslamı ucaltmış; bu səbəbdən, bu ikisi arasındakı ayrı-seçkiliyi ən doğru şəkildə etmişdir. Dərgahlar, türbələr onun dövründə bağlanmış, amma ilk Türkcə Quran tərcüməsi də yenə onun dövründə nəşr olunmuşdur. Türk insanının ehtiyaclarını və xüsusiyyətlərini çox yaxşı bilən; həmişə mövhumatçılığa qarşı çıxan Atatürk; türk millətini dinin əsasına yönəltməyi məqsəd qoymuş və bu gün millət olaraq hədəf etdiyimiz quruluşu hər tərəfi ilə təcəlli etdirmişdir.

Şübhəsiz ki din, Atatürkün də diqqət çəkdiyi kimi; demokratiyanın və milli bütövlüyümüzün imtina edilməz ehtiyacıdır. Millətin bütün üzvlərini bir yerdə tutmaq üçün ən güclü bağ olan din; ailə, əxlaq və dövlət müəssisələrinin də davamını təmin edən ən əhəmiyyətli ünsürdür.

Din əxlaqının var olmadığı və ya dini dəyərlərin ortadan qalxdığı bir cəmiyyətdə, bunun qaçınılmaz nəticəsi olaraq ailə, əxlaq və dövlət anlayışları da etibarlılığını itirəcək və qısa müddət sonra da ortadan qalxacaq. Üstəlik bu cür hadisə, nə qədər qədim tarix və mədəniyyətə əsaslansa da, milləti bir-birinə bağlayan milli və mənəvi bütün bağların parçalanmasına, anarxiyanın dirilməsinə və cəmiyyətin bölünməsinə səbəb olacaq.

Məhz bu səbəblərə görə cəmiyyətin imtina edilməz bir parçası olan din müəssisəsinin davamını təmin edə bilməyən bir millətin sosioloji və elmi baxımdan ayaqda dayanması mümkün deyil. İstər insan, istərsə də cəmiyyət baxımından dinin lazımi müəssisə olduğunu ifadə edən, siyasi sahədə etdiyi saysız islahatla bu sağlam dünyagörüşünü geniş kütlələrə yaymağı hədəfləyən Atatürk; Türk millətinin dindar olmasını və dini dəyərlərini mühafizə etməsini, “Din vacib müəssisədir. Dinsiz millətlərin davamına imkan yoxdur”; “Din vardır və lazımdır”20 sözləri ilə təşviq etmişdir. Millətini batil inanclardan təmizləməyi və həqiqi dinə yönəltməyi məqsəd qoymuşdur.

Böyük öndər həqiqi dinin təməlini və müsəlmanların mövzunu hansı meyarlara görə qiymətləndirməli olduğunu, 7 fevral 1923-ci ildə Balıkəsirdəki Paşa Məscidində verdiyi xütbədə onu dinləyənlərə belə ifadə etmişdir:



◉ 1923-cü ildə Qonyadakı bir mədrəsəyə səfəri zamanı

*"Allah birdir, şanı böyükdür. Allahın salamı, sevgisi üzərinizə olsun. Allah Peyğəmbərimizi insanlara dini həqiqiləri deməyə vəzifəli və elçi seçmişdir. Bunun təməl əsası, hamımız tərəfindən bilinir ki, Uca Qurandakı mənası açıq olan ayələrdir. İnsanlara bolluq ruhu verən dinimiz son dindir. Ən mükəmməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə tamamilə uyğundur."21*

Atatürk İslam dininin elmə və məntiqə tamamilə uyğun bir din olduğunu bir başqa çıxışında da belə ifadə etmişdir:

*"Bizim dinimiz ən məntiqli və ən təbii dindir. Və bu, son din olduğu üçündür. Bir dinin təbii olması üçün ağla, texnikaya, elmə və məntiqə uyğun olmalıdır. Bizim dinimiz bunlara tamamilə uyğundur... İslamın sosial həyatı içində heç kimin xüsusi sinif halında varlığını davam etdirmə haqqı yoxdur. Özlərində belə bir haqq görənlər dini qaydalara uyğun davranmırlar. Bizdə ruhanilik yoxdur, hamımız bərabərik və dinimizin qaydalarını bərabər olaraq öyrənməyə məcburuq"22*

Böyük öndər Atatürk Türk millətinin dindar olmasını və dini dəyərlərini mühafizə etməsini də tez-tez vurğulamışdır. Atatürkün Osmanlı dövlətinin çöküşünü dinə bağlayan Türk düşmənlərinə cavabı bu olmuşdur:



◉ Atatürkün Balıkəsirdə qarşılanması.

*"Düşmənlərimiz bizi dinin təsiri altında qalmaqla ittiham edir, dayanmağımızı və çöküşümüzü buna bağlayırlar; bu yanlışdır. Bizim dinimiz heç vaxt qadınların kişilərdən geri qalmasını tələb etməmişdir. Allahın əmr etdiyi şey müsəlman kişi ilə, müsəlman qadının birlikdə din təhsilidir. Qadın və kişi bu elm və təhsili axtarmaq və harada tapsa oraya getmək və onunla hazırlaşmaq məcburiyyətindədir. İslam və Türk tarixi araşdırılsa görülər ki, bu gün özümüzü min bir cür qayda ilə bağlanmış zənn etdiyimiz şey yoxdur. Türk sosial həyatında qadınlar elmi tərəfdən təhsil alıb və digər mövzularda kişilərdən qətiyyən geri qalmamışlar. Bəlkə daha irəli getmişlər."23*

Atatürk, dini məsələlər haqqındakı fikirlərini öyrənmək istəyən fransız jurnalist Maurice Pernoya yenə qəti şəkildə bu cavabları vermişdir:

M. Perno, bu halda yeni Türkiyənin siyasətində dinə zidd heç bir meyllilik və mahiyyət olmayacaq?

Atatürk: "Siyasətimizi dinə zidd olmaq bir tərəfə, dini baxımdan əskik olduğunu hiss edirik."

M. Perno: Əlahəzrət düşündüklərini bəndənizə daha yaxşı izah edərmi?

Atatürk: "Türk milləti daha dindar olmalıdır, yəni bütün sadəliyi ilə dindar olmalıdır, demək istəyirəm. Dinimə şəxsən həqiqətə inandığım kimi inanıram. Şüura müxalif, tərəqqiyə maneə heç bir şey ehtiva etmir. Halbuki, Türkiyə istiqlalını verən bu Asiya milləti içində daha qarışıq, süni, batil inanclardan ibarət bir din daha vardır. Lakin bu cahillər, bu acizlər sırası gəlincə aydınlanacaqlar. Əgər işığa yaxınlaşa bilməzlərsə, özlərini məhv və məhkum etmişlər deməkdir. Onları qurtaracağıq."24


◉ Atatürkün bacısı Məqbulə xanım

Atatürk, hər tərəfli olduğu kimi dindarlığı ilə da millətinə ən gözəl nümunə olmuşdur. Ulu öndər dindar şəxsiyyətinin bir göstəricisi olaraq, din adamlarına qarşı həmişə hörmətcil olmuş və onlara hörmət etmişdir.

Cümhuriyyətin ilk Diyanət İşləri Başçısı Rıfat Börekçi Atatürkün ona göstərdiyi hörməti belə izah etmişdir:

> *“Atanın hüzuruna girəndə məni ayaqda qarşılayardı. Utanar, əzilər, büzülər, “Paşam, məni xəcalətli edirsiniz” dediyim zaman “din adamlarına hörmət göstərmək müsəlmanlığın zərurətlərindəndir” deyərdi. Atatürk şəxsi mənfəətləri üçün müqəddəs dinimizi siyasətə alət edən cahil din adamlarını sevməzdi.”25*

Atatürk mövhumatçılığa qarşı idi. Bu həqiqəti Atatürk bu cür dilə gətirmişdi:

> *“Türklər müsəlman olduqları halda, pozulmağa, yoxsulluğa, geriləməyə məruz qaldılar; keçmişin batil vərdiş və inancları ilə İslamiyyəti qarışdırdıqları və bu surətlə həqiqi İslamiyyətdən uzaqlaşdıqları üçün özlərini düşmənlərinin əsiri etdilər. Həqiqi İslamın çox uca, çox qiymətli həqiqətlərini olduğu kimi qəbul etməməkdə təkid etdilər. Geriləməyimizin müəyyən səbəblərini bu nöqtə təşkil edir...”26*

Atatürk həqiqi İslamın xalqa izah edilməsi üçün çalışmışdır. “Ağla, fənnə, elmə uyğun...”27 ifadəsi ilə də ifadə etdiyi kimi, Atatürk dinin əsasını təşkil edən Quran əxlaqının xalqa izah edilməli olduğu mövzusunun üzərində dayanmışdır.

İslam dini haqqında belə gözəl fikirlərə sahib olan və hər mühitdə bu düşüncələrini dilə gətirən Atatürkün Allahdan qorxan, Allahın əmrlərini əlindən gəldiyi qədər yerinə yetirməyə çalışan bir müsəlman olduğu açıqdır.



## Atatürkün dindar şəxsiyyəti

Vəfatından bu günə qədər Atatürklə əlaqədar bir çox əsər qələmə alınmış, konfranslar və yığıncaqlar təşkil edilmiş, müxtəlif izah və qiymətləndirmələr edilmişdir. Şübhəsiz Atatürk; tarixin şahid olduğu ən böyük komandir və dövlət adamlarından biridir. Bunu bütün dünya qəbul edir.



◉ Atatürk anasının məzarı başında.

Atatürkün burada saydığımız xüsusiyyətləri əslində onu tanımaq üçün kifayətdir. Ancaq Atatürk bütün bu üstün xüsusiyyətlərindən başqa, həyatında və davranışlarında əhəmiyyətli yer tutan, sosial tərəfini və xarakterini təyin edən və İslam əxlaqından qaynaqlanan başqa bir çox xüsusiyyətə də malikdir. Təvazökarlığı, tolerantlığı, sülhsevər və mülayim şəxsiyyəti; romantiklikdən uzaq, ağıllı quruluşu; əxlaq anlayışı; dininə qarşı həssaslığı; dayanıqlılığı, geyiminə, təmizlik və baxımına, sənət və estetikaya verdiyi əhəmiyyəti bu xüsusiyyətləri arasında saya bilərik.

TBMM-nın açılışı üçün hazırlatdığı məlumat, ya da Balıkəsirdə verdiyi xütbə belə, tək başına Atatürkün dindar şəxsiyyətini gözlər önünə sərmək üçün kifayətdir.

## Atatürkün İslamda vicdan azadlığı mövzusundakı açıqlaması

İslamiyyət insanları din əxlaqına uymağa çağırır. Din əxlaqını yaşamağı qəbul edənin mükafatı və ya qəbul etməyənin cəzası Allah qatındadır. Müsəlmanlara bu mövzuda düşən vəzifə insanları Allah yoluna çağırmaqdır. Bu dəvətə uyub uymamaq insanın öz seçimidir. Atatürkün bu mövzu ilə əlaqədar aşağıdakı sözləri Quran əxlaqına tamamilə uyğun gəlir:

> *"Din bir vicdan məsələsidir. Hər kəs vicdanının əmrinə uymaqda sərbəstdir. Biz dinə hörmət edirik. Düşüncə və təfəkkürə müxalif deyilik. Biz yalnız din işlərini millət və dövlət işləri ilə qarışdırmamağa çalışır, niyyət və əmələ əsaslanan təəssübkeşlikdən qaçırıq."28*

## Məsləhətləşməyə verdiyi əhəmiyyət

Atatürkün məsləhətləşmə (istişarə), yəni fərqli insanların fikirlərini almağa verdiyi əhəmiyyət bir qaynaqda belə izah edilir:

*"O, xariqüladə zəkasına, böyük görüş gücünə, hadisələri təhlil dərinliyinə əsaslanmaqla bərabər başqalarının fikir və mütaliələrinə də qiymət verərdi. Onun ən güclü tərəfi, ən böyük qüdrəti, bəlkə məsləhətləşmə etməyi bilməsi və sonra öz bənzərsiz məntiqini hadisələrə hakim etməsi idi."29*

Atatürk də özünün bu xüsusiyyətini bu cümlələrlə yekunlaşdırmışdır:

*"Mən diktator deyiləm... Çünki mən zorakı və insafsız davranmağı bilmirəm. Mən qəlbləri qıraraq deyil, qazanaraq hökm etmək istəyirəm."30*

Atatürkün məsləhətləşmə və digər insanlarla yumşaq davranma kimi xüsusiyyətləri, Quranda bildirilmiş mömin xüsusiyyətlərindəndir. Allah Quranda müsəlmanları təsvir edərkən "işləri barədə öz aralarında məsləhətləşir" (Şura surəsi, 38) buyurur. Bir başqa ayədə isə, insanlara yumşaq söz söyləmək belə əmr edilir:



◉ Atatürk hər cür məsələdə ətrafındakıların fikirlərini dinləməyə və onlarla məsləhətləşməyə əhəmiyyət vermişdir.

*"Əgər sən Rəbbindən dilədiyin mərhəməti umaraq onların üzünə baxmırsansa (imkanın olmadığı üçün onlara bir şey verə bilmirsənsə), onda onlara xoş söz de.*

**(İsra surəsi, 28)**

Peyğəmbərimiz (s.ə.v.) də həmişə insanlara çox yumşaq və mülayim davranmış, onlarla məsləhətləşib fikirlərini almışdır. Bir ayədə Peyğəmbərimizin (s.ə.v.) bu xüsusiyyətləri belə izah edilir:

> *"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.*
>
> **(Ali- İmran surəsi, 159)**

## Qərarlılıq

Ən əhəmiyyətli mömin xüsusiyyətlərindən biri də qərarlılıqdır. Bir ayədə zalım inkarçılara boyun əyməyən Kəhf əhlinin qərarlılığı belə bildirilir:

> *"Onlar kafir hökmdarın qarşısında durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir küfr danışmış olarıq!" - deyərkən onların qəlbinə güc verdik."*
>
> **(Kəhf surəsi, 14)**

Qərarlılıq Atatürkün də ən diqqətə çarpan xüsusiyyətlərindən idi. O müsəlman torpağı Türkiyəni işğalçı güclərdən qorumaq üçün həyatı boyunca çox qərarlı mübarizə apardı. Bütün çətinliklərə baxmayaraq, Samsuna ayaq basdığı andan Milli mübarizənin sonuna qədər səyindən əsla imtina etmədi. Atanın bu fərdi xüsusiyyətinin ən gözəl nümunələri Samsuna ayaq basmasından Ərzurum konqresinə uzanan dövrdə görülür. Xalqın və hökumətin böyük ümidsizliyə qapıldıqları anda, onun dayanıqlılığı və davasına olan inancı, müvəffəqiyyətə gedən yolda tək işıq olmuşdu.

Mustafa Kamal Paşa bu çətin dövrdə bir tərəfdən komandirlərlə təmas qurur, ediləcək müdafiə mövzusunda onlarla fikir birliyi təmin etməyə çalışır; bir tərəfdən də yorğun və pərişan vəziyyətdə olan xalqın əhvalını və özünə olan etibarını gücləndirməyə məşğul olurdu. Çalışmaları bu mövzuda möhkəm təməllər atmasını təmin etdi və ətrafına, iş yoldaşlarına və xalqa mənəviyyat aşılamağı bacardı.

Atatürkün qərarlığının bir başqa nümunəsi də Sakarya meydan müharibəsindən əvvəl yaşanan hadisələrdə görülər.

Sakarya meydan müharibəsindən əvvəl Türk ordusuna görə daha çox olan; daha müasir silahlara və daha çox ərzağa sahib olan Yunan ordusu çox böyük hücum başlatmışlar. Bu vəziyyət qarşısında Türk ordusu geriləməyə başladı. Belə ki, Yunan toplarının səsləri Ankaradan eşidiləcək nöqtəyə gəlmişdir. TBMM-də bir qarışıqlıq yaşanmağa başlanmış, cəbhəyə millət vəkillərindən ibarət olan bir heyət göndərilmişdir. Xalqda və Məclisdə yaranan havanı fərq edən Atatürk; bir bildiriş nəşr edərək bütün xalqın əhvalını düzəltmiş, zəfərə olan inancını təkrar təmin etmişdir. Atatürkün aşıladığı bu inanc və güvən duyğusu qısa müddət sonra böyük zəfərə vəsilə olmuşdur. Bildirişdə bunlar yazılmışdır:



◉ Atatürk ömür boyu qərarlı bir mübarizə aparmış, qarşısına çıxan maneələr qarşısında heç vaxt yılmamış və məqsədindən dönməmişdir.

> *"Düşmənin irəliləməsi ehtimalına qarşı xalqın qəti şəkildə tərəddüd və şübhə etməsinə yer yoxdur. Düşmənin Anadolu və içlərinə doğru uzanmaq istəyən qolları məzarlarına yaxınlaşır; bu yeni səfər, düşmənin ölüm səfəridir. Allahın köməyi, yaxın hadisələr bu nəticəni göstərəcək."31*

Osmanlı dövlətinin müvəffəqiyyətli olmasındakı ən əhəmiyyətli faktorlardan biri kimi padşahların ordunu şəxsən əmr etmələri göstərilir. Padşahın ordunun şəxsən başında olması əsgərlərə böyük ruh yüksəkliyi vermişdir. Lakin dayanma və geriləmə dövrlərində padşahlar ordunu vəkillərinə əmanət etməyə başlayıblar; bu da əsgərin əhvalına mənfi təsir etmişdir. Milli mübarizə dövründə ordu təkrar millətin lideri tərəfindən şəxsən sövq və idarə edilməyə başlanmışdır.

Qurtuluş müharibəsi əsnasında əsgər sayı və sursat baxımından çox məhdud imkanlara sahib olan ordumuz; Atatürk və silah yoldaşlarının cəsarət və qərarlılığından aldığı əhvalla tarixdə misli görülməmiş bir zəfərə imza atmışdır. Yalnız Qurtuluş müharibəsi dövrü deyil, I Dünya Müharibəsində də Atatürkün cəsarəti çox böyükdür. Mustafa Kamal Çanaqqalada yaralanmış, Sakarya döyüşü əsnasında da qabırğa sümüyü qırılmışdır. Buna baxmayaraq, yaralı olaraq xərək üzərində ordunu idarə etmişdir. Atatürkün bu cəsarəti və qərarlılığı inandığı müqəddəs dəyərlərdən qaynaqlanır.

Atatürkün illər sonra Hafiz Sadəttin Kaynaka Türk ordusu üçün hazırlatdığı xitab; onun şəhidliyə, vətən yolunda mübarizəyə verdiyi əhəmiyyəti açıqca ortaya qoyur. Atatürk ordu müfəttişləri üçün hazırlatdığı bu xitabda aşağıdakı Quran ayələrinə yer vermişdir:

> *Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir.*
>
> **(Ali-İmran surəsi, 169)**

> *Ey iman gətirənlər! Kafir bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.*
>
> **(Ənfal surəsi, 45)**

> *Onlara (düşmənlərə) qarşı bacardığınız qədər qüvvə və (müharibə üçün) bağlanmış atları hazırlayın! Bunlarla, Allahın və sizin düşməninizi, həmçinin Allahın bilib sizin bilmədiyiniz başqa kimsələri qorxudarsınız. Allah yolunda nə xərcləsəniz, sizə tam olaraq ödənilər və siz heç bir haqsızlığa məruz qalmazsınız.*
>
> **(Ənfal surəsi, 60)**

Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır. İndi Allah sizin yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda min səbirli kişi olsa, Allahın izni ilə kafirlərdən iki mininə qalib gələr. Allah səbir edənlərlədir. (Ənfal surəsi, 65-66)

Şübhəsiz Allah, Öz yolunda, sanki bir-birlərinə birləşmiş bir bina kimi saf bağlayaraq vuruşanları sevər. (Saf Surəsi, 4)

Ey iman gətirənlər! Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi? Allaha və Onun Elçisinə iman gətirin, Allah yolunda malınız və canınızla cihad edin. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir. Bu təqdirdə O sizin günahlarınızı bağışlayar və sizi ağacları altından çaylar axan Cənnət bağlarına və Ədn bağlarındakı gözəl məskənlərə daxil edər. Bu, böyük müvəffəqiyyətdirr. (Saff surəsi, 10-12)32

Atatürkün Türk ordusunun müfəttişləri üçün, içində Quran ayələri olan bir kitabça hazırlatması, mənəviyyata nə dərəcə əhəmiyyət verdiyini açıqca ortaya qoyur.

## Atatürkün bir başqa xüsusiyyəti: Təvazökarlıq

Atatürkün ən əhəmiyyətli xüsusiyyətlərindən biri də dövrünün dahilik və müvəffəqiyyətlərlə dolu həyata sahib olmasına baxmayaraq, çox təvazökar olması idi.

Təvazökar olmaq Quran ayələrində tövsiyə edilən əhəmiyyətli müsəlman xüsusiyyətlərindəndir. Bu mövzu ilə əlaqədar ayələrdən bəziləri belədir:

> *“Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: “Salam!” - deyərlər.*
>
> **(Furqan surəsi, 63)**

...Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver. (Həcc Surəsi, 34)

Atatürkün təvazökarlığını ortaya qoyan sənədlərdə şəxsiyyətinin bir başqa xüsusiyyəti də ön plana çıxır. Bu xüsusiyyət, söyləmək istədiyini ən təəccüblü sözlərlə, ən gözəl şəkildə izah etmədəki ustalığıdır. Atatürk qarşısındakı insanları həmişə qürurlandırmış və bunu edərkən söz ifadə etmə sənətindəki ustalığından istifadə etmişdir. Təvazökarlığı, natiqlikdəki ustalığı; dünya tarixində çox az insanda görülən həqiqi bir mömin xüsusiyyətidir. Bir ayədə belə buyurulur:





> *“ Təkəbbürlə insanlardan üzünü çevirmə və yer üzündə lovğalanaraq gəzmə! Şübhəsiz ki, Allah özündən razı və özünü tərifləyən kimsələrin heç birini sevməz.*
>
> **(Loğman surəsi, 18)**

## Çalışqanlığı

Atatürk çalışqan olmağın əhəmiyyətini təkidlə vurğulamış, üstəlik, bunun İslam dininin bir gərəyi olduğu üzərində dayanmışdır. Aşağıdakı sözləri bu mövzudakı düşüncələrini ortaya qoyur:

> *“Ötən zamana nisbətən daha çox çalışacağıq, daha az zamanda böyük işlər bacaracağıq. Bunda da müvəffəq olacağımıza şübhəm yoxdur. Çünki Türk millətinin xarakteri yüksəkdir.” (Onuncu il nitqi)*

İfadə etdiyimiz kimi, Atatürkün bu öyüdləri Quran əxlaqına uyğundur. Quranda Allah insana çalışqan olmağı belə əmr edir:

> *“ İşlərini qurtaran kimi Allah yolunda çalış!*
>
> **(İnşirah surəsi, 7)**

## Atatürkün gözəl danışıq haqqındakı nəsihətləri

Quranda olan əhəmiyyətli mömin xüsusiyyətlərindən biri də insanlara gözəl söz söyləməkdir. Yəni insanlarla mehriban, səmimi, təsirli və ağıllı şəkildə danışmaq,

insanlara qarşı ən nəzakətli və sadə üslubu istifadə etməkdir. Quran ayələrində bu mövzunun əhəmiyyəti belə açıqlanır:

Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 24-25)



> *"Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.*
>
> **(İsra surəsi, 53)**

Atatürk də Quran əxlaqının bir parçası olan "gözəl söz söyləmə" mövzusuna böyük əhəmiyyət vermişdir. Bu, söhbətləri, nitq və bildirişləri araşdırıldığında açıqca görülür. Üstəlik, bu mövzuda cəmiyyətə də əhəmiyyətli nəsihətlər vermişdir. Atatürk aşağıdakı sözləri ilə Türk gəncliyinə bu mövzuda yol göstərmişdir:

> *"Türk gənci danışarkən, onun bəyan və ifadə tərzi, türk gənci yazarkən, onun ifadə üslubu, onu dinləyənləri, onun getdiyi yola apara biləcək; bu qabiliyyəti sayəsində türk gənci onu dinləyən və ya yazısını oxuyanları, arxasınca sürükləyərək yüksək Türk idealına çatdıra biləcək."35*

## Atatürk dinimizdə əmr edildiyi kimi sülh tərəfdarıdır

Quran Allahın insanlara yol göstərici olaraq endirdiyi bir kitabdır; Allah Quranda insanlara ən gözəl əxlaqı yaşamağı əmr edir. Bu əxlaqın təməlində, sevgi, şəfqət,

tolerantlıq, ədalət və mərhəmət kimi anlayışlar yatır. İslam fərdlər arasında olduğu kimi, cəmiyyətlər və ölkələr arasında da bu xüsusiyyətlərin hakim olmasını nəzərdə tutar.

İslam sözü ərəbcədə "sülh" sözü ilə eyni mənanı verir. İnsanlar Quran ayələrində yer üzündə mərhəmətin, şəfqətin, tolerantlığın və sülhün yaşana biləcəyi model olaraq İslam əxlaqına çağırılırlar. Bəqərə surəsinin 208-ci ayəsində belə buyurulur:

> *Ey iman gətirənlər, bütövlüklə İslama daxil olun (İslamın bütün əmrlərini yerinə yetirin)! Şeytanın addımlarını izləməyin! Şübhəsiz ki, o sizin açıq-aydın düşməninizdir.*
>
> **(Bəqərə surəsi, 208)**

Qurana görə müharibə, yalnız son çarə olaraq ediləcək və mütləq müəyyən insani və əxlaqi sərhədlər içində icra ediləcək bir "istənməyən zərurət"dir. Bir ayədə yer üzündə müharibə çıxaranların inkarçılar olduğu, Allahın isə savaş ilə razılaşmadığı belə açıqlanır:

> *...Onlar hər dəfə müharibə alovunu yandırdıqda Allah onu söndürər. Onlar yer üzündə fitnəkarlıq törətməyə səy göstərirlər. Allah isə fitnəkarları sevmir!*
>
> **(Maidə surəsi, 64)**

Peyğəmbərimiz hz. Məhəmmədin həyatına baxdığımızda da, müharibənin ancaq zəruri hallarda və müdafiə məqsədli edilən bir metod olduğunu görə bilərik.

Atatürk də İslam əxlaqının bu sülhsevər xüsusiyyətini rəhbər etmişdir. Atatürkün siyasi doktrinası eynilə Quranda əmr edildiyi kimi, lazım olduğunda müdafiə etmə məqsədli olaraq döyüşmək; əsl sülh tərəfdarı olmaqdır. Onun məşhur "Yurdda sülh, dünyada sülh" sözü bu mövzuda tarixə keçmiş bir şüardır. Atatürk bir çıxışında da belə demişdir:

> *"Cümhuriyyətin xarici siyasətdə diqqətlə güddüyü məqsəd, beynəlxalq sülhü qorumaq və güvən içində yaşamaqdır. Qonşularımızla dostluq və yaxşı dolanma yolunda hər gün bir az daha irəliləyirik."36*

## QEYDLƏR

1. Nedim Senbai, Atatürk, A. Ü. Dil, Tarix, Coğrafiya Yay., səh. 102, 1979

2. Dr. Utkan Kocatürk, Atatürk'ün Fikir ve Düşünceleri (Atatürk ve Din Eğitimi, A. Gürtaş), səh. 26

3. Şemsettin Günaltay, "Ülkü" jurnalı, 9-cu cild, sayı 100, 1945, səh. 3

4. Ahmet Gürbaş, "Atatürk ve Din Eğitimi", DİBY, səh. 28

5. Şemsettin Günaltay, "Ülkü" jurnalı, sayı 100, səh. 4

6. "Atatürk'ün Söylev ve Demeçleri", 1959, cild 2, səh. 86 (Atatürk'ün Düşünce Yapısı, G.Tüfekçi, səh. 117)

7. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 111

8. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 43

9. "Atatürk'ün Söylev ve Demeçleri", II cild, səh. 93

10. Ercümənt Demirer, "Din, Toplum ve Kemal Atatürk", səh. 10

11. Ahmet Nazım, "Kamil Miras", 1932, http://www.mkataturk.gen.tr/ozel/ozel4.html

12. Fəthi Naci, "Atatürk'ün Temel Görüşleri", səh. 55

13. "Atatürk'ün Söylev ve Demeçleri", cild 2, səh. 93

14. CHPXV. il kitabı, səh. 12-13, zikr edənŞ.S. Aydemir, A.k.ə., səh. 454

15. "Gerçek Yönüyle Atatürkçülük, Türk Devriminin Temel Prensipleri ve Cumhuriyet Rejimi", Ankara, 1965

16. Dr. Utkan Kocatürk, "Atatürk'ün Fikir ve Düşünceleri", Ankara, 1971 (Əhməd Gürtaş, səh. 34)

17. Afet İnan, "Medeni Bilgiler", səh. 470 (İntibah, noyabr 1990, səh. 23)

18. Osman Bazarlı, Sosioloji, III lisey, Remzi nəşriyyat, İstanbul, 1979

19. Maurice Pernoyla reportaj, "Akşam" qəzeti, 11 fevral 1924 (Cümhuriyyət qəzetinə əlavə, "Atatürk'le Konuşmalar", səh. 111, aprel 2000)

20. Asaf İlbay, "Yakınlarından Hatıralar", səh. 102

21. "Atatürk'ün Söylev ve Demeçleri", cild 2, səh. 93

22. "Atatürk'ün Söylev ve Demeçleri", 1959, cild 2, səh. 90

23. A.k.ə., səh. 86

24. Ahmet Gürbaş "Atatürk ve Din Eğitimi", Diyanət İşləri Nazirliyi nəşrləri, səh. 32

25. A.k.ə., səh. 12

26. Sadi Borak, "Atatürk ve Din", səh. 36-37 (İntibah, dekabr 1991, səh. 61)

27. İzmir, 3 fevral 1923-cü il, "Atatürk Diyor ki", Varlıq nəşrləri, səh. 46

28. Sadi Borak, "Atatürk ve Din", 1962 (A. Gürtaş, səh. 34)

29. “Atatürk’ün Hususiyetleri”, səh. 73

30. “Atatürk Bir Çağ’ın Açılışı”, Akademik Sadi İrmak, səh. 33

31. “Türk Tarihi, Silahlı Kuvvetleri ve Atatürkçülük, Genelkurmay Başkanlığı 50. Yıl Yayını”, 1973, səh. 252

32. Sadi Borak, “Atatürk ve Din”, 1962 (A. Gürtaş, səh. 50)

33. “Atatürk’ün Söylev ve Demeçleri”, II, 1923, səh. 128

34. “Atatürk’ün İzinde Bir Ömür Böyle Geçti”, Sabiha Gökçen, səh. 55

35. Prof. Dr. Afet İnan, “Atatürk Hakkındaki Hatıralar ve Belgeler”, səh. 285

36. “Atatürk’ün Söylev ve Demeçleri”, I, 1935, səh. 361 (Fəthi Naci, səh. 93)

IX FƏSİL

# 9 Atatürkün üstün şəxsiyyəti

Cümhuriyyət tarixi boyunca ulu öndər Atatürklə əlaqədar saysız əsər qələmə alınmış, bir çox konfrans, seminar və müsahibə təşkil edilmiş, bir çox şərh və qiymətləndirmə edilmişdir. Əlbəttə ki, Atatürk çox böyük komandir, güclü dövlət adamı, qərarlı bir islahatçıdır. Həm öz milləti, Həm də dünya millətləri baxımından çox böyük qəhrəman; bənzərsiz siyasi dahidir.

Həqiqətən də, bütün bu xüsusiyyətlər Atatürkü tanıtmaqda çox təyin edici ünsürlərdir. Bunlarla yanaşı, Atatürkün güclü və mədəni şəxsiyyətini təyin edən, insani və sosial istiqamətini ortaya qoyan başqa üstün xarakter xüsusiyyətləri də vardır: təvazökarlığını, tolerantlığını, sülhsevər şəxsiyyətini, ağıllı və duyğusallıqdan uzaq quruluşunu, milli əxlaq anlayışını, dininə qarşı həssaslığını, geyiminə, təmizlik və baxımına, incəsənət və estetikaya, süfrə ədəbinə verdiyi əhəmiyyəti saya bilərik.

Atatürkün bu mədəni şəxsiyyətini, sosial və insani cəhətləri nəzərdən keçirəcəyik. Üstün xarakter xüsusiyyətlərinə toxunaraq, hər türkün nümunə götürməli olduğu xüsusiyyətlərinə yer verəcəyik.

Burada əhəmiyyətli olan nöqtə, son hədəfin Atatürkün müstəsna şəxsiyyətinin, vətəndaşlıq şüurunu dərk edən hər türk fərdi tərəfindən nümunə götürülməsi və yaşadılmasıdır. Çünki 80 milyon olan gənc və dinamik əhali ilə, nəhəng addımlarla böyüyən iqtisadiyyatı ilə, Adriatikdən Çin səddinə qədər uzanan mədəni təsir sahəsi ilə, ən böyük çalxantıların da sarsıntıya məruz qoya bilmədiyi nümunəvi daxili sabitliyi ilə Türkiyə; heç şübhəsiz ki, 21-ci əsrə damğasını vuracaq ölkələr arasında yer alır. Belə bir ideal içində, millət olaraq nümunə götürüləcək bir xarakterə sahib olduğu da açıqdır.

Məhz bu nöqtədə böyük öndərin müstəsna şəxsiyyəti türk insanına nümunə olmağa və işıq tutmağa davam edəcək.

## Aktiv insan Atatürk

Atatürkün ən vacib xüsusiyyətlərindən biri, hərəkətli bir insan olmasıdır. Yəni düşüncələrini sözdə saxlamır; onları reallaşdırmaq üçün hərəkətə keçib ortaya konkret bir şeylər qoymağa çalışmasıdır. Avropalıların “xəstə insan” deyə xarakterizə etdiyi bir milləti ayağa qaldırmışdır. Ortaya qoyduğu və bir yerə gətirdiyi qanunlarla, ölkəni qaranlıqdan aydınlığa daşımış və çiçəklənən Türkiyənin təməllərini atmışdır. İçindəki coşğun vətən sevgisi və yoxluq içində də müvəffəqiyyəti hədəfləyən “Kuva-i Milliyə ruhu” əvvəlcə ölkəyə hərbi sahədə, sonra da sosial və iqtisadi sahədə bir çox zəfər qazandırmışdır.

Atatürk ölkə problemlərini həll edərkən, həmişə ağlın və elmin ehtiyacına görə hərəkət etmişdir. Hadisələri geniş və detallı düşünmüş; sadə hədəflər arxasında deyil, köklü həllər

arxasında qaçmışdır. Hər zaman vətənin və millətinin mənfəətlərini güdmüş, heç bir zaman fərdi mənfəətlərini əhəmiyyət verməmişdir.



◉ 1856-cı ildə inşa edilmiş Küçüksu kasrı

> *“Bu günə qədər əldə etdiyimiz müvəffəqiyyət bizə ancaq inkişaf və sivilizasiyaya bir yol açmışdır... Bizə və bizdən sonra gələnlərə düşən vəzifə, bu yol üzərində tərəddüdsüz irəliləməkdir” deyən Atatürk yeni nəsillərə, öz düşüncə və qanunları işığında getmə vəzifəsini vermişdir.*

Bu gün vətənin və millətin xeyri adına yola çıxanlardan yalnız Atatürkün açdığı yolda gedənlərin müvəffəqiyyətə çatdıqları bir həqiqidir. Ölkəmizin problemləri ilə əlaqədar olaraq yaradılan həqiqi yanaşmalar və sağlam həllər yenə Atatürkün çəkdiyi çərçivədə şəkillənir.

Elə isə Atatürkü və Atatürkçülüyü, keçmişdə qalmış parlaq bir hadisə və qanunlar toplusu kimi düşünmək; bəzəkli sözlərlə tərifləmək, yetərsiz və yanlışdır. Burada əhəmiyyətli olan Türk millətinin müasirləşməsinin resepti olan Atatürkçülüyün praktik həyata keçirilməsidir.

Ölkəmiz yeni əsrə hazırlanır. Hədəfimiz müəyyəndir: Dünyanın inkişaf etmiş və müasir dövlətləri arasındakı yerimizi almaq... Türkiyə bunu bacaracaq gücə, ağla və qaynağa malikdir. Ediləcək tək şey, Atatürkün illər əvvəl ortaya qoyduğu qanun və düşüncələrlə, yoxluqdan ortaya çıxardığı müasir Türk dövlətini, yenə eyni qanun və düşüncələrlə çağımızın üstünə daşımaq... Türkiyə bunu Atatürk ilə bacarmış və sanki bir Türk intibahı yaşamışdır. Onun qanun və düşüncələrinə sadiq qalacaq səmimi Atatürkçülərlə bu gün də bu müvəffəqiyyətin daha çoxunun göstərilə biləcəyinə inancımız tamdır.

## Atatürkün müstəqillik ehtirası

Atatürkün və Atatürkçülüyün əhəmiyyətini qavraya bilmək və səmimi bir Atatürkçü ola bilmək üçün; hər şeydən əvvəl onun həyatını araşdırmaq, nələr etdiyini, nəyi hansı düşüncə və ruh halı içərisində reallaşdırdığını yaxşı analiz etmək lazımdır.

Onun düşüncə və islahatlarının təməlini araşdırdığımızda, bunun “tam müstəqillik və azadlıq” qanununa əsaslandığı dərhal gözə dəyər.

Mustafa Kamal hələ məktəb illərində müstəqil bir millət olmadan müasir bir dövlətin qurulamayacağını anlamış və azadlıqdan uzaq bir mühitdə yaşamaqdansa, hər cür təhlükəyə sinə gərərək müstəqil bir millət üçün savaşmağı gözə almışdır. Buradan aldığı güclə vətən torpaqlarını işğal edən güclərə qarşı amansız mübarizə vermiş; Türk millətinin iradəsini bağlayacaq idarə etməyə razı olmamışdır. Başqa ölkələrin boyunduruğu altına girmiş bir millətin zamanla tarixdən silinəcəyini bilən Atatürk “Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı qalmalıyam. Məncə milli istiqlal bir həyat məsələsidir” demişdir.

Əsgərlik illərində Suriyada vəzifəli ikən gizlicə gəldiyi Selanikdə, hərbi Rüştiyə müəllimlərindən Haqqı Bahanın (Pars) evində yoldaşları ilə təşkil etdiyi yığıncaqda bunları söyləmişdir:

> *“.... Millət zülm və despotizm altında məhv olur. Azadlıq olmayan bir məmləkətdə ölüm və izmihlal vardır. Hər tərəqqinin və qurtuluşun anası azadlıqdır.”*

Bu sözlər Mustafa Kamalın qərargahı hazırladığı dövləti hansı təməl üzərinə inşa edəcəyinin ilk işarələrini verirdi.

Mustafa Kamal “Ya istiqlal, ya ölüm” sözü ilə heç bir şəkildə imtina etməyəcəyini göstərdiyi müstəqilliyi elə içinə həzm etmişdi ki, “Azadlıq və müstəqillik mənim xarakterimdir” deyərək onu şəxsiyyətinin bir parçası halına gətirmişdi.

Atatürkün müstəqillik anlayışı yalnız siyasi müstəqilliyi deyil, hərbi, iqtisadi və mədəni müstəqilliyi də içinə almışdır. O tam müstəqilliklə, öz-özünə kifayət edə bilən; müdafiə etmədən texnologiyaya qədər, kənd təsərrüfatından iqtisadiyyata qədər hər sahədə, tək başına ayaqda dura bilən quruluşu nəzərdə tutmuş və belə demişdir:

> *“Müstəqillik sözü deyildikdə, əlbəttə ki, bütün siyasi, maliyyə, iqtisadi, ədliyyə, hərbi, mənəvi və ilahi məsələlərdə tam və sərbəst müstəqillik deməkdir. Bunların hər hansı birində müstəqillikdən məhrum olmağın adını millətin və ölkənin müstəqilliyindən məhrum etmə deməkdir.”*

Yüksək dahiliyi ilə, gələcəkdə yalnız siyasi müstəqilliyin yetərli ola bilməyəcəyini anlayan Ulu öndərimiz; mümkün olmayanlara baxmayaraq, ölkəmizin iqtisadi cəhətdən də müstəqilliyini təmin edəcək sənaye islahatı başlatmış, millətimizi ortaq bir mədəniyyət putasında əridib qaynaşdırmaq üçün milli şəxsiyyət meydana gətirmə səyini göstərmişdir.

Atatürkün tam müstəqillik anlayışının nə qədər məqsədəuyğun olduğunu, müasir dünyaya baxdığımızda dərhal müşahidə edə bilirik. Artıq ölkələr güclərini başqa dövlətlərin torpaqlarını işğal edərək deyil, tətbiq etdikləri iqtisadi və mədəni siyasətlərlə ortaya qoymaqda və bu şəkildə millətlərin müstəqilliyini təhdid edirlər.

Ölkəmizin belə bir təhlükədən qorunması, Atatürkün ortaya qoyduğu tam müstəqillik anlayışının ürəkdən mənimsənməsi və bu anlayışın ehtiyaclarını qərarlı bir şəkildə tətbiq olunması ilə mümkün olacaq.

Müstəqillik kimi sülh də Atatürkün şəxsiyyətinin əhəmiyyətli bir parçası idi. Atatürk dünya tarixinin gəlmiş keçmiş ən böyük əsgərlərindən biridir. Həyatının əhəmiyyətli bir hissəsini cəbhələrdə keçirmiş, bir əsgərin gedə biləcəyi ən yüksək vəzifədə olmuş, ən ağır məsuliyyətləri almışdır. Bununla birlikdə, Atatürk sülhün əhəmiyyətini hər kəsdən daha yaxşı bilir. Necə ki, “Yurdda sülh, dünyada sülh” sözləri sülhü yalnız Türk millətinin rifahı üçün deyil, bütün dünya millətləri üçün istədiyini ortaya qoyur. Atatürk sülhü rifaha və səadətə aparan yol olaraq müəyyən edir:

> *“Sülh millətləri rifah və səadətə çatdıran ən yaxşı yoldur… Məmləkətimizi hər gün daha çox gücləndirmək, hər sahədə hər cür ehtimallara etiraz edəcək bir halda saxlamaq və dünya hadisələrinin bütün mərhələlərini ayıq başla izləmək, sülhpərvər siyasətimizin əsaslarının başlanğıcıdır.”1*

## Qərarlı və ətrafına ruh yüksəkliyi aşılayan lider

Atatürk ən çətin anlarda da qərarlılığından və inancından heç bir şey itirməz və həmişə ətrafına ruh yüksəkliyi aşılayardı.

Atatürkün silah yoldaşı İsmət (İnönü) Paşa ikinci İnönü zəfərindən sonra qazandığı zəfərə görə onu təbrik edən Mustafa Kamal Paşaya cavab olaraq bir məktub yazmışdır. Məktubunda əldə edilən zəfərin arxasındakı əsas gücün Atatürkün ruhundakı atəş olduğunu, bu atəşdə millətin maddi və mənəvi bütün qabiliyyət və qüvvətlərinin toplandığını bu sətirlərlə ifadə etmişdir:

*"TBMM-nin rəisi Mustafa Kamal Paşa həzrətlərinə: Zülm və despotizm dünyasının ən zalımanə hücumlarına qarşı tək və heyrətlər içində qalan millətimizin maddi və mənəvi bütün qabiliyyət və güclərini ruhundakı odla yığan və hərəkətə gətirən Böyük Millət Məclisinin rəisi Mustafa Kamal Paşa!. Qəhrəman əsgərlərimiz; zabit və əsgərimizlə Avcı xətlərində çiyin-çiyinə vuruşan diviziya və korpus komandirləri adına təqdir və təbriklərinizə fəxrlə təşəkkür edirəm."*

Atatürkün qərarlılığının bir başqa nümunəsi Sakarya meydan müharibəsindən əvvəl baş verənlərdə görülmüşdür. Bu hadisələr Atatürkün üstün zəkaya sahib olduğunu, mövcud şərtləri analiz etmə gücünü və millətinə olan sarsılmaz inancını ortaya qoymuşdur.

Sakarya meydan müharibəsindən əvvəl bu hadisələr belə baş vermişdi: 1920-ci ilin iyul ayında Yunan işğal gücləri Geyve boğazından Afyona qədər uzanan xətt boyunca yerləşmiş Türk ordusuna qarşı böyük hücuma başlamışdılar. Mustafa Kamal düşmənə qarşı daha əlverişli şərtlərdə döyüşmək üçün orduya Sakaryanın Şərqinə çəkilmə əmri verdi. Bu taktiki çəkilməsi və Yunan ordusunun irəliləməsi bütün yurdda və TBMM-də böyük həyəcan oyandırmışdır. Hərb sənətindən anlamayan və Atatürkün hərbi dahiliyini haqqı ilə təqdir edə bilməyənlər bu vəziyyəti böyük məğlubiyyət kimi qiymətləndirmişdilər. TBMM-də mübahisə və hiddət çox artmışdı, Mustafa Kamalın inanc və qərarlılığı bu mübahisələrə son nöqtəni qoymuşdu. Nümayiş olunan bir bildiriş ilə xalqın və deputatların əhvalları düzəldilər və inamları artardı. Atatürkün aşıladığı bu inanc və güvən duyğusu qısa müddət sonra böyük zəfərə vəsilə olacaq. Bu bildiriş belədir:

*"Düşmənin irəliləməsi ehtimalına qarşı xalqın, qəti tərəddüd və şübhəsinə yer yoxdur. Düşmənin Anadolu və içlərinə doğru uzanmaq istəyən qolları məzarlarına yaxınlaşır; bu yeni səfər, düşmənin ölüm səfəridir. Allahın köməyi, yaxın hadisələr bu nəticəni göstərəcək."*

Sakarya meydan müharibəsindən əvvəl Böyük Millət Məclisi Mustafa Kamalın ordunun başına keçməsini istədi. Çünki millət və Məclis ona ümid edirdi. Nəticədə 5 avqust 1921-ci il tarixli bir qanun ilə Məclis bütün səlahiyyətlərini Mustafa Kamala təhvil verdi və Ali Baş Komandan elan etdi. Beləliklə, Ərzurum konqresi əsnasında bütün titulları buraxan və bütün vəzifələrindən çəkilən Mustafa Kamal Paşa; milli iradə ilə və Məclis rəisi olaraq hərbidə ən məsul, lakin ən şərəfli vəzifəyə, Ali Baş Komandana yüksəldi.

Osmanlı dövlətində Ali Baş Komandan həmişə padşaha aid olmuş və ordu Baş Komandan vəkilləri tərəfindən idarə edilmişdir. Mustafa Kamal isə bir milli qəhrəman olaraq, Türk tarixi

boyunca milli iradəyə əsaslanaraq Ali Baş Komandan vəzifəsinə keçən ilk Türk Komandanıdır.

Mustafa Kamal bu şərəfli vəzifə ilə əziz Türk ordusunun başına keçdi və 22 gün, 22 gecə davam edən Sakarya meydan müharibəsi boyunca ordunu idarə etdi.

Müharibə əsnasında atından düşən və qabırğa sümüyü qırılan Mustafa Kamal yaralı olaraq xərək üzərindən müharibəni idarə etdi. Bu böyük komandirin cəsarəti, fədakarlığı və inancı əsgərlərə ruh yüksəkliyi aşılayırdı. Bu inanc əmri altındakı qəhrəman əsgərlərin ona duyduqları etibarla birləşincə heç kimin ehtimal vermədiyi bir möcüzə reallaşdı. Əsgər sayı, sursat və hərbi imkanlar baxımından çox əskik olan Türk ordusu qərbin bütün imkanları ilə təsis olunmuş Yunan ordusunu məğlub etdi.

Atatürkün qərarlı və öndər şəxsiyyətinin insanlar üzərində buraxdığı təsir, Qurtuluş müharibəsindən illər sonra belə, bir çox xarici jurnalist və dövlət adamının diqqətini çəkmişdir. Bu jurnalist və dövlət adamlarından bəziləri Atatürk haqqında bunları söyləmişlər:

Fransız jurnalist madam Golis;

> *"Ani olaraq fosfor kimi işıldayan birdən-birə öz içində dönən qəribə baxışları vardı. Qüvvətli şəxsiyyəti, hər şeyi qavramadakı sürətlə, əl hərəkətləri ilə, özünü müəyyən edir. Mustafa Kamal, həqiqətən gənc, təmiz, qəlbən inanmış, xalqını idarə etmək üçün doğulmuş bir insandır."2*

İngilis yazıçı Ravlinson;

> *"Güclü xarakterli və dünya millətləri arasında öz millətini, haqlı qüruru ilə, qəti fikirli insan olaraq heç vaxt şöhrətpərəstlik arxasınca qaçmadı. Yurdunun mənfəətlərini hər şeydən üstün tutan və milləti üçün hər faydalı nəticəyə çatmağa çalışan bu şəxs, gücünü damarlarına işləyən vəzifə duyğusundan alır."3*

İtalyan nazir Soforça;

> *"Həyatının sonuna qədər xalqının etibarı ilə qurduğu dövlətin başında olan müzəffər komandirin şəxsiyyəti misli görülməmiş bir xarakter nümunəsidir."4*

İngiltərə səfiri Persi Loren;

*“Fikri o qədər iti və sağlam idi ki, hadisələrin gedişi, xalqın duyğuları və Türkiyənin iş əlaqələri ilə əlaqədar duyumları təəccüblü bir şəkildə doğru çıxardı.”5*

## Təvazökar dahilik

Atatürkün təvazökarlığı, natiqlikdəki ustalığı və bu ustalığı ən təsirli şəkildə istifadə etməsi, dünya tarixində çox az sayda liderdə görülə biləcək həqiqi bir bəyəfəndilik xüsusiyyətidir.

Birinci İnönü zəfərindən sonra silah yoldaşı İsmət Paşaya yazdığı təşəkkür məktubu bu xüsusiyyətini açıq şəkildə ortaya qoymuşdur;

*“İnönü müharibə meydanında Metris təpədə Qərb cəbhəsinin komandiri və baş qərargahın başçısı general İsmətə: Dünya tarixində sizin İnönü meydan müharibələrində üzərinə aldığı vəzifə qədər ağır vəzifə qəbul etmiş komandirlər azdır.*

Sizin əzmkarlığınız, düşmənin amansız işğalını qayalara başını çarparaq parça-parça etdi. Adınızı tarixin şərəf səhifələrinə yazan və bütün milləti haqqınızda sonsuz minnət və təşəkkürə sövq edən böyük zəfərinizi təbrik edərkən üstündə dayandığınız təpənin, sizə minlərlə düşmən ölüləri ilə dolu bir şərəf meydanını seyr etdirdiyi qədər, millətimiz və özünüz üçün parlaq yüksəlmə ilə dolu bir gələcək üfüqünə də baxdığını və suveren olduğunu söyləmək istəyərəm.”

Atatürkün vurğulamaqda və ucaltmaqda ən həssas olduğu mövzu uca türk millətinin fədakarlığı, cəsarəti olmuşdur. Qazanılan bənzərsiz zəfərin memarı Mustafa Kamal bu zəfərin Anadolu xalqının əsəri olduğunu hər fürsətdə dilə gətirmişdir:

> *“Türklərin sinələrindəki vətənpərvərliyini həmişə pis niyyətlərinə qarşı dəmir divar kimi yüksələcəyini düşünmürdülər. Əslində, millətimiz düşmənin hazırlıqlarına cavab olaraq hər hansı bir fədakarlıq etməkdən çəkinmədi. İstəyərək ordumuza maddi yardım, insan, silah, heyvan, maşın, bir sözlə, nə lazımdırsa vermişdi. Avropanın ən mükəmməl nəqliyyat vasitələri ilə təchiz edilmiş Konstantin ordusunun inanılmaz möcüzəsini Anadolu xalqının fədakarlığına borcluyuq. Ordumuz texnika baxımından geri qalmadı və hətta ondan da üstün oldu.”6*

Atatürk eyni təvazökarlığı 30 avqust zəfərindən sonra da göstərmiş; qazanılan bu böyük zəfərin arxasında Türk ordusunun əmr heyətinin və türk zabitlərinin olduğunu ifadə etmiş; bu böyük zəfəri Türk millətinin bir abidəsi olaraq gördüyünü ifadə etmişdir. Türk millətinin bir övladı olmaq və bu millətin ordusunda Ali Baş Komandan kimi xidmət etmək; bənzərsiz dahilik sahibi bu böyük komandir üçün fəxr ediləcək tək xüsusiyyət idi:

> *“Hər mərhələsi ilə düşünülmüş, hazırlanmış, idarə edilmiş və zəfərlə nəticələnmiş bu müharibə; türk ordusunun, türk zabitlərinin və əmr heyətinin yüksək qüdrət və qəhrəmanlığını tarixdə bir daha təsbit edən çox böyük əsərdir. Bu əsər Türk millətinin ölməz abidəsidir. Bu əsəri meydana gətirən bir millətin övladı, bir ordunun Ali Baş Komandanı olduğum üçün sonsuza qədər məsud və bəxtiyaram.”*

Burada diqqət yetiriləcək əhəmiyyətli nöqtə, Atatürkün türk millətinin və türk ordusunun birlikdə nəzərə alınması, millət və ordusu arasındakı əlaqə və köməkləşmədən bəhs etməsidir. Bu əlaqə yalnız Qurtuluş savaşında görülməmiş; cümhuriyyətin sonrakı illərində də açıqca hiss edilmişdir. İndi də türk xalqının Qəhrəman ordusuna qarşı göstərdiyi həssaslığın və onun hər türkün ürəyində xüsusi bir yeri olmasının səbəbi; tarix boyu davam edən və Atatürkün də sözlərində vurğulamış olduğu bu qopmaz bağdır.

Atatürk Qurtuluş savaşının zəfərlə nəticələnməsindən sonra hökmdar, diktator, xəlifə və bənzər titullar ala bilərdi. Lakin böyük adam ola bilmək üçün, onun parlaq ünvanlara ehtiyacı yox idi. Zəminini hazırladığı və qanunları ilə qurduğu Cümhuriyyətin başçısı olduqdan sonra; çəkdiyi mədəniyyət yolunda getməyə başladı. İstəsəydi şübhəsiz ki, taxta çıxa bilərdi. Lakin bəsirəti buna mane oldu. Qürursuz idi; nümayişi sevməz, öyünməyi bilməzdi. Hər gün bir az da filosof olub, xalq arasında qiyməti artmışdır.7

Bu böyük insanın sahib olduğu təvazökarlıq, yaxın ətrafı və digər insanlarla birə-bir əlaqələrində daha da dəqiq bir şəkildə ortaya çıxırdı. Cümhuriyyət dövrü rəssamlarından

İbrahim Çallının Atatürklə etdiyi söhbət bu təvazökarlığın açıq bir nümunəsi olmuşdur.

İbrahim Çallının o gün yaşadıqlarını Həsən Cəmil Çanbel belə deyir:

Çallı: "Böyük rəisimiz, məni hüzurunuza qəbul buyurdunuz. Və mənimlə danışdınız, siz nə böyüksünüz ki, bizi dinləyirsiniz."

Atatürk: "Mən sizi dinləyirəm, danışmaq sizin nə qədər haqqınızdırsa, mənim də bu böyük millətə söyləmək, özümü ona dinlətmək haqqımdır."

Çallı: "Sizə malik olmaq, bu gözəl tale türk millətinə nəsib oldu."

Atatürk: "Eyni millətin uşaqlarının birlikdə bir-birini tanımaları, sevmələri və yüksək hisslərlə tabe olmaları gözəl bir şeydir. Əgər siz incəsənət mənsubu olaraq bunu təsbit etsəniz, bütün millətə və bütün insanlığa xidmət etmiş olarsınız."

Çallı: "Böyük Rəisi Cumhur..."

Atatürk: "Xeyr, mən bu axşam sizinlə dövlət başçısı olaraq deyil, bir vətəndaş olaraq danışıram. Bu məmləkətdə və hər məmləkətdə həmişə bir dövlət başçısı vardır. Mən sizinlə indi danışarkən bir vətəndaş sifətini düşünürəm."

Çallı: "Siz bu milləti qurtardınız."

Atatürk: "Bu bəhsi burada burax, indi Qazi Mustafa Kamal yox, sizinlə bərabər şərtlər altında danışa bilərəm."

> *"Sözləriniz gözəldir, amma bitdi, tək sənmi söyləyəcəksən. Sənətçilər yalnız tək özlərinin həyəcanlandıqlarını düşünürlər. Ətraflarındakı insanların özlərindən çox həyəcanlandıqlarını unudarlar."*

Çallı: "Böyük Paşam, bir əsərim var, Fındıklı sarayındadır."

Atatürk: "Fındıklı sarayı haradır? Mənim saraylardan xoşum gəlmir. Dövlət başçısı olmaq məcburiyyətində İstanbula gedəndə Dolmabahçe deyilən soyuq bir yerdə qalıram. Və mən orada narahat oluram. Bir evdə olsam, daha rahat olaram."8

Atatürk həyatının əhəmiyyətli hissəsini cəbhələrdə mübarizə etməklə keçirmiş, bir ölkənin Qurtuluş savaşına tək başına istiqamət vermiş, türk ordusunun başına keçmiş və böyük zəfərə imza atmış bənzərsiz dövlət adamıdır. Ancaq qəhrəmanlıqlarla dolu bir keçmişə sahib olan bu insan; gündəlik həyatında nümayişdən uzaq, sakit bir həyat sürməyi seçmişdir. Atatürkün Qurtuluş savaşından sonrakı həyatı onun bu xüsusiyyətini göstərir.

Atatürk Ankaradakı zamanını Marmara köşkündə keçirər, günorta yeməklərini orada yeyər, sıravi bir vətəndaş kimi ferma ilə məşğul olar, bəzən söhbət etmək üçün yaxın yoldaşlarına baş çəkərdi. İstanbulda ikən də gəmi ilə boğaz gəzintisindən, Anadolu sahilindən Adaya getməkdən

xoşu gələrdi. Ən böyük zövqü xalqın arasına qarışaraq, onların əyləncəsində iştirak etmək idi. Hər kəs Atanın ən xoşbəxt olduğu dəqiqələrin xalqı ilə birlikdə olduğunu anlayırdı.

## Atatürkün elmə verdiyi əhəmiyyət

Atatürkün əhəmiyyət verdiyi və müdafiə etdiyi anlayışların həyatımızla olan uyğunluğunu hər sahədə görmək mümkündür. Atatürkün elm mövzusuna yanaşması bunun bir başqa nümunəsidir. Atatürk "Elm və fən haradadırsa, oradan alacağıq və hər millət fərdinin başına qoyacağıq. Elm və fənn üçün heç bir şərt yoxdur" deyərkən, mövzuya olan marağını ön plana çıxardır.

Türk milləti həqiqi xarakterinə zidd düşən cahillikdən və geri qalmışlıqdan xilas olmaq üçün ulu öndər Mustafa Kamal Atatürkün göstərdiyi müasir sivilizasiya yolunda irəliləməli; hədəflərinə çatmaq üçün bir an əvvəl hərəkətə keçməlidir. Bu hədəflərə çatmaq üçün lazım olan hər şey edilməlidir. Türk millətinin üstün xarakteri bunu edəcək gücdədir. Atatürkün elmə verdiyi əhəmiyyət də türk millətini bu hədəfə çatdıracaq yollardan biri olduğu düşünülərək qiymətləndirilməlidir.

## Atatürkün uşaq sevgisi



◉ Solda: Mustafa Kamal Anafartalar Qrupu komandanı ikən döyüş yoldaşları ilə. Sağda: Çanaqqalada vuruşan 3-cü Korpus heyəti.

Çağımıza adını qızıl hərflərlə yazdıran öndərimiz Atatürk ölümündən bu günə qədər hər tərəfli araşdırılmış; onu tanıyanlar da onu müxtəlif tərəfləri ilə izah etməyə çalışmışlar. Çünki O, öyrənilməli, tanınmalı olan çox yönlü bir liderdir.

Atatürk uşaqları çox sevərdi; ətrafında uşaqları görmək istəyərdi; uşaq onun gözündə saflığı və dürüstlüyü, təmizliyi təmsil edərdi. Sabiha Gökçen Atanın bu xüsusiyyətini bir müsahibəsində belə demişdir:

> *“Bizim yetişməyimizdə isə diqqət yetirdiyi məqamlar, yalan danışmamağımız, dürüst və ciddi olmağımız, dedi-qodu etməməyimiz və başqalarını çəkişdirməməyimizi, insanlarla əlaqələrimizin təməlinin hörmət və sevgiyə əsaslanmasını istəyərdi.”9*

Yenə eyni şəkildə, Həsən Rıza Soyak Atatürkün bu xüsusiyyətini xatirələrində belə yazır:

> *“Uşaqlıq nə gözəl şeydir” deyib bunları əlavə edir: “Uşaqlar nə gözəl, nə şirin varlıqlardır, elə deyilmi? Ən çox xoşuma gələn halları nədir, bilirsənmi? Riyakarlıq bilməmələri, bütün istək və duyğularını içindən gəldiyi kimi açıqlamalarıdır.”10*

Çankayada yaxınlarına uşaqlıq günlərindən danışarkən “Mən uşaq ikən kasıb idim. Əlimə iki qəpik keçincə bunun bir qəpiyini kitaba ayırardım. Əgər belə olmasaydı, bu etdiklərimi edə bilməzdim” demişdi.11

Atatürk uşaqlara olan sevgisinin ən böyük təcəllisi olaraq 23 aprel 1920-ci ildə TBMM-ni açmış bu xoşbəxt və əhəmiyyətli günü Cümhuriyyətimizin gələcəyi və təminatı olan uşaqlarımıza “Milli hakimiyyət və uşaq bayramı” adı ilə hədiyyə etmişdir. Dünyada ilk dəfə bizim ölkəmizdə uşaq bayramı qeyd olunmağa başlanmışdır. Bu bayram daha sonra UNESCO-nun 1979-cu ili uşaq ili elan etməsi ilə bütün dünya uşaqlarının, Türkiyə uşaqlarının liderliyində qeyd etdiyi tək uşaq bayramı olmuşdur.

Atatürkün dininə bağlılığından qaynaqlanan səmimi vicdanı, onu ölkədəki hər mövzuya meyl etməsini və həssas olmasını təmin etmişdir. Bunun ən gözəl nümunəsi də kimsəsizlərə qarşı duyduğu məsuliyyət duyğusudur. Osmanlı dövlətinin illərdir bir çox cəbhədə girdiyi döyüşlər, xüsusilə də, Balkan müharibələri və I Dünya Müharibəsi çox əsgər itirməsinə və nəticədə də, bir çox uşağın kimsəsiz qalmasına səbəb olmuşdur. Müharibənin gətirdiyi sosial böhranlar böyük şəhərlərə köçü başlatmış; beləliklə, bu sosial yara böyüməyə başlamışdır.

Bu vəziyyətə bir əlac tapmaq üçün xalqın və dövlətin cəhdləri ilə həll yolu axtarılmağa başlanmış; əvvəl kimsəsiz uşaq evləri, sonra da İstanbulda Himayə-i Eftal cəmiyyəti qurulmuşdur. TBMM hökuməti də Mustafa Kamalın liderliyində 30 iyun 1921-ci ildə bugünkü adı “uşaq əsirgəmə qurumu” olan təşkilatın açılmasına liderlik etmişdir.

Mustafa Kamalın o çətin müharibə illərində, insanların aclıqdan sarsıldığı günlərdə də gələcəyimiz olan uşaqlarla yaxından maraqlandığını; əksərini qoruma altına aldığını yaxın ətrafından da görə bilərik. Sonrakı illərdə Qurtuluş savaşının səbəb olduğu kimsəsiz uşaqların sağlamlıq, təhsil və təməl ehtiyaclarının qarşılanması üçün günün şərtlərinə uyğun çalışma başlatmışdır. Vətəndaşlar “məmləkətin uşaqlarını qorumağı üzərinə alan uşaq əsirgəmə qurumuna kömək etməyə məcburdurlar” sözləri ilə, mövzunun əhəmiyyətinə diqqət çəkən

Mustafa Kamal Atatürk; yurd gəzintilərində baxıma və qorumağa möhtac uşaqların qaldıqları internatları gəzərək onlara hədiyyələr paylamışdır. Atatürk bu mövzuda həssas olunmağı, himayəsinə aldığı mənəvi övladlarla (Makbule, Afet İnan, Sabiha, Ülkü, Rukiye, Nebile, Abdurrahim, Afife, Zəhra və Mustafa) göstərmişdir.

Ölkənin içərisində olduğu vəziyyəti əks etdirməsi baxımından, Atatürkün xatirə dəftərində yer alan bir hissə həqiqətən diqqət çəkicidir.

9 noyabr, 1916

> *“Yollarda bir çox mühacir gördük, Bitlisə geri qayıdırdılar. Ac, səfil, ölümə məhkum bir halda 4-5 yaşlarında bir uşağı valideynləri yolda tərk etmişdilər, bu da bir ər-arvadın arxasınca düşmüşdü. Onları ağlayaraq 100 metrdən izləyirdi. Uşağı nəyə görə götürmədikləri üçün onları qınadım. “Bizim övladımız deyil” dedilər. Düşünürəm ki, ölkənin içinə düşdüyü vəziyyəti ən sadə şəkildə bu cümlələr təsvir edir.”12*

Atatürk Bursaya etdiyi ziyarət əsnasında onu qarşılamağa gələn uşaqlara belə səslənmişdir:

> *“Siz hamınız gələcəyin bir gülü, ulduzu və iqbal işığısınız.*

Siz məmləkəti əsl işığa bürüyəcəksiniz.



◉ Atatürk mənəvi qızı Ülkü ilə birlikdə

Özünüzün nə qədər əhəmiyyətli, qiymətli olduğunuzu düşünərək ona görə çalışın. Sizdən çox şey gözləyirik.” (Atatürk albomu-1992)

## Atatürkün qadınlara verdiyi dəyər

İctimai həyatın başlanğıcı olan ailə həyatının cəmiyyətin psixoloji və sosial quruluşunun formalaşmasında əhəmiyyətli yeri vardır. Türkün yüksək xarakterinin ailəyə verdiyi dəyəri

qavrayan və bir millətin davamlılığı üçün mənəviyyat, ailə, əxlaq kimi anlayışlara sahib olmasının əhəmiyyətini bilən Atatürk də; ailənin müqəddəsliyinə inanır, cəmiyyətin davamlılığı üçün ailəyə və mənəvi dəyərlərə sahib çıxılmasının əhəmiyyətini bilərdi.

Türklərin tarixinə baxdığımızda, türk qadınının çox əhəmiyyətli və dəyərli yeri olduğunu görürük. Kişilərlə bərabər haqlara sahib olan qadınlar dövlət rəhbərliyində xaqanların yanında söz haqqına da sahib idilər. Halbuki, daha sonrakı əsrlərdə türk qadınları Osmanlı İmperatorluğu rəhbərliyi içində, geri qalmaqdan xilas ola bilməmiş, sanki ikinci sinif insan rəftarı görmüşdür. Tarix boyunca azad yaşayan, tarix yazan, bir çox türk böyüyünü yetişdirən türk qadını bu vəziyyətdə daha çox qala bilməzdi. Onsuz da əsrlərdir xarakterinə uyğun gəlməyən bir quruluş içində yaşamaq məcburiyyətində qalmışdı. Atatürk “Ey qəhrəman türk qadını! Sən yerdə sürünməyə deyil, çiyinlər üzərində göylərə yüksəlməyə layiqsən” deyərək, Türk qadınını yenidən ayağa qaldırmışdı.

Din, əxlaq və ailə müəssisələrinə sahib çıxan, ailənin təməli sayılan türk qadınının cəmiyyətlə bağ qurmasını istəyən Atatürk; qadınlara mədəni ölkələr səviyyəsinə yüksəlmənin ən əhəmiyyətli amillərindən olan bərabərlik haqlarını vermək istəmişdir. Türk qadının daha rahat həyat yaşamasını istəyən, onun çiyinlərindəki ağırlığın fərqində olan Mustafa Kamal Atatürk; cümhuriyyətimizin təminatı olan uşaqlarımızın analarına haqlarını vermişdir. Haqlarını alan türk qadını, bu inkişafın ardından sosial həyatdakı yerini alır; müəllim, hakim, həkim, mühəndis, rəssam, yazıçı, əsgər, polis, siyasətçi, qubernator, nazir, baş nazir olaraq, kişilərlə bərabər şərtlərdə yaşayar.

## Bir Osmanlı bəyi-Atatürk

### Zövqlü geyimi və süfrə ədəbi

Atatürk ziyalı, düşüncəyə hörmətcil, sadə ailə mühitində yetişmiş tam Osmanlı bəyəfəndisidir. Atatürkü seçilmiş Osmanlı bəyəfəndisi edən xüsusiyyətlərindən biri geyiminə göstərdiyi diqqət və bu mövzudakı dərin zövqü idi. Atatürk çox təmiz geyinən, geydiyini özünə yaraşdıran; zövqlü, güclü, gümrah bir insan idi. Yay günlərində həmişə incə boz şalvarla qısa qollu ipək və ya kətan köynək geyinərdi. Bu paltarının altına da corabsız səndəl geyinərdi.13

Atatürkün geyim zövqü günümüzdəki stilistlərin də diqqətini çəkmişdir. Məşhur türk stilist Faruk Saraç, Atatürkün ölümündən 60 il sonra Atatürkün kostyumlarını arxiv fotoşəkillərindən araşdırmış və iki illik çalışma nəticəsində Atanın geyim zövqünü ortaya qoyan moda nümayişi təşkil etmişdir. Məşhur stilist bu moda nümayişini peşə həyatının ən əhəmiyyətli hadisəsi kimi xarakterizə etmiş; Atatürkün geyim zövqünə və geyimindəki detallara olan heyranlığını açıq şəkildə ifadə etmişdir.

Böyük dövlət adamı Atatürkün həqiqi bir bəyəfəndi olduğunu göstərən xüsusiyyətlərindən biri də süfrə ədəbinə verdiyi əhəmiyyət idi. Süfrə Atatürkün ən böyük zövqlərindən biri idi. Çox diqqətli olduğu üçün süfrənin də nizamlı olmasını istəyərdi. Bu səbəblə, süfrəyə oturarkən hər

şeyin yerli yerində olmasına xüsusi diqqət yetirərdi. Süfrənin tənzimində, süfrədə, qablarda, çəngəl, bıçaqlarda bir səhv görsə, şəxsən düzəldər, ondan sonra süfrəyə oturardı.

Bu nizama yalnız öz evində deyil, qonaq olduğu başqa yerlərdə də diqqət yetirərdi. Süfrə Atatürkün qərar və düşüncələrinin bir cür əsas nöqtəsi; qonaqlarının da isə sanki feyzyab qaynağı idi.

Atatürkün süfrəsi yalnız bir yemək süfrəsi deyil; bir cür akademiya, məktəb idi. Sabiha Gökçen Atanın bu xüsusiyyətini aşağıdakı sözləri ilə izah etmişdir:

> *"Bu bilinməlidir ki, Qazi Paşanın süfrəsi əsla eyş-işrət yeri, vaxt keçirmə, zaman öldürmə yeri deyildi... O bu süfrəni sanki məktəb halına salmışdı. Bu süfrə dünya problemlərinin, yurd problemlərinin, elmin, fəlsəfənin, sənətin, insanlıq idealının və mədəni Türk xalqının gələcəyinin səhərə qədər müzakirə edildiyi bir məktəb idi... Aydınlıqlarla, yaxşı niyyətlərlə dolu bir süfrə..."14*

Bununla birlikdə, Atanın süfrəsi bəzilərinin sandığı kimi bütün dövlət işlərinin müzakirə edildiyi yer də deyildi. Atatürk süfrəsində dedi-qodu mövzularının danışılmasına da əsla icazə verməzdi.15

Axşam süfrəsində kompliment demək istədiyi beş-on yoldaşını ətrafına yığmaq, onlarla söhbət etmək və beləliklə, yaxşı gecə keçirmək tək əyləncəsi idi. Onlara keçmiş hadisələrdən bəhs edər, sıra ilə xoş əhvalatlar, macəralar danışardı. Bu, onun üçün bir zövq idi.



Atatürk süfrə ədəbinin yanında, incə bir musiqi zövqünə də sahib idi. Alaturka sazdan xoşu gələr, çox vaxt da mahnı oxuyardı. Ancaq ən kefi yaxşı anında belə, qarşısında vəzifəli birini görən kimi söhbəti, danışmağı dərhal yarıda kəsər, "Mənimi istəyirdin?" deyə qalxıb gedərdi. Ölkə işlərini hər şeydən üstün tutardı.16

## Atatürkün nümunəvi rəftar və davranışları

Hərbi dahiliyi, dövlət adamı, böyük öndər və Ali Baş Komandan olmaqla yanaşı; Atatürkün ön plana çıxan başqa fərdi xüsusiyyətləri də vardı. Atatürkün yaxın yoldaşı, TBMM-nin Qaziantəp vəkili Kılıç Ali Paşa, Atatürkün şəxsiyyətini belə izah edirdi:

> *"Atatürk çox müşfiq, çox incə, çox vəfalı insan idi. Vəfasızlara qarşı çox qəzəblənər və kədər duyardı. Yaxınlarının, sevdiklərinin hətta ailəvi dərdlərini dinləyər, sanki bir ata şəfqəti ilə onlara çarələr axtarar, təsəlli edərdi. İnsan onun hüzuruna çıxaraq dərdlərini dedikdən sonra rahatlayar, ürəyi hüzurla dolaraq, böyük fərahlıq içində yanından çıxardı."*

Atatürk, heç kimin, hətta düşmənlərinin belə iztirabına, çətinlik çəkməsinə əsla dözməz və icazə verməzdi.17

Atatürk çox səbirli insan idi. Bəzən süfrəsində özü ilə qonaqları arasında, millət vəkilləri ilə, yoldaşları ilə mübahisə şəklində elə münaqişələr olardı ki, onun icazə və dözümündən cürət alınaraq göstərilən daşqınlıqlara səbir etmək və dözmək üçün ancaq və ancaq Mustafa Kamal olmaq lazım idi. Bu səbir və dözüm ona məxsus, ona yaraşan bir üstünlük idi.18

Atatürkün ikiüzlü, riyakar, yaltaq insanlardan xoşu gəlməzdi. Heç kimin qeybət etməsinə, yaxud bir-biri əleyhinə dedi-qodu etməsinə və bu qabil bəsitliklərə dözməzdi. Onun hüzurunda o və ya bu, filankəs əleyhinə dedi-qodu etmək kimin həddinə idi? Belə hadisə ilə qarşılaşanda bir fürsət tapar və dərhal o iki insanı üzləşdirərdi.19

### QEYDLƏR


1. "Atatürk'ün Söylev ve Demeçler", cild 1, səh. 412

2. "Atatürk Bir Çağ'ın Açılışı", Akademik Sadi Irmak, səh. 333

3. A.k.ə., səh. 333

4. A.k.ə., səh. 334

5. A.k.ə., səh. 334

6. TBMM protokolları, cild 12, səh. 210

7. "Atatürk Yolu", Otomarsan mədəniyyət nəşri, səh. 115

8. "Atatürk Bir Çağ'ın Açılışı", Akademik Sadi Irmak, səh. 349

9. 11 mart 1999-cu il tarixində Baş Qərargah ATASE başçılığı ilə ATATÜRK Araşdırma və Təhsil Mərkəzindən dr. kapitan Zekeriya Türkmən ilə kapitan Hülya Şahin Türkiyə Cümhuriyyətinin və

dünyanın ilk qadın hərbi pilotu olan Sabiha Gökçen ilə müsahibəsi Silahlı Qüvvətlər jurnalının 361-ci sayından.

10. Həsən Rıza Soyak, “Doğumundan Cumhuriyet'in İlânına Kadar Fotoğraflarla Atatürk ve Atatürk’ün Hususiyetleri”, Həyat nəşrləri, İstanbul 1965, səh. 78-79; Həsən Rıza Soyak, “Atatürk’ten Hatıralar”, I cild, Quruluş və Kredit bankı MMM. nəşrləri, İstanbul 1973, səh. 60-61.

11. Həsən Rıza Soyak, “Doğumundan Cumhuriyet'in İlânına Kadar Fotoğraflarla Atatürk ve Atatürk’ün Hususiyetleri”, Həyat nəşrləri, İstanbul 1965, səh. 78-79; Həsən Rıza Soyak, “Atatürk’ten Hatıralar”, I cild, Quruluş və Kredit bankı MMM. nəşrləri, İstanbul 1973, səh. 60-61.

12. http://www.shcek.gov.tr/dosyalar/tarihce/t2.htm

13. Kılıç Ali, “Atatürk’ün Hususiyetleri”, səh. 100

14. Sabiha Gökçen, “Atatürk’ün İzinde Bir Ömür Böyle Geçti”, səh. 55

15. Ali Kılıç, “Atatürk’ün Hususiyetleri”, səh. 100

16. “Devrim Tarihi ve Toplum Bilim Açısından Atatürk”, səh. 138

17. A.k.ə., səh. 71

18. A.k.ə., səh. 72

19. A.k.ə., səh. 80

X FƏSİL
10

# Atatürkün qələmə aldığı bəzi kitablar

Mustafa Kamalın yazmağa olan marağı hərbi məktəb sıralarında başlamışdır. Məktəb sıralarında ədəbiyyat və şeir ilə maraqlanmış; bütün fürsətləri qiymətləndirərək, özünü natiq kimi də yetişdirməyə çalışmışdır.

Suriya və Makedoniya cəbhələrində peşə məlumatlarını tətbiq etmə fürsəti ələ keçirən Mustafa Kamal Atatürk ordunun axsayan tərəflərini təsbit etmiş; alman ordusunun nizamına öz ordumuzun təcrübələrini də əlavə edərək yeni islahatlar edilməsini bildirmişdir. 1908-1918-ci illər arasında bu mövzu ilə əlaqədar bəzi kitab və braşuralar qələmə almışdır. Bunlardan;

## Dəstənin müharibə təhsili

Alman general Litzmannın "Səfərbərlikdə dəstə", "Bölük və batalyonun müharibə təlimləri" adlı əsərinin tərcümə etdiyi ilk hissəsi; qərargahda təcrübəli kapitan ikən 10 fevral 1908-ci ildə tərcümə edib xəritəli olaraq Selanikdə nəşr edilmişdir.

## Bölüyün müharibə təhsili

Mustafa Kamalın yenə alman general Litzmanın "Səfərbərlikdə dəstə", "Bölük və batalyonun müharibə təlimləri" əsərindən tərcümə etdiyi əsər, 1912-ci ildə eskiz olaraq hazırlanmışdır.

Digər iki kitabça isə təlimlərin daha çox insana çatması, peşə artırmalarında faydalı olması məqsədi ilə qələmə alınmış və çoxlu eskizdən istifadə edilmişdir. Bunlar;

Cüməli düşərgəsi

Makedoniyadakı Cüməli düşərgəsində 3-cü süvari diviziya komandiri briqadir Suphi Paşanın komandirliyində reallaşdırılan, özünün də qatıldığı 10 günlük təhsil və təlimlər ilə bağlı müşahidələrini izah etdiyi bu əsər; 1909-cu ildə nəşr edilmişdir. Bu əsərə 7 ədəd eskiz əlavə olunmuşdur.

## Taktika və təcrübə gəzintisi

Atatürk bu kitabçanı müharibə əsnasında yalnız müəyyən qaydaların tətbiq olunması ilə zəfər qazanılamayacağını; komandirlərin yüksək məlumata sahib olmaları sayəsində birliklərin müvəffəqiyyətli olacağını ifadə etmək üçün qələmə almışdır.

## Zabit və komandir ilə danışıqlar

Dostu Nuri Conkerin "Zabit və komandir" adlı əsərinə qarşılıq olaraq Atatürkün əsgərlik mövzusunda yazdığı ən əhəmiyyətli əsəridir.

## Nitq

*"Nitq" Atatürkün İstiqlal müharibəsi, Cümhuriyyətin quruluşunu və islahatların reallaşdırılması və o günün şərtlərini izah etdiyi əsəridir. Atatürk bu əsərini 15-20 oktyabr 1927-ci il tarixləri arasında Məclisdə oxumuşdur. "Nitq" 1934-cü ildə Milli Təhsil Nazirliyi tərəfindən üç cild halında yenidən nəşr olunmuşdur.*

## Həndəsə

Şagirdlərin ərəbcə və farsca terminləri anlamaqda çətinlik çəkdiklərini görən Atatürk; dərs kitablarından xarici dildəki terminləri təmizləmək üçün şəxsən nümunə olmuş, 1936-1937-ci illər arasında bu əsəri qələmə almışdır.

## Şeirləri

### Bir əsgərin məzarına

Burada qəbrin üzərində qoyulmuş bir

Ağ daş var, onun altında bayraqlar

Dalğalanarkən, kəllələr uçuşarkən...

Qəhrəmanlıq göstərərkən gələn ölüm

İlə bu aləm ilə vidalaşmış bir

Əsgər yatır...

Onun sevgisi istirahətə çəkildiyi bu

Məqbərənin üzərinə yoldaşlar sevgi gözyaşları tökdülər.

Bütün qadınlar matəm oldular.

Qocalar nalə etdilər, uşaqlar ağladılar.

Bu söyüd ağacının oğurladılar sənin

Məzarın üzərinə bir zireh başlıq ilə qılınc haqq,

Olunmuşdur. Məhz ora o

möhtərəm qəhrəmanın

Balaca ada istirahətidir. Nə xoşbəxt ki, vətən haqq rütbəsi

Ona müraciəti intizar olmuş!...

## Həqiqət hardadır?

Qafil, hansı üç əsr, hansı on əsr

Tuna əzəldən Türk diyarıdır.

Bilinən tarixlər söyləməmiş bunu

Qalxır örtülər, örtülən doğulacaq,

Dinləyin səsini doğan tarixin,

İşıqlıqda qaraltı, qaraltıda şəfəq

Yalan tarixi basdırıb doğru tarixə gedin.

Asiyanın ortasında Oğuz oğulları,

Avropanın Alplarında Oğuz nəvələri

Şərqdən çıxan biz

Harada olsa, nə olsa özümüzü bilərik

Türk yalnız bir millətin adı deyil,

Türk bütün insanların birliyidir.

Ey bir-birinə diş qıcıyan yığınlar,

Ey yığın-yığın insan qəflətləri,

Cırılsın gözlərdəki qəflətdən pərdə,

Həqiqət hardadır?

## Despotizm qəsidəsi, yaxud qırmızı izlər

Bir köhnə zəif parçası, bir uğursuz çöhrə,

Zülmətlər içində tərəddüdlü, təlaşlı,

Daim mütəfəkkir görünən, özünəməxsus

Sükunətli düşüncələr ilə aləmə qarşı

Atəş saçaraq etmədə hər gün bizi təhdid,

Səmimi amalını çoxaltdı...

Gördükcə bu məzlumlarını, sinəsi məğrur,

Dırnaqlarını ailələr ürəyinə batırar;

Məzlumların hər biri bir küncdə ağlayar,

Vətən, övladını məğlub görməyə dözdü...

Bir çoxlarımız sürgündə süründük.

Ey yaralanmış qazi, veqa dideye döndük.

Ey qanlı əli ilə vətən amalına hail,

Ey ən milei sürbu cinayata delail

Təşkil edən ey zəif, qanlı əfkar,

Ey qanlı dəliqanlı vətən, qanlı hür,

Ey varlığı bir millət üçün badii zillət.

Ey çöhrəsi cine dönən dəhşəti vəhşilik,

Zindanları, sürgünləri, məhbusları doldur,

Zənciri əsarətlə bütün hissləri dondur.

Təslimi nəfəs, sürgün, sonra dənizlər..

Hər girdiyin evlərdə dayanar qırmızı izlər...

Xəyanət kabusu ilə vətən can verərkən

Gələcəyimizi hirslə gəmirərkən

Bir gün Rumeli dağları nura boyandı;

Azadlığın nəfəsi ilə hər kəs oyandı.1

24 noyabr 1908

## Atatürkün oxuduğu kitablardan bəziləri

1. Ahmet Vefik Paşa : Lehçe-i Osmani

2. Mehmet Salahi : Kamus-u Osmani

3. Avram Galanti : Türkçede Arabi ve Latin Harfleri ve İmla Meselesi

4. Mehmet Ali : Tahsil-i Lisan-ı Alman

5. Nüzhet : Kendi Kendine Almanca

6. Ahmet Cevat : Türkçe Sarf ve Nahif

7. Kazım Nami : Türkçe Oku, Türkçe Yaz

8. Mithat Sadullah : Latin Harflerinin Türkçe'ye tatbiki

9. İbn Emin Mahmut Esat : Tarih-i Din-i İslam

10. Osman Bin Süleyman : Kamus

11. Lütfullah Ahmet : Hayat-ı Hazret-i Muhammed

12. Abdunnaim Bin Hasan: Ceridetül Evail ve Hamidetül Evahir

13. Ahmet Halit : İslam Büyükleri

14. Abdurrahmanil Cami : Tercüme-i Nefhatül İnsan

15. Mehmet Cemil : Hukuku Düvel

16. Katip Çelebi : Cihannüma

17. Feridun Bey : Feridun Bey Münşeatı

18. Mehmet Bin Sait : Kitabü'l Tabakatü'l-Kebir

19. Şemseddin Sami : Kamusu Okyanus

20. H.Z. Ülken : Aristo Metafizik

21. Süheyl Ünver : İbn-i Sina

22. Ahmet Rifat : Lügat-ı Tarihiye ve Osmaniye

23. M.Fuat : Amerika'da Türkler ve Gördüklerim

24. Rıza Tevfik : Kamus-u Felsefe

25. Cemal Paşa : Hatırat (1913 - 1922)

26. Mehmet Cemil : Sulhta ve Harpte Hukuku Düvel

27. Evliya Çelebi : Seyahatname

28. Suphi : Tekmiletül'l-iber

29. Lütfi Simavi : Devr-i İnkılap

30. Mustafa Necip : Selimname

31. Osmanzade Taib : Hakikatü'l Vüzera

32. Ahmet Saip : Vaka-i Sultan Aziz

33. Ahmet Hilmi : Tarih-i İslam

34. Mazhar Fevzi : Hayr-i Sahil

35. Ziya Paşa : Endülüs Tarihi

36. Resulzade Mehmet Emin : Azerbaycan Cumhuriyeti

37. Ali Reşat : Tarih-i Osmaniye

38. Ali Reşat : Kurun-u Cedide Tarihi

39. Sebahattin : İttihat ve Terakki Cemiyeti'ne Açık Mektuplar

40. Mahmut Esat : Tarih-i Dini İslam

41. Ahmet Mithat : İnkılap

42. Ahmet Cevdet : Kısas-ı Enbiya ve Tevarih-i Hulefa

43. Mustafa Efendi : Tarih-i Selanik

44. M. Şemsettin : İslam Tarihi

45. Ahmet Rasim : Osmanlı Tarihi

46. Necip Asım : Türk Tarihi

47. Mustafa Nuri Paşa : Netayic-ül Vukuat

48. Mehmet Zihni : Neşahir-ün Nisa

49. Mehmet Şemsettin : Mufassal Türk Tarihi

50. Dede Korkut Hikayeleri

51. Ziya Gökalp : Türk Medeniyeti Tarihi

52. Roux de Rochelle : Etats-Unis D'Amerique

53. M. Dubois de Jancigny ve M. Xavier Raymond : Inde

54. M. Chopin : Russie

55. M. G. L. Domeny de Nenzi : Oceanique

56. Bary de St Vinvent : Iles de l'Ocean

57. M. Ph. Le Bas : Etats de la Confederation Germanique

58. M. Van Hasselt : Belgique et Hollande

59. M. Louis Lacrcix : Iles de la Grece

60. M. Louis Lacrcix : Chili, Paraguay, Uruguay, Buenos Aires

61. Champollion Figeac : Egypte Ancienne

62. M. J. J. Marcel : Egypte depuis la conquete des Arabes

63. Rozet et Carette : Algerie, Etats Tripolitains, Tunisie

64. Lavalle ve Gueroult : Espagne

65. M. Ph de Golbery : Histoire et Description de la Suisse et du Tyrol

66. M. G. Pauthier : Chine et son Description Historique

67. M. Chepin ve A. Ubicini : Provinces Danubiennes et Roumanies

68. M. Ph. le Bas : Suede et Norvege

69. Ferdinand Denis : Portugal

70. Ferdinand Denis : Afrique

71. Ferdinand Denis - M. C. Famin : Bresil, Colombie et Guyane

72. M. Larenaudiere ve M. Lacroix : Mexique Guatamala Perou

73. M. Davezat : Iles de l'Afrigue

74. M. A. Tardieu, M. S. Cherubini : Senegambie et Guinee

75. M. N. Desvergers : Nubie, Abyssinie

76. Lacroix Yanoski : Italie Ancienne

77. M. Le Chevalier Artaud : Italie Sicile

78. Frederic Lacroix : İles Baleres et Pithyuse

79. M. Friess De Colonma : Histoires des Antilles

80. M. Elias Rensult M. Roux De Rochelle : Villes Anseatiques

81. M. Ferdinand Hoeger : Chaldee Assyrie Medie Babylonie

82. M. Neel Desverges : Arabie

83. S. Munk : Palestine Description Geographique historique et areheologique

84. Jean Yanosky ve M. Jules David: Syrie Ancienne et Moderne

85. M. Dubeux : Tatarie, Beloutchistan

86. M. V. Valmont, M. Xavier Raymond: Boutan et Nepal

87. Ernest Lqvi see ve Alfred Rambaud: Histoire Generale du IV e Siecle a nos jours (12 cild)

88. Jean Jaures : Histoire Socialiste de la Revolution Française

89. Hilaire de Barenton : Le Mystere des pyramides2

## QEYDLƏR

1. www.ataturk.net

2. www.ataturk.net

ƏLAVƏ BÖLMƏ

# 11 TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər




Çarlz Darvin

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər




Aleksandr Oparinin həyatın mənşəyinə təkamülçü izah gətirmək üçün icra etdiyi səylər böyük bir uğursuzluqla nəticələndi. Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün böyük bir dilemmadır.

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)



Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.



Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, dörd ayrı molekulun fərqli düzülməsindən yaranan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alar. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya ortaya çıxacağı hesablanmışdır. Əlbəttə bu cür fövqəladə bir məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız edir.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri



Təbii seleksiyaya görə, güclü olan və yaşadığı mühitə uyğunlaşa bilən canlılar həyatda qalar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir sübut belə yoxdur.

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş verdikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur



Sekvoya yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər.

Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.



Günəş balığı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 54-37 milyon il

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:



Tozağacı yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları

arasında tapıla bilər”. (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:



Dəniz şabalıdı Dövr: Paleozoy erası, Daş kömür dövrü Yaş: 295 milyon il

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri



Dəniz ulduzu Dövr: Paleozoy erası, Ordovik dövrü Yaş: 490-443 milyon il

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:



“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)



Çayır ağcaqanadı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 48-37 milyon il

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı



Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens



Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)



Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)




Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنٖىۤ اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ
وَاَشْهَدَهُمْ عَلٰىۤ اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى
شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلٖينَ

Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxarıdakına bənzər bir qaba canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları, qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər müddət gözlənilsin bu qabdan canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.




100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?




Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül

mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon

ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *“Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!* (Bəqərə surəsi, 6-7)



> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)*

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

# ƏDƏBİYYAT


1. John C. Leffingwell, “Olfaction-Page 5: Recent Events en Olfactory Understanding”, 2001, http://www.leffingwell.com/olfact5.htm.

2. R. Axel, “The Molecular Logic of Smell”, Scientific American, oktyabr 1995, səh. 154-159.

3. “A database of human olfactory receptor genes”, The Human Olfactory Receptor Verilən Exploratorium, 2001, http://bioinformatics.weizmann.ac.il/HORDE/humanGenes/.

4. Heinz Breer, “Olfaction”, Encyclopedia of Life Sciences, avqust 1999, http://www.els.net

5. Stuart Firestein, “Olfactory Receptor Neurons”, Encyclopedia of Life Sciences, dekabr 2000, http://www.els.net.

6. W. Wu, K. Wong, J. H. Chen, Z. H. Jiang, səh. Dupuis, J. Y. Wu, Y. Rao, “Directional guidance of neuronal migration en the olfactory system by the zülal Slit”, Nature 400, 22 iyul 1999, səh. 331-336.

7. G. Ohloff, “Scent and Fragrances”, Springer-Verlag, Berlin Heidelberg, 1994, səh. 6.

8. A. I. Spielman, J. G. Brand, W. Yan, “Chemosensory Systems”, Encyclopedia of Life Sciences, iyun 2000.

9. Michael Meredith, “The Vomeronasal Organ”, Florida State University, 2001, http://www.neuro.fsu.edu/research/vomer.htm.

10. “The Olfactory System: Anatomy and Physiology”, Macalester College, 2001, http://www.macalester.edu/~psych/whathap/UBNRP/Smell/nasal.html.

11. Frank Zufall, Trese Leinders-Zufall, “The Cellular and Molecular Basis of Odor Adaptation”, Chemical Senses 25, Oxford University Press, 2000, səh. 473-481.

12. R. səh. Herz, T. Engen, “Odor memory: review and analysis”, Psychonomic Bulletin and Review 3, 1996, nömrə 3, səh. 300-313.

13. Tim Jacob, “Olfaction”, 2001, http://www.cf.ac.uk/biosi/staff/jacob/teaching/sensory/olfact1.html.

14. R.S. Herz, T. Engen, “Odor memory: review and analysis”, Psychonomic Bulletin and Review 3, 1996, nömrə 3, səh. 300-313.

15. Tim Jacob, “Olfaction”, 2001, http://www.cf.ac.uk/biosi/staff/jacob/teaching/sensory/olfact1.html

16. Selçuk Alsan, "Yemeklerin Tadı, Kokusu", Elm və texnik, fevral 1999, səh. 98-99.

17. “Disorders of Smell”, Macalester College, 2001, http://www.macalester.edu/~psych/whathap/UBNRP/Smell/disorders.html.

18. Tim Jacob, “Olfaction”, 2001,
http://www.cf.ac.uk/biosi/staff/jacob/teaching/sensory/olfact1.html.

19. “Nutrition and Appetite”, Monell Chemical Senses Center, 1998,
http://www.monell.org/researchoverview_h.htm

20. Tim Jacob, “Olfaction”, 2001,
http://www.cf.ac.uk/biosi/staff/jacob/teaching/sensory/olfact1.html.

Atatürk Türk millətinin yetişdirdiyi ən bənzərsiz siyasi dahilik, ən güclü dövlət adamı və heç şübhəsiz, ən böyük komandirdir. İstər doğuşdan sahib olduğu qabiliyyətlər, istərsə də həyatı boyunca qazandığı xüsusiyyətlərə görə çox üstün və seçilmiş xüsusiyyətlərə malikdir.

Onun üstün hərbi dahiliyi, uzaqgörənliyi, həmişə məqsədəuyğun qərarlar verə bilmə, cəsarət, polad kimi iradə, əzm, qərarlılıq və güclü məsuliyyət anlayışı kimi xüsusiyyətlərlə özünü göstərir.

Biz də Atatürkə aid olan bu xüsusiyyətlərdən nümunə götürməli və bu mövzuda digər millətlərə nümunə olmalıyıq. Bunu təmin etməyin yolu Atatürkü həyatı, əsgərliyi, sosial həyatı, əxlaqı ilə bir bütün olaraq tanımaqdan keçir. Atatürkü yaxşı anlamaq; yalnız onun şəxsinə istiqamətli təriflər etmək, şifahi təqdir etməklə deyil, özünün millətindən nə istədiyini anlamaq, fikir quruluşunu və qanunlarını həyata keçirmək deməkdir.

Məhz bu əsərdə; doğumundan məktəb illərinə, zabitlikdən baş komandirliyə uzanan müvəffəqiyyətli hərbi karyerasına, səmimi müsəlman olmasından, hərəkətli sosial həyatına, qanunlarından islahatlarına, qısacası, hər tərəfli Atatürkü öyrənəcək, ona olan sevgi və hörmətinizin artdığına şahid olacaqsınız. Həqiqətən də, Mustafa Kamal Atatürk “son” deyilən yerdən başlayaraq ölkəni qaranlıqdan aydınlığa çıxaran bənzərsiz bir liderdir. İndi bizim üzərimizə düşən isə, onun bizə buraxdığı bu gözəl ölkəyə ən yaxşı şəkildə sahib çıxmaq, çox çalışaraq ölkəmizi Atatürkün deyimi ilə “müasir mədəniyyətlər” səviyyəsinə çatdırmaqdır.

**ADNAN OKTAR**

## MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.